RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 88 (8404) ÇƏRŞƏNBƏ, 6 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycanın özü qədər əbədi




**Böyük şəxsiyyətlər haqqında yazmağın məsuliyyəti yaradıcı çətinliyindən daha böyükdür. Hələ əgər o şəxsiyyət xalqın milli dövlətçilik tarixinin son yarım əsrdəki çox əhəmiyyətli bir dövrünün müəllifidirsə, ilk cümləni yazmadan əvvəl istər-istəməz düşünməli olursan: görəsən, düşüncələri hansı yöndən qələmə almağa başlasan yaxşı olar?!**
**Onun həyat və fəaliyyətini, irsini lazımi qədər bilirikmi?!**
**Yazdıqlarımız oxucu üçün nə dərəcədə yeni və faydalı olacaq?!**

Bədii-publisistik yaradıcılığımda indiyə qədər Heydər Əliyev şəxsiyyəti mövzusuna çox müraciət etmişəm. Bu böyük Azərbaycanlının tarixi irsi haqqında yaddaşımda da, qeyd dəftərlərimdə də, arxiv qovluqlarımda da yetərli qədər material var.

Üstəlik, həyatımın əsas hissəsi Heydər Əliyevin gözlərim önündə qurub yaratdığı Azərbaycanda keçib. Ulu Öndərimizin müasirlərindən olmuşam. Xoşbəxtəm ki, bu gün də Onun ideyaları işığında inkişaf edən, tarixinin yeni dönəmlərinə qədəm qoyan ölkənin sakiniyəm.

Təvazökarlıqdan uzaq olsa da, özümü bu yarıməsrlik dövrün əli qələmli canlı salnaməçilərindən biri saya bilərəm. Ona görə də Heydər Əliyev mövzusunda özümü, əslində çox rahat hiss etməliyəm. Bununla belə,yenə də hər dəfə tərəddüdlərim olur. Çünki haqqında yazdığım şəxsiyyətə aid nə varsa, Azərbaycan xalqı və dövləti üçün tarixdir. Onun həyat və şəxsiyyətinin bütün məqamları milli dövlətçilik tariximizin ayrılmaz parçasıdır. Dolayısı ilə Azərbaycan tarixinin çox mühüm bir hissəsi məhz Heydər Əliyev şəxsiyyəti ətrafında mərkəzləşir.

Özü də mən bura təkcə Ulu Öndərin ötən əsrin 60-cı illərinin sonlarında ölkəyə rəhbərliyindən, Azərbaycan üçün gördüyü işlərdən başlanan yarıməsrlik tarixi nəzərdə tutmuram. Milli dövlətçilik tariximizin daha qədim qatları da bu şəxsiyyətdə qovuşur. Zamanın müxtəlif çağlarında Azərbaycan üçün çalışıb-vuruşan, bu ölkənin keçmişində, bu günündə izi olan digər böyük şəxsiyyətlərimizin mənəvi idealları, dövlətçilik amalları da Heydər Əliyev irsində təcəlla tapır.

Ulu öndər bu tarixi şəxsiyyətlərin də Azərbaycanın gələcəyi ilə bağlı arzu və ümidlərinin çıraqbanı kimi çıxış edir. Böyük çətinliklə yaradıb formalaşdırdığı müstəqil dövlətimizin ideya əsasları, azərbaycançılıq məfkurəsi bu şəxsiyyətlərin tarixi irsinə söykənir, gücünü onlardan alır, ona görə sarsılmazdır, xalqımıza doğmadır, insanlarımız bu ideyaları gündəlik həyati dəyərlər kimi asanlıqla duya bilirlər.

❖❖❖

Yeri gəlmişkən çoxdan bəri düşündüyüm bir maraqlı reallığı da dəyərli oxucularımla bölüşmək istərdim. Heydər Əliyevin xalqın təkidli tələbi ilə müstəqil Azərbaycan dövləti rəhbərliyinə qayıdışından danışarkən bir çox tarixçilər, publisistlər 1993-cü ilin iyununda baş verən hadisələri, ölkənin vətəndaş müharibəsi həddinə, çıxılmaz vəziyyətə gəlməsini xüsusi qeyd edirlər. Səbəb-nəticə əlaqəsi daha çox bu hadisələrdə axtarılmış kimi görünür. Amma bununla razılaşmaq çətindir. Çünki Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışı hələ Azərbaycanın dövlət müstəqilliyinin bərpasından da xeyli əvvəl, 90-cı illərin ilk aylarından real və arzuedilən idi.

Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə önə çıxan qaragüruh qüvvələrin dövlət idarəçiliyi işini yarıtmayacaqları ilk baxışdan görünəndə və başlı-başına, taleyin ümidinə qalmış ölkəyə kiminsə yiyə çıxması zərurəti çoxları üçün aktuallaşanda qurmaq istədiyimiz Azərbaycanın məhz Heydər Əliyevin Azərbaycanı ola bilməsi bütün aydınlığı ilə ortaya çıxmışdı.

Bir-birinin ardınca baş verən hadisələrin axını, get-gedə güclənən xaos ölkənin sahibini tələb edirdi. Hüdudsuz demokratiyanın, müxtəlif mərkəzlərdən idarə olunan hərc-mərcliyin, hakimiyyət uğrunda mübarizənin mahiyyəti, iç üzü ortaya çıxdıqca, ən mühümü isə Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə qurub-yaratdıqları xalqın gözü önündə yağı malı kimi talan edildikcə nəzərlər böyük dövlət qurucusuna yönəlirdi.

*Ardı 4-cü səh.*

## Müasir Azərbaycan parlamentinin banisi

**Azərbaycanın çağdaş tarixini Ulu Öndər Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həyat həqiqətidir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir.**

Heç kimdə şübhə yoxdur ki, Heydər Əliyevə məxsus dahilik keyfiyyətləri olmasaydı, həmin maneələr aradan qalxmaz və həmin maneələr aradan qalxmasa isə həyatımızın indiki gerçəkliyi olmazdı. Milli tariximizin Heydər Əliyev dövrü Azərbaycanın inkişafında keyfiyyətcə yeni bir eranın başlanğıcı kimi dəyərləndirilir. Dövlətçiliyimizin ən ağır günlərində, mürəkkəb siyasi şəraitdə xalqımızın böyük oğlunun göstərdiyi qətiyyət və iradə onun sonsuz vətən sevgisinin parlaq nümunəsidir. Heydər Əliyev irsi xalqımızın dövlətçilik və azərbaycançılıq şüurunu, ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Onun müasir dövlətçilik konsepsiyası tarixi ənənələri və bəşəri dəyərləri birləşdirən yeni inkişaf modeli kimi bugünkü Azərbaycanın simasında öz əksini tapmışdır.

*Ardı 2-ci səh.*




# Həmrəylik, qarşılıqlı dəstək, birgə mübarizə

### İlham Əliyev Qoşulmama Hərəkatının üzv dövlətlərinə qlobal böhrandan çıxış yolunu göstərdi

*- COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmır. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik;*
*- Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır;*
*- Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir;*
*- Tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş təcrübənin, məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir;*
*- Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait bizimlə razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur;*
*- Əminəm ki, dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir;*
*- Biz birlikdə pandemiyaya qalib gələcəyik.*

#### Azərbaycan zamanın tələbinə uyğun real addımlar atır

Daha bir qlobal təşəbbüsünü reallaşdıran Prezident İlham Əliyev bu dəfə 120 üzv dövləti və 17 müşahidəçi ölkəni, eyni zamanda 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının Zirvə görüşündə koronavirus bəlasından çıxış yolunu göstərməklə yanaşı, bu istiqamətdə reallaşdırdığı proqramların effektiv nəticələrini də bölüşdü.

Cənab İlham Əliyev BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatının üzv dövlətlərinə Azərbaycanın böhrandan əziyyət çəkən ölkələrə dəstək verməyə də hazır olduğunu bəyan etdi. Zirvə görüşündə çıxış edən beynəlxalq təşkilatların rəhbərləri də Azərbaycan Prezidentinin fikirlərini dəstəkləyərək yeganə qurtuluş yolunun yalnız birgə mübarizədən keçdiyini söylədilər.

Bu Zirvə görüşü bir daha təsdiq etdi ki, Azərbaycan təşkilata sədrliyi dövründə zamanın tələbinə uyğun olaraq real addımlar atır. Yəni sədrliyi üzərinə götürərkən Prezident İlham Əliyevin bəyan etdiyi “Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq” fikri öz təsdiqini tapır.

*Ardı 7-ci səh.*

## Azərbaycan təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradır



### Parlamentin iclasında Qoşulmama Hərəkatının “COVID-19-a qarşı birlikdəyik” mövzusunda keçirilən Zirvə görüşü ölkəmizin növbəti beynəlxalq uğuru kimi dəyərləndirildi

Mayın 5-də Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasda ilk olaraq Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi və bir sıra məhkəmələrin hakimlərinin vəzifədən azad edilməsi haqqında məsələlər müzakirə edildi.

#### Bir sıra məhkəmələrə yeni hakimlər təyin edilir

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli hər üç məsələ ilə bağlı məlumat verdi. Bildirildi ki, Konstitusiyaya və Məhkəmə-Hüquq Şurasının təkliflərinə uyğun olaraq hər üç məsələ Azərbaycan Prezidenti tərəfindən təqdim olunub. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında bu məsələlər hakimlərin iştirakı ilə geniş müzakirə edilib və qarşılıqlı fikir mübadiləsi aparılıb.

Əli Hüseynli dedi ki, Prezident İlham Əliyevin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 3 aprel 2019-cu il tarixli Fərmanına uyğun olaraq 40-dan artıq normativ akt layihəsi hazırlanıb və əksəriyyəti qəbul edilib.

*Ardı 6-cı səh.*

## Dövlət çevik və genişmiqyaslı sosial dəstək tədbirləri ilə vətəndaşının yanındadır

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, ölkəmizdə pandemiya ilə əlaqədar əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılmaqla, məşğulluğa və sosial rifaha dəstək məqsədilə çevik və genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu gün COVID-19 infeksiyasına qarşı mübarizə sahəsində uğurlu iş təcrübəsi ilə seçilən Azərbaycan, eyni zamanda, sosial dövlət olaraq, pandemiya dövründə də vətəndaş rifahının təminatına xidmət edən fəal siyasətə malik bir ölkədir.
Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev əməkdaşımızın bu mövzuda suallarını cavablandırıb.

*Bax: səh. 8-9*

- Özünü, doğmalarını və dostlarını qorumaq:
- Koronavirusa qalib gəlmək üçün

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

1923 Azərbaycanın özü qədər əbədi 2020



# Müasir Azərbaycan parlamentinin banisi

*Əvvəli 1-ci səh.*

Heydər Əliyev uzaqgörən siyasətçi olduğunu hələ ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sübut etmişdir. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda, iqtisadiyyatın, elmin, mədəniyyətin, bir sözlə, həyatın müxtəlif sahələrində böyük nailiyyətlər qazanıldı. Məhz bu dövrdə milli və mənəvi dəyərlərin qorunmasında, o cümlədən parlamentarizm ənənələrinin inkişafı istiqamətində əməli addımlar atıldı, məqsədyönlü siyasət sayəsində xalqın milli oyanışı üçün əlverişli şərait formalaşdı.

Bu dövrdə Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə respublikada aparılan quruculuq işlərinin hüquqi bazasının yaradılmasında mühüm rol oynadı. Ulu Öndər parlamentin cəmiyyətin həyatındakı rolunu yaxşı bilir, Azərbaycan SSR Ali Sovetinin deputatı və ölkə rəhbəri kimi ali qanunvericilik orqanı ilə sıx əlaqədə fəaliyyət göstərirdi. O, parlamentdə bu dövrü əhatə edən beşillik proqramların təsdiq olunmasında və hər il respublika büdcəsinin qəbulunda yaxından iştirak edir, parlamentarizm ənənələrinin bərpası və inkişafı üçün əlindən gələni əsirgəmir, bu məsələ ilə bağlı tövsiyələrini verirdi. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin tribunalarından müdrikliklə istifadə edir, deputat qrupunun Moskvadakı fəaliyyətini Azərbaycanın mənafeyi baxımından məharətlə istiqamətləndirirdi.

Bu siyasətin məntiqi nəticəsi kimi kommunist ideologiyasının tüğyan etdiyi bir vaxtda Heydər Əliyev Azərbaycana demokratik və azad düşüncə tərzi, milli özünüdərk duyğusu gətirdi. O dövrdə keçmiş İttifaqın aparıcı təhsil ocaqlarında gənclərimiz lazımi ixtisaslara yiyələndilər, milli kadr korpusu formalaşdı. Həmin illərdə, sonralar SSRİ rəhbərliyində təmsil olunduğu vaxtlarda Heydər Əliyev Azərbaycanı yüksəkliklərə qaldırmaqla özü də dünyanın görkəmli siyasi və dövlət xadimlərindən birinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev tariximizin bu dövrünü belə şərh edir: "O illərdə Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir".

Ötən əsrin 80-ci illərinin sonunda isə SSRİ adlı böyük bir məkanda baş verən ictimai-siyasi proseslər və xalqımızın azadlıq mücadiləsi nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Lakin çoxsaylı problemlərlə üzləşmiş Azərbaycan XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin aqibətini yaşamağa çox yaxın idi. Bütün çətinliklərə rəğmən xalqımızın xoşbəxtliyi onda idi ki, bu dövrdə onun Heydər Əliyev kimi milli lideri var idi.

Ulu Öndər çağdaş Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də haqlı olaraq müasir Azərbaycan parlamentinin banisi sayılır. Sovet dövründə Azərbaycanda parlamentin qəbul etdiyi qanunlar kommunist partiyasının ideoloji məqsədlərinə xidmət edirdi. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə hakimiyyət orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəldə bildi.

Əslində Heydər Əliyevin 30 ildən artıq siyasi hakimiyyət dövrü tariximizin ən parlaq səhifəsini, ölkənin inkişaf mərhələsini təşkil edir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşməsi məhz Ulu Öndərin şərəfli adı ilə bağlıdır. Bu baxımdan Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanın Ali Sovetinə sədr seçilməsi ölkənin ən yeni tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Bu dövrdə öz dövlət müstəqilliyini yeni elan etmiş Azərbaycanın qarşısında mühüm tarixi vəzifələr dururdu. Təəssüf ki, o dövrkü iqtidar baş verən proseslərdən düzgün nəticə çıxara bilmədi. Torpaqlarımız Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Dağlıq Qarabağ məsələsi erməni ideoloqları tərəfindən süni şəkildə şişirdilərək beynəlxalq arenaya çıxarıldı. AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə ölkə anarxiyaya sürüklənir, ekstremist meyillər getdikcə güclənirdi. Azərbaycan vətəndaş müharibəsi kimi real təhlükənin bir addımlığında idi.

Belə bir vaxtda Heydər Əliyevin ölkə parlamentinə sədr seçilməsi - onun siyasi hakimiyyətə yenidən qayıdışı xalqda gələcəyə ümid yaratdı. Sonrakı proseslər göstərdi ki, bu qayıdış müstəqillik tariximizdə keyfiyyətcə yeni siyasi bir eranın başlanğıcı idi.

Heydər Əliyev müdrik dövlət xadimi kimi parlamentin milli dövlətçilik sistemində yerini və rolunu lazımınca dəyərləndirir, ölkə qarşısında duran məsələlərin həllində qanunverici orqanın imkanlarından maksimum yararlanmaq nümunəsi göstərirdi.

Ali Sovetin Sədri kimi Ulu Öndər ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verildi. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı. Ulu Öndər parlamentarizm ənənələrinin inkişafına müstəqilliyimizin qorunub saxlanması, daha da möhkəmlənməsi prizmasından yanaşır, bu sahəni dövlətçilik məfkurəsinin tərkib hissəsi hesab edirdi.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 10-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Qanun qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi. Ümumiyyətlə, bu dövrdə 120-dən artıq qanun və qərar qəbul olundu. Bütün ölkə əhalisini narahat edən məsələlərin parlamentdə ilk növbədə müzakirə edilməsi adi hala çevrildi.

Heydər Əliyev bu dövrdə əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü. O, parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. İlk növbədə AXC hakimiyyətinin bu sahədə buraxdığı kobud səhvlər qısa vaxtda aradan qaldırıldı. Ali Sovetin Sədri mədəniyyətin, elmin və təhsilin inkişafına da böyük diqqət yetirir, alimlərlə, gənclərlə görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikir mübadiləsi aparırdı.

Cəmi 4 ay Ali Sovetin Sədri vəzifəsində çalışsa da, Ulu Öndər bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi.

Heydər Əliyev prezident seçildikdən sonra da parlamentlə sıx əlaqə saxlamış, yüksək səviyyəli prezident-parlament münasibətlərinin dövlətçiliyimizin daha da möhkəmlənməsinə, xalqın rifah halının yaxşılaşmasına xidmət etməsi üçün səylərini əsirgəməmişdir. Onun əsasını qoyduğu inkişaf strategiyası və onun milli məfkurəsi tezliklə Azərbaycanı davamlı inkişaf yoluna çıxartdı. Ulu Öndərin ölkə iqtisadiyyatında köklü dəyişikliyə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində 1994-cü ildə dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı.

Bu dövrdə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi, ölkəmiz Avropa Şurası kimi mötəbər beynəlxalq qurumların tamhüquqlu üzvü oldu. Müstəqil Azərbaycanın birinci çağırış Milli Məclisinə seçkilər keçirildi, bələdiyyə institutu yaradıldı, həyatın bütün sahələrində köklü islahatlar aparıldı. Heydər Əliyevin təşəbbüsü ilə parlamentdə ilk kövrək addımlarını atmaqda olan müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul olundu. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə bütöv bir regionun iqtisadi simasını dəyişə biləcək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin çəkilişinə başlandı.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanan və ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il, yəni 1995-ci ilin noyabrın 12-də keçirilən referendumda - ümumxalq səsverməsində qəbul edilmişdir.

Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar öz əksini tapmışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, ölkəmiz müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə xeyli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən də bəhrələnmişdir. Komissiyanın 4 may 1996-cı ildə keçirilmiş iclasında Ümummilli Liderimiz Heydər Əliyev demişdir:

"Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, - bir il, iki il, - hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun".

Heydər Əliyevin Hüquq İslahatları Komissiyasındakı bu nitqi ölkəmizdə qanunyaradıcılığı sahəsində həyata keçirilən böyük işlərin proqram sənədi kimi mühüm əhəmiyyətə malikdir.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də Ulu Öndərin 1996-cı il iyunun 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Bu sənədə əsasən beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında" qanun və digər hüquqi sənədlərin layihələri Milli Məclisdə müzakirə edilərək müvafiq qaydada qəbul olunmuşdur.

Milli Məclisin bu günə qədər qəbul etdiyi hüquqi sənədlərin böyük bir hissəsi Heydər Əliyev tərəfindən parlamentin müzakirəsinə verilmiş qanun layihələri, konvensiyalar və sazişlərdir. Respublika parlamenti son illər ərzində bu istiqamətdə, yəni hüquq islahatları sahəsində xeyli tarixi sənədlər qəbul etmişdir. Qəbul olunan bu hüquqi sənədlər demokratik, dünyəvi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının hüquqi bazasının yaradılmasında mühüm rol oynadı.

1998-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Şərq aləmində ilk demokratik respublika quran Azərbaycan ilk dəfə olaraq ölüm cəzasını ləğv etdi. Bu, insan hüquq və azadlıqlarına dövlət səviyyəsində göstərilən diqqətin bariz nümunəsi idi.

Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə ölkəmizin Avropa xalqları ailəsi ilə inteqrasiyasını gücləndirən normativ sənədlər də qəbul olunmuşdur. Parlament bu sahədə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı, "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasını təsdiq edən sənədləri, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" qanunları qəbul etmişdir.

Məlum olduğu kimi, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması hüquq islahatları baxımından ölkəmizin qarşısında mühüm öhdəlik və vəzifələr qoymuşdu. Bu vəzifələrin yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, prezidentimizin təşəbbüsü ilə Milli Məclisdə dövlət qulluğunu tənzimləyən bir sıra qanunvericilik aktları da qəbul edilmişdir.

Hüquq islahatları sahəsində Milli Məclis Heydər Əliyevin təşəbbüsü ilə bir neçə konstitusiya qanunu da qəbul etmişdir. Bunlar "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" konstitusiya qanunlarından ibarətdir. Bütün bu sənədlər ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verildiyinin əyani təsdiqidir.

Heydər Əliyev dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə ölkəmizdə aparılan hüquq islahatları haqqında demişdir:

"Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq. Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. Azərbaycan xalqını bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxardır".

Bu dövrdə siyasi islahatlar cəsarətlə davam etdirilirdi. 2002-ci ilin avqustunda keçirilən referendumda parlamentə seçkiləri daha da demokratikləşdirmə məqsədi ilə seçkilərin birmandatlı dairələr üzrə aparılması qaydası müəyyən edildi. Milli Məclisin səlahiyyətləri dəqiqləşdirilərək ona insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) seçilməsi, Apelyasiya Məhkəməsinə hakimlərin təyin olunması hüququ verildi.

Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları, o cümlədən Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Cəzaların İcrası Məcəlləsi, "Torpaq islahatı haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və digər qanunlar Azərbaycanın demokratik yolla ardıcıl inkişafı üçün bütün hüquqi təminatları yaratmışdır.

Bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə, ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə etmişdir.

Beləliklə, Ulu Öndər hüquqi dövlət quruculuğu prosesində parlamentlə sıx əlaqə şəraitində böyük uğurlara nail oldu. Statistikaya müraciət etsək, görərik ki, 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclis tərəfindən qəbul edilmiş 1715 qanun və qərardan 975-i Prezident Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir.

Ulu Öndərin əsasını qoyduğu milli inkişaf strategiyası bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sınaqlardan ləyaqətlə çıxmış ölkəmizin iqtisadi inkişaf modeli hazırda bütün dünyada təqdir olunur. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf konsepsiyası ölkəmizin qarşısında böyük perspektivlər açır. Keyfiyyətcə yeni mərhələdə ölkə Prezidenti vətəndaş cəmiyyətinin yaradılmasını, demokratikləşmə prosesinin möhkəmlənməsini Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərt hesab edərək demişdir: "Siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə həm dövlətin üzərinə böyük vəzifələr düşür, eyni zamanda Milli Məclisin üzərinə də böyük məsuliyyət düşür. Biz birlikdə buna nail olmalıyıq".

Siyasi sistemin dünya standartları səviyyəsinə yüksəlməsi ölkənin iqtisadi qüdrətinin artması və demokratik proseslərin dərinləşməsi məqsədilə yeni qanunların qəbulu və qüvvədə olan aktların təkmilləşdirilməsi həmişə Milli Məclisin diqqət mərkəzində olmuşdur. Parlamentin ictimai-siyasi həyatda baş vermiş köklü dəyişiklikləri nəzərə alaraq 2009-cu və 2016-cı illərdə Konstitusiya islahatları ilə bağlı referendum keçirilməsi barədə qərarları bunun bariz nümunəsidir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2009-cu ildə keçirilən referendumla Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi konstitusion səviyyədə dövlətin ali məqsədi kimi tanındı. Bu referendumla həmçinin Ali Məhkəmənin qərarlarının dərc edilməsi məcburiyyəti gətirildi, uşaq hüquqlarının müdafiəsi və ətraf mühitin mühafizəsi gücləndirildi, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına qanunvericilik təşəbbüsü hüququ verildi və insan hüquq və azadlıqlarının, ədalət mühakiməsinin müstəqilliyi və şəffaflığının yüksəldilməsi üçün digər əlavə və dəyişikliklər edildi.

26 sentyabr 2016-cı ildə keçirilmiş digər referendumla da Konstitusiyamıza insan hüquq və azadlıqları, xüsusilə seçki və ədalətli mühakimə hüquqlarının genişləndirilməsi, sosial, iqtisadi təhlükəsizliyin gücləndirilməsi ilə bağlı əlavə və dəyişikliklər edilmiş oldu. Beləliklə, dövlət başçısı tərəfindən təşəbbüs edilən iki referendum da xalq tərəfindən müsbət qarşılandı və nəticədə insan hüquq və azadlıqlarına daha ali səviyyədə təminat verən, şəffaf cəmiyyət və dövlət aparatının ən qabaqcıl beynəlxalq standartlarda qurulmasını asanlaşdıran Konstitusiya və hüquq sistemi formalaşdırılmış oldu.

Hazırda müstəqil Azərbaycanın bütün sahələr üzrə qanunvericilik bazası mövcuddur. Qəbul olunmuş Konstitusiya qanunları, məcəllələr, qanunlar, təsdiq edilmiş konvensiyalar, sazişlər cəmiyyət və dövlət həyatında yaranan münasibətləri tənzimləməyə xidmət edir. Qanunvericilik fəaliyyətində bəşəri dəyərlər milli dəyərlərimizlə üzvi surətdə əlaqələndirilir.

Ötən illərdə Milli Məclis parlamentarizm ənənələrini inkişaf etdirərək qanunvericilik sistemini daha da təkmilləşdirmək istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Parlamentdə qəbul olunmuş sənədlərin əhəmiyyətli bir hissəsi qanunvericilik təşəbbüsü ilə ölkə Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. İlham Əliyev hələ Azərbaycan parlamentinin deputatı olduğu dövrdə, 1995-2003-cü illərdə Milli Məclisin qanun yaradıcılığı işində yaxından iştirak etmiş, qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəlməsinə, parlamentin beynəlxalq əlaqələrinin genişlənməsinə öz layiqli töhfəsini vermişdir. Ulu Öndərin siyasi varisi kimi İlham Əliyev parlamentarizm ənənələrinə yeni çalarlar gətirərək bu mühüm dövlət institutunun nüfuzunu beynəlxalq miqyasda təsdiqləməyə nail olmuşdur.

Müstəqil Azərbaycanın xarici siyasət strategiyasında parlament diplomatiyası mühüm yer tutur. Bu siyasətin məntiqi nəticəsi kimi bu gün Milli Məclis ölkənin iştirak etdiyi bir sıra nüfuzlu beynəlxalq qurumların parlament məclislərinin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının, Parlamentlərarası İttifaqın, ATƏT Parlament Assambleyasının, Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin, MDB-nin Parlamentlərarası Assambleyasının, TÜRK PA, GUAM Parlament Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin tamhüquqlu üzvüdür. Avropa Parlamenti və Şimali Atlantika Parlament Assambleyası ilə yaxından əməkdaşlıq edir. Milli Məclisdə dünyanın 80-dən çox ölkəsinin parlamenti ilə əlaqələr üzrə işçi qrupları yaradılmış və bu qrupların fəaliyyəti ölkənin xarici siyasətinə öz töhfəsini verir.

Çağdaş Azərbaycan Parlament diplomatiyasının ən böyük uğuru cənab İlham Əliyevin millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi AŞ PA sədrinin müavini və büro üzvü seçilməsi faktı olmuşdur. Erməni diasporunun mütəşəkkil və güclü fəaliyyəti dövründə bu cür uğur diplomatiya tarixinin ən yadda qalan və fəxarətli hadisəsi oldu. Məhz bundan sonra AŞ PA-da və digər beynəlxalq parlament təşkilatlarında Azərbaycanın xeyrinə bir çox qərarlar qəbul edilmişdir.

İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətimizin rəhbəri olduğu dövrdə formalaşmış parlament diplomatiyası ənənəsi bu gün deputatlarımız tərəfindən nüfuzlu beynəlxalq qurumlarda uğurla davam etdirilir.

Ümumiyyətlə, Milli Məclisin fəaliyyət tarixini araşdırdıqda görürük ki, qanunvericilik beynəlxalq hüquqa uyğunlaşdırılmaqla yanaşı, milli mənəvi dəyərlər də əsas kimi qəbul edilir. Eyni zamanda qanunlarda cəzaların humanistləşdirilməsi, sosial yönümlülük, xarici ölkələrin parlamentariləri ilə qarşılıqlı əlaqələr və Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızla bağlı problemləri mötəbər beynəlxalq tribunalardan bəyan etmək parlament fəaliyyətinin prioritet istiqamətləridir.

Böyük və çoxşaxəli fəaliyyəti dövründə bir-birindən fərqli layihələrin müəllifi olaraq saysız insanların mənəvi dostuna çevrilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın parlament fəaliyyətinin Milli Məclis tarixində xüsusi rolu vardır. Millət vəkili olduğu dövrdə seçicilərə olan diqqət və qayğısı, qanunvericilik təşəbbüsü ilə parlament mədəniyyətinin inkişafına yeni töhfələr vermiş Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri də onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq, genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. Bütövlükdə, Mehriban xanımın təşəbbüsü ilə təqdim olunan amnistiya aktları 40 min nəfərdən çox insana şamil olunmuşdur.

Ölkəmizin Birinci vitse-prezidentinin Azərbaycan xalqını beynəlxalq aləmdə layiqli təmsilçiliyi, Azərbaycan xalqının həqiqətlərini dünya ictimaiyyətinə çatdırması, şəxsi nüfuzu və fəaliyyəti ilə Azərbaycanın xeyrinə beynəlxalq qərarların qəbul olunmasındakı xidmətləri parlament tarixinin parlaq səhifələrindəndir.

Bütün bunlar göstərir ki, Azərbaycanda parlamentarizm ənənələri keyfiyyətcə yeni mərhələ yaşayır, inkişaf edir və ölkəmizin tərəqqisinə, yüksəlişinə töhfə verir. Heydər Əliyevin dövlətçilik ideallarına tapınan Azərbaycan Respublikasının Milli Məclisi üzərinə düşən məsuliyyətli missiyanı uğurla yerinə yetirməyə, dövlətin və xalqın maraqlarının keşiyində layiqincə dayanmağa çalışır, habelə dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən mütərəqqi siyasi, iqtisadi və hüquqi islahatlara layiqli töhfələrini verir.

Bu ilin 9 fevral tarixində ölkəmizdə keçirilmiş növbədənkənar parlament seçkiləri Azərbaycanın demokratiya tarixinə yeni bir səhifəni yazdı. Bu tarix eyni zamanda yeni, təkmil, müasir parlamentin formalaşmasının başlanğıcı oldu. Dövrün, zamanın tələbinə uyğun təkmilləşmənin qanunverici qurumda da öz əksini tapması günümüzün əsas tələbinə çevrilməklə ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının belə bir təşəbbüslə çıxış etməsini şərtləndirdi.

VI çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyev ötən çağırış Milli Məclisin ölkəmizin uğurlu inkişafı istiqamətində rolunu qiymətləndirməklə yanaşı, parlamentə növbədənkənar seçkilərin aparılan islahatları dərinləşdirmək ehtiyacından irəli gəldiyini söylədi. O, islahatların cəmiyyətimizdə yaratdığı demokratiya ab-havasının bir daha seçki prosesində də özünü göstərdiyini diqqətə çatdırdı. Buna əyani sübut kimi, əhalinin seçkilərə heç vaxt olmadığı qədər marağını, 1300 nəfərin namizədliyini irəli sürməsini göstərdi: "Bütün namizədlər üçün bərabər şərait yaradılmışdı, ayrı-seçkiliyə yol verilməmişdi".

Dövlət başçısı çıxışında parlamentin yeni heyətinə taleyüklü tövsiyələr verdi. Onları qanunvericilik bazası hazırlayarkən kəmiyyət ardınca qaçmamağa, keyfiyyət məsələsini ön planda tutmağa səslədi: "Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil". Cənab İlham Əliyev bu iradı ilə deputatları ölkədə gedən proseslərdə fəal iştirak etməyə, seçildiyi dairələrin əhalisinin problemlərini öyrənməyə, icra orqanları qarşısında qaldırmağa səsləyərək, eyni zamanda altıncı çağırış Milli Məclisin uğurla fəaliyyət göstərəcəyinə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi: "Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik. Əminəm ki, Azərbaycan parlamenti bu işdə fəal olacaq".

Azərbaycanda, region ölkələrində və bütövlükdə dünyada gedən siyasi, iqtisadi və mənəvi proseslərə verdiyi qiymət baxımından tarixi xarakter daşıyan bu çıxışla möhtərəm Prezident dövlətimizin yaxın və uzaq gələcəkdə Fəaliyyət Proqramının konturlarını ortaya qoydu.

*Bu gün Azərbaycan həqiqətən etibarlı və möhkəm əllərdədir. Heydər Əliyev dühasından bəhrələnən, yeni şəraitə uyğun yüksək siyasi intellektə və potensiala malik bir siyasətçinin - İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür. Bu işdə hər birimiz, hər bir Azərbaycan vətəndaşı Prezidentimizə yardımçı olmalı, bununla da dövlətçiliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasına öz töhfəmizi verməliyik.*

**Əli HÜSEYNLİ,**
***Milli Məclisin Sədrinin birinci müavini***

1923 Azərbaycanın özü qədər əbədi 2020

# Vətəndaş sülhü və milli birliyin yaradıcısı

**Azərbaycanın dünyada və keçmiş sovetlər ittifaqında gedən proseslərin nəticəsində yenidən dövlət müstəqilliyini əldə etməsi xalqımızın həyatında mühüm tarixi hadisə oldu. Respublikamızda hakimiyyətdə olan qüvvələrin qarşısında milli birlik yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyətini formalaşdırmaq, bazar iqtisadiyyatını bərqərar etmək kimi mühüm vəzifələr dayanırdı. Xalqımızın dövlətçilik tarixinə, milli-mənəvi dəyərlərinə, demokratik siyasi sistemə keçid dövrünü yaşamış ölkələrin təcrübələrinə söykənən, mükəmməl elmi-nəzəri və praktiki əsasları olan dövlət siyasətinin aparılması vacib idi.**



Təəssüf ki, 1990-cı ilin əvvəllərində Azərbaycanda hakimiyyətdə olan qüvvələrin naşılığı və dövləti idarəetmə qabiliyyətlərinin olmaması nəticəsində respublikamız ağır sosial-iqtisadi və ictimai-siyasi böhranla üzləşdi. Xüsusilə AXC-Müsavat hakimiyyətinin yarıtmaz kadr siyasəti cəmiyyətdə hərc-mərcliyin baş alıb getməsinə gətirib çıxardı, Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaratdı. Ziddiyyətli xarakter daşıyan xarici siyasətin nəticəsində Azərbaycan beynəlxalq aləmdə təkləndi, dünya birliyində onun haqqında qeyri-ciddi dövlət obrazı formalaşdı. Ölkəmizin şimalında və cənubunda baş verən separatçı hərəkətlər dövlət müstəqilliyi üçün ciddi təhdidə çevrildi.

Xalqımız yaranmış ağır və mürəkkəb vəziyyətdən çıxış yolunu həmin dövrdə Naxçıvan Ali Məclisinin Sədri olan görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdi. İqtidarda olan qüvvələr isə ictimaiyyətin Heydər Əliyevə olan inamını, dahi şəxsiyyətin yüksək nüfuzunu və zəngin idarəçilik təcrübəsini qısqanclıqla qarşılayırdı. Sosial-iqtisadi, siyasi böhranın gündən-günə gərginləşməsinə və yaranmış vəziyyətdən çıxış yolunun tapılmamasına görə əhalinin bütün təbəqələri iqtidarın apardığı siyasətə kəskin etiraz etməyə başladılar. Onlar Azərbaycan hakimiyyətinin səriştəsizliyi ucbatından cəmiyyətdə xaos və anarxiyanın hökm sürdüyünü, ictimai-siyasi proseslərin nəzarətdən çıxdığını, vətəndaş qarşıdurmasının dərinləşdiyini, hüquqi, demokratik dövlət quruculuğu üçün real addımların atılmadığını bildirdilər.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması milli birliyin təmin edilməsində mühüm tarixi hadisə oldu. Konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi partiyanın ideoloji prinsiplərindən biri kimi göstərildi. Qeyd edildi ki, cəmiyyətin yeniləşməsi üçün vətəndaş həmrəyliyinə və konsensusa nail olmaq, dövlətçiliyin möhkəmlənməsinə maneçilik törədən qarşıdurmanı rədd edərək şəxsi, qrup maraqlarını aradan qaldırmaq vacibdir. Buna görə də vətəndaş həmrəyliyi üçün Azərbaycanda fəaliyyət göstərən mütərəqqi və sağlam mövqeyi olan ictimai təşkilatlarla, siyasi partiyalarla fəal və konstruktiv əməkdaşlıq etməli, milli maraqların qorunması naminə bütün səviyyələrdə ümumi mənafeləri uyğunlaşdırmalı, başqa əqidədə olanlarla vicdanlı və açıq dialoq aparılmalıdır.

1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat hakimiyyəti həm xalqımızın israrlı tələbini, həm də özünün acınacaqlı aqibətini nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev həmin gün parlamentin iclasındakı çıxışında qarşısında dayanan vəzifələri - dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin azad edilməsi, cəmiyyətdə demokratik prinsiplərin və qanunçuluğun təmin olunması, bazar iqtisadiyyatının formalaşdırılmasını və s. göstərməklə yanaşı, həm də vətəndaş həmrəyliyinin zəruriliyini bildirdi. Heydər Əliyevin parlamentin Sədri, sonralar isə Azərbaycan Respublikasının Prezidenti kimi ümummilli vəzifələri yerinə yetirməsində daim vətəndaş həmrəyliyinə arxalanması mühüm rol oynamışdır ki, bu da müstəqil dövlət quruculuğu proseslərinin uğurla getməsini, cəmiyyətdə demokratik dəyərlərin özünə mühüm yer tutmasını, bazar iqtisadiyyatının inkişafını şərtləndirmişdir.

Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra dövlətin bütün sahələrində olduğu kimi, milli həmrəyliyin təmin edilməsi istiqamətində də yeni tarixi mərhələ başladı, vətəndaş sülhü dəyərli mənəvi-ideoloji sərvətlərdən biri oldu. Ümummilli Liderin apardığı siyasət ətrafında yaranmış milli həmrəylik öz təsdiqini Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş təhdidlərin, ağır siyasi və iqtisadi böhranın aradan qaldırılmasında tapdı. 1990-cı ilin əvvəllərində respublikamızda vətəndaş müharibəsinin, ölkəmizin ərazi bütövlüyünün pozulmasına istiqamətlənmiş etnik-separatçı hərəkətlərin (Qondarma "Talış-Muğan Respublikası", "Sadval"), dövlət çevrilişinə cəhdlərin və s. qarşısının alınmasında Heydər Əliyevin apardığı siyasətlə xalqımızın milli birliyinin vəhdəti mühüm rol oynamışdır. Dahi öndər həmin dövrdə vəziyyəti xarakterizə edərək bildirirdi: "İndi respublikanın böhran vəziyyətində - iqtisadi böhran, ictimai-siyasi böhran, eyni zamanda ağır müharibə vəziyyətində hamımız birgə çalışmalı, birgə fəaliyyət göstərməli, həmrəylik - vətəndaş həmrəyliyi, milli həmrəylik nümayiş etdirməliyik. Mən bu həmrəyliyin yaranması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Heydər Əliyev böyük qətiyyəti və siyasi bacarığı ilə dövlət çevrilişləri cəhdlərinin, etnik-separatçı hərəkətlərin, xaricdəki anti-Azərbaycan dairələrin təxribatlarının qarşısını alarkən hamıya məlum oldu ki, ölkəmizin müstəqilliyini təhdid edənlər dövlət-xalq birliyinin zərbəsi ilə üzləşəcəkdir. Bununla bağlı həmin dövrdə Ümummilli Lider demişdir: "İndi Azərbaycan Respublikası üçün, Azərbaycanın dövlətçiliyi üçün milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq. Ona görə də aramızda olan, ayrı-ayrı şəxsi mənafe güdən qüvvələrə xəbərdarlıq edirəm: bütün bu işlərindən əl çəksinlər, bunların heç bir nəticəsi olmayacaq, onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki xalq artıq ayılmışdır, ayağa qalxmışdır. Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz. Mən də xalqın gücünə arxalanıram".

Heydər Əliyevin apardığı müdrik siyasət ölkəmizin üzləşdiyi çətinliklərdən xilas olması yolunda milli həmrəylik simvoluna çevrildi. Dahi şəxsiyyət ictimai rəydə belə bir fikir formalaşdırdı ki, keçmiş hakimiyyətlərdən miras qalmış problemlər xalqımızı ruhdan salmamalı, bu problemləri vətənini sevən hər kəs həmrəylik göstərərək birgə aradan qaldırmağa çalışmalıdır. Heydər Əliyev xalqımızın çoxəsrlik mili-mənəvi dəyərlərinin gələcək nəsillərə çatdırılmasında da vətəndaş həmrəyliyinin vacib olduğunu bildirirdi.

Heydər Əliyev böyük siyasi iradə və əzmkarlıqla üzərinə düşən vəzifələri yerinə yetirərək siyasiləşmiş hərbi qrupların zorakı, qanunazidd əməllərinin qarşısını aldı və onlar ədalət mühakiməsinə verildi. Ölkəmizdə bərqərar olan ictimai-siyasi sabitlik Heydər Əliyevin xalqımıza bəxş etdiyi böyük ərməğan oldu və bu amil cəmiyyətin bütün sahələrini əhatə edən inkişaf strategiyasının həyata keçirilməsinə şərait yaratdı. Heydər Əliyev bununla bağlı qeyd edirdi: "Əgər biz 1993-cü ildə vətəndaş müharibəsindən xilas olduqsa, 1994-cü ildə respublikamızı bir neçə dəfə dövlət çevrilişi cəhdlərindən xilas etdiksə, 1995-ci ildə bir neçə dövlət çevrilişinin qarşısını aldıqsa və cinayətkar qrupları aradan götürdüksə, respublikamızı bu cinayətkar qruplardan müəyyən qədər təmizlədiksə, xalqımızda ümumi həmrəylik, milli həmrəylik hissləri yarada bildiksə, gələcəyə böyük ümidlər bəsləməyə bizim haqqımız, əsasımız var. Məni sevindirən hal odur ki, artıq insanlar rahat yaşayırlar, bir-biri ilə mehribandırlar. Keçmiş illərdə olan o ədavət, qorxu, düşmənçilik hissiyyatları aradan götürülübdür. Əgər biz bunların hamısına nail olmamışıqsa da, ancaq çox irəliyə getmişik, çox şeylərə nail olmuşuq. Ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və demokratik prinsiplər əsasında Azərbaycan Respublikasının ilk parlamentinin seçilməsi respublikamızın həyatında, xalqımızda milli həmrəyliyin, vətəndaş həmrəyliyinin, milli birliyin artıq mövcud olduğunu göstərir". Ölkəmizdə ictimai-siyasi sabitlik yaradıldıqdan sonra silahlı yolla hakimiyyəti zəbt etməyə çalışanlar dağıdıcı niyyətlərini həyata keçirə bilmədilər, onlar əvvəlki dövrlərdən fərqli olaraq qarşılarında qanunlara əsaslanan dövlət hakimiyyətini gördülər. Bütün bunlar xalqımızda Azərbaycanın dövlət müstəqilliyinin sarsılmaz olduğuna böyük inam yaratdı.

Heydər Əliyev vətəndaş cəmiyyətinin inkişafı, ölkəmizin intellektual potensialının müstəqil dövlət quruculuğu proseslərinə cəlb olunması, sosial ədalət prinsipinə əməl edilməsi və insanlarda hakimiyyətə inamın möhkəmlənməsində milli birliyin əhəmiyyətini yüksək qiymətləndirmiş və bu yanaşma Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında öz əksini tapmışdır. Ali qanunda ölkəmizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və qarşılıqlı fəaliyyət göstərmək kimi məqsədlərin bəyan edilməsi vətəndaş həmrəyliyinin bərqərar olması üçün hüquqi-siyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Heydər Əliyevin müdrik siyasətinin nəticəsində qısa müddət ərzində hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının inkişafı və ordu quruculuğu yolunda mühüm addımların atılmasına başlanıldı. Genişmiqyaslı islahatların aparılması, elm, təhsil, mədəniyyət və ədəbiyyatın inkişafı sahəsində görülən işlər ölkə vətəndaşlarında dövlətçilik təfəkkürünün formalaşmasına mühüm təsir göstərdi.

Ümummilli Lider apardığı genişmiqyaslı islahatlarla ümumbəşəri təcrübənin və mütərəqqi dəyərlərin real həyatda öz təsdiqini tapmasına çalışmışdır. Heydər Əliyevin mövqeyinə görə, islahatların həyata keçirilməsinin vacibliyini bildirməklə onları tələm-tələsik şəkildə aparmaq yolverilməzdir. Ümumdünya tarixindən məlumdur ki, bir iqtisadi-siyasi sistemdən digərinə keçid mürəkkəb prosesdir və xeyli ziddiyyətlərlə müşahidə edilir. Problemlərin həllini nəzərdə tutan strateji fəaliyyət istiqamətləri müəyyən olunmadığı halda cəmiyyətdə sosial narazılıq yaranır ki, bu da islahatların uğursuzluğuna gətirib çıxarır. Buna görə də Heydər Əliyev islahatların radikal yolla deyil, cəmiyyətin və ictimai şüurun inkişaf qanunauyğunluqlarını nəzərə alaraq tədricən aparılmasına üstünlük vermişdir. Ümummilli Lider demokratik siyasi sistemin təşəkkül tapması, formalaşması və inkişafında vətəndaş həmrəylinin rolunu yüksək qiymətləndirirdi. Onun apardığı siyasətin hüquqi dövlətlə demokratik siyasi sistem arasındakı bağlılığı təmin etməsi müstəqil dövlət quruculuğu prosesinin demokratik normalar əsasında getməsini şərtləndirmişdir. Bu sahədə həyata keçirilmiş siyasətin məqsədləri sırasında hakimiyyət institutlarının normal fəaliyyətini təmin etmək və çoxpartiyalı siyasi sistem formalaşdırmaq mühüm yer tutur.

Ümummilli Liderin xalqımız qarşısında ən mühüm tarixi xidmətlərindən biri vətəndaş sülhünü və həmrəyliyini təmin edən, azərbaycançılıq məfkurəsinə əsaslanan milli ideologiyanı formalaşdırıb inkişaf etdirmək olmuşdur. Heydər Əliyev hələ sovet dövründə respublikamıza rəhbərlik edərkən azərbaycançılıq ideyasının ictimai fikirdə özünə mühüm yer tutması üçün ciddi addımlar atmışdır. Onun təşəbbüsü ilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması, Azərbaycan SSR-in 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması barədə maddənin öz əksini tapması və s. milli mənlik şüurunun inkişafında mühüm rol oynamışdır. Eyni zamanda 1970-80-ci illərdə azərbaycançılığın inkişafı üçün respublikada lazımi ictimai mühitin yaradılmasından xalqımızın görkəmli şair və yazıçıları, tarixçiləri, dilçiləri bəhrələnərək çoxsaylı əsərlər yaratmışlar ki, bu da milli həmrəylik və özünüdərk prosesinə böyük təsir göstərmişdir. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən milli birliyin və vətəndaş həmrəyliyinin cəmiyyətdə özünə dərin kök salması üçün müdrik addımlar atmışdır. Onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul etməsi azərbaycançılıq məfkurəsinin təbliği və ümumxalq birliyinin təmin edilməsi baxımından böyük tarixi əhəmiyyət daşıyır.

Heydər Əliyev Azərbaycan vətəndaşlarını vahid amal və məqsəd ətrafında birləşdirən azərbaycançılıq ideyasını milli ideologiya səviyyəsinə qaldırdı. Bu ideologiya cəmiyyətin bütövləşməsini, vətəndaş həmrəyliyini və ümumxalq birliyini təmin edən mühüm faktor oldu. Dahi öndər azərbaycançılıq ideyasına əsaslanmaqla müxtəlif ictimai-siyasi qüvvələr, dini-etnik konfessiyalar, mədəniyyətlər arasında konstruktiv əməkdaşlığın və həmrəyliyin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət aparmağa başladı. Azərbaycançılığın ictimai fikirdə aparıcı yer tutmasının və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilməsinin əsas səbəbi onun xalqımızın tarixi keçmişi, bu günü və gələcəyi ilə sıx şəkildə bağlı olmasından irəli gəlir. Bu baxımdan milli birlik və vətəndaş həmrəyliyi həm də zəngin mənəvi-əxlaqi dəyərlərin, mədəniyyətin qorunub saxlanmasında və inkişafında mühüm önəm daşıyır. Milli maraqlarla azərbaycançılıq arasındakı vəhdət dövlət müstəqilliyinin möhkəmlənməsində və ölkəmizin mütərəqqi inkişafında özünəməxsus yer tutur, birgəyaşayışın vacibliyini əks etdirən baxışlar formalaşdırır.

Azərbaycançılıq ideyası ölkəmizdəki dini-etnik qrupların maraqlarına cavab verən, onların qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən milli həmrəylik mənbəyidir. Heydər Əliyev milli və dini münasibətləri demokratik prinsiplər çərçivəsində, konstitusion normalar əsasında tənzimləyərək, vicdan azadlığının təmin olunması istiqamətində ardıcıl siyasət həyata keçirmişdir. Ümummilli Liderin fəaliyyətində belə bir prinsip özünə mühüm yer tutmuşdur ki, azərbaycançılıq məfkurəsi ölkəmizdəki xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında, onların mənəvi dəyərlərinin qorunmasında, Azərbaycan dövlətinin ətrafında səfərbər olmasında böyük tarixi-siyasi əhəmiyyət daşıyır. Heydər Əliyev mütərəqqi islam dəyərlərinin cəmiyyətdə özünə yer tutması ilə yanaşı, həm də digər dini-etnik qruplara məxsus olan mədəni müxtəlifliyin təmin olunması üçün tolerant mühitin yaradılmasını təmin etmişdir.

Heydər Əliyev milli münasibətlərə etnik millətçilik nöqteyi-nəzərindən yanaşmanı qəbul etməyərək dövlət-millət anlayışına keçidin bünövrəsini qoydu. Milli münasibətlərin ölkəmizin tarixi, siyasi və mədəni reallıqlarından çıxış edilərək tənzimlənməsi ölkə vətəndaşlarının milli-etnik mənsubiyyətindən asılı olmayaraq, müstəqil dövlət quruculuğu proseslərində fəal iştirakına böyük stimul verdi. Bütün xalqların və millətlərin, dini konfessiyaların nümayəndələri dostluq və humanizm prinsipinə əsaslanaraq vətəndaş həmrəyliyinin möhkəmlənməsində yaxından iştirak etməyə başladılar. Onlar daxili və xarici siyasi dairələrin Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş cinayətkar əməllərinə qarşı həmrəy və mütəşəkkil şəkildə kəskin etirazlarını bildirdilər.

Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli-mənəvi dəyərlərə sadiq olan, təşəbbüskarlığı ilə ictimai həyatda fəal rol oynayan, ölkəmizdə və dünyada baş verən prosesləri obyektiv şəkildə qiymətləndirməyi bacaran, vətənini və xalqını sevən insanlar kimi görmək istəyirdi. Buna görə də onların hərtərəfli inkişafı üçün cəmiyyətdə sosial rifah halının yüksəldilməsini, demokratik dəyərlərin özünə mühüm yer tutmasını dövlətin əsas vəzifələrindən hesab edirdi. Bu istiqamətdə siyasət aparılarkən nəzərə alınırdı ki, demokratik dövlətin siyasi və iqtisadi baxımdan inkişaf etməsi qanunçuluğun və ictimai-siyasi sabitliyin təmin olunmasına təsir göstərməklə yanaşı, həm də vətəndaş birliyinin və milli həmrəyliyin möhkəmlənməsində xüsusi yer tutur.

Heydər Əliyevin Azərbaycan tarixində ilk dəfə olaraq xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda böyük addım ataraq Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsini yaratması milli həmrəyliyin möhkəmlənməsində böyük əhəmiyyət daşıyır. Soydaşlarımız bu hadisənin mühüm olduğunu bildirərək dövlətimizin onlara dayaq olmasını qürur hissi ilə qarşıladılar. Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşlərində milli birliyin vacibliyini onların nəzərinə çatdırmış, bu məsələ ilə bağlı diaspor təşkilatlarının üzərinə ciddi vəzifələr düşdüyünü qeyd etmişdir. 2001-ci ildə Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi xalqımızın milli ideologiya ətrafında sıx birləşməsində yeni mərhələnin əsasını qoymuşdur. Qeyd edək ki, vətəndaş həmrəyliyi xarici ölkələrdəki soydaşlarımızın milli-mədəni hüquqlarının, beynəlxalq konvensiyalardan irəli gələn haqların qorunmasında, yaşadıqları dövlətlərin siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak etmələrində xüsusi yer tutur.

Heydər Əliyev xalqımızın yüksək ideallar ətrafında birləşməsində, dövlətimizin inkişafı naminə dünya azərbaycanlıları arasında həmrəyliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin oynadığı rolu daim yüksək qiymətləndirmişdir. Heydər Əliyev bildirirdi ki, Azərbaycanın milli ideologiyasının konsepsiyası xalqımızın tarixi keçmişini, milli adət-ənənələrini, dilini, dinini və mədəniyyətini özündə əks etdirməlidir. Ulu Öndərin "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri vətəndaş həmrəyliyi üçün milli mənsubiyyətin və tarixi köklərə bağlılığın əhəmiyyətini göstərir. Heydər Əliyevin siyasətində öz dövlətini sevən, onu qorumağı və bütün dünyada layiqincə tanıtmağı, təmsil etməyi bacaran gənc nəslin formalaşdırılmasına böyük önəm verilir. Buna görə də Ümummilli Lider çıxışlarında gənc nəslin milli adət-ənənələrə və mədəniyyətə sadiq olmasının, onları sevməsinin, bununla yanaşı, dünya mədəniyyətini bilməsinin vacibliyini qeyd edirdi.

Heydər Əliyev dünyada gedən geosiyasi proseslərə obyektiv şəkildə yanaşaraq, xalqımızın dünya sivilizasiyasında özünütəsdiqi məsələsini həmişə diqqət mərkəzində saxlamışdır. Xüsusilə qloballaşmanın dövlətlərin inkişafına, ərazi bütövlüyü və idarəetmə sistemlərinə, iqtisadi-siyasi inteqrasiyaya və s. göstərdiyi təsiri nəzərə almışdır. Ümummilli Liderin siyasəti milli mənlik şüurunun inkişafına mühüm təkan vermişdir. Dövlətçilik, vətənçilik kimi prinsiplərin real həyatda öz təsdiqini tapmasına nail olmaq Heydər Əliyevin siyasətinin əsas xüsusiyyətlərindən biridir. Tarixi-mənəvi dəyərlərdən qaynaqlanan bu siyasət vətən, millət və milli dövlət anlayışlarını vəhdətdə götürür.

Ümummilli Liderin ictimai-siyasi proseslərdə aparıcı mövqe tutmaq, həmrəylik yaratmaq kimi bacarıqları cəmiyyətdə ona böyük nüfuz qazandırmışdır. Respublikamızda keçirilmiş parlament və prezident seçkilərində Heydər Əliyevin əldə etdiyi qələbələr seçicilərin ona olan böyük inam və rəğbəti ilə bağlı olmuşdur. Xalqımız Heydər Əliyevi ona görə dəstəkləmişdir ki, Ümummilli Liderin ideya və baxışları ictimai tələblərə tam şəkildə cavab vermişdir. Bütün bunlar göstərir ki, siyasi liderin cəmiyyətdə böyük nüfuza malik olması üçün onun ümummilli mənafeləri üstün tutması, xalqı düşündürən məsələlərə böyük həssaslıqla yanaşması vacib şərtdir. Heydər Əliyevin seçki platformalarında milli maraqların mükəmməl şəkildə öz ifadəsini tapması xalqımız tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkəmizdə və dünyada gedən proseslərə obyektiv mövqedən yanaşması, ictimai şüurda baş verən dəyişiklikləri daim diqqət mərkəzində saxlaması nəticəsində Heydər Əliyev qarşısına qoyduğu məqsədlərə nail olmuşdur.

Heydər Əliyev mütərəqqi ideyaları ilə cəmiyyətdə mənəvi birliyin inkişafına səbəb olmuşdur. Onun siyasətinin realist xarakter daşıması, xalqımızın mənəvi-intellektual potensialından çıxış etməsi, özündə daşıdığı prinsiplər milli inkişaf üçün siyasi-ideoloji bünövrə olmuşdur. Dahi şəxsiyyətin fəaliyyətini səciyyələndirən xüsusiyyətlərdən biri insanları ümummilli maraqlar ətrafında səfərbər etmək üçün ictimai rəyə güclü təsir göstərmək qabiliyyətinin olmasıdır.

Heydər Əliyev vətəndaş həmrəyliyi şəraitində əhalinin bütün təbəqələri ilə tez-tez görüşlər keçirmiş, ölkəmizin inkişafı ilə bağlı görülmüş işləri və qarşıda dayanan vəzifələri onların nəzərinə çatdırmış, irəli sürülən təkliflərə böyük diqqətlə yanaşmışdır. Bununla bağlı Heydər Əliyev demişdir: "Bizim bütün proqramlarımız xalq tərəfindən dəstəklənir. Əks təqdirdə onların heç biri həyata keçirilə bilməzdi. Əgər bu dəstək olmasaydı, əgər həmrəylik olmasaydı, bizim təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bunların heç birini edə bilməzdik. Azərbaycanın müasir tarixi, bizimlə eyni taleyi yaşayan digər ölkələrin tarixi onu göstərir ki, harada iqtidar tərəfindən irəli sürülmüş təşəbbüslər xalq tərəfindən dəstəklənirsə, orada həm həmrəylik var, həm sabitlik, həm də inkişaf var".

Heydər Əliyevin ümummilli məqsədlər naminə geniş xalq kütlələrini öz arxasınca aparmağı bacarması onun zəngin həyat yolunun parlaq və unudulmaz səhifələrini təşkil edir. Ümummilli Lider xalqımızın taleyində böyük dəyişikliklər yaradan tarixi missiyanı yerinə yetirməsi, mürəkkəb vəziyyətlərdə doğru qərarlar qəbul etmək bacarığı, başqalarının fikirlərinə hörmətlə yanaşması və yüksək işgüzarlığı ilə insanların dərin rəğbətini qazanmışdır. Heydər Əliyev cəmiyyətin inkişafına stimul verən mütərəqqi ideyaların reallaşmasında milli həmrəyliyin mühüm rol oynadığını bildirmiş, dövlətin və xalqın əleyhinə yönəlmiş istənilən fəaliyyətə qarşı barışmaz mövqe tutmuşdur.

Milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması ilə bağlı Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmiz dünyada fərqli dini sivilizasiyaların qovuşduğu tolerant məkan, milli birlik şəraitində yaşayan dövlət kimi tanınır. Bunun nəticəsidir ki, transmilli enerji-nəqliyyat layihələrinin birgə həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərə dünyanın müxtəlif dövlətləri fəal şəkildə qoşulur.

Doğma vətənini sevən hər bir azərbaycanlı Prezident İlham Əliyevin xalqımızın maraqlarına söykənən siyasətini dəstəkləyir və ona həmrəy olduğunu bildirir. Ölkəmizin müstəqilliyi və suverenliyinin möhkəmlənməsi, insanların layiqli həyat şəraitində yaşamasının təmin edilməsi sahəsində Azərbaycan Prezidentinin göstərdiyi fəaliyyətlə vətəndaş həmrəyliyi arasında sıx əlaqə vardır. Milliyyətindən asılı olmayaraq hər kəsin hüquqlarının qorunması, müxtəlif xalqların mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirən faktorlar kimi çıxış edir. Bununla bağlı Prezident İlham Əliyev demişdir: "Cəmiyyətimizdə milli birlik, sosial həmrəylik güclənir. Vətəndaşlarımızın nikbin əhvali-ruhiyyəsi, sabaha inam hissi artır. Əhalinin ən müxtəlif təbəqələri, sosial qrupları arasında əməkdaşlıq və həmrəylik möhkəmlənir".

Prezident İlham Əliyevin apardığı siyasətlə xalqımızın həmrəy olması real həyatda dəfələrlə öz təsdiqini tapmışdır. 2016-cı ilin Aprel döyüşləri zamanı hər birimiz bunun bir daha şahidi olduq. Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda milli ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını aldı və bu hadisə xalqımızın tarixinə Aprel döyüşləri kimi daxil oldu. Həmin döyüşlər milli ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi, ölkəmizin hektarlarla ərazisi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistanın işğalından azad olundu, əldə edilmiş qələbə xalq-dövlət birliyini daha da möhkəmləndirdi.

Vətəndaş həmrəyliyinin bariz təzahürü koronavirus pandemiyasına qarşı mübarizədə Prezident İlham Əliyevin apardığı siyasətin xalqımız tərəfindən fəal şəkildə dəstəklənməsində bir daha özünü göstərdi. Azərbaycan Prezidentinin bu sahədə atdığı addımlar qlobal yanaşma ilə milli dəyərlərin vəhdətinə, yüksək vətənpərvərlik missiyasına söykənərək qarşıya qoyulmuş məqsədlərə nail olunmasında böyük əhəmiyyət daşıyır. Dövlət siyasətinə dəstəyin əsasında onun ümummilli mənafeyi, ictimai tələbləri, insanları narahat edən və düşündürən məsələləri özündə dolğun şəkildə əks etdirməsi dayanır. Koronavirusla bağlı ölkəmizin həssas dövr yaşadığı bir vaxtda hakimiyyətlə xalq birliyinin mövcud olması yoluxucu xəstəliyə qarşı mübarizədə xüsusi əhəmiyyət daşıyır ki, bunun da ciddi əsası vardır. Çünki Prezident İlham Əliyevin apardığı siyasətin əsas prinsiplərindən birini vətəndaş həmrəyliyinin təmin olunması təşkil edir. Azərbaycan Prezidentinin öz çıxışlarında problemin ciddiliyini əhalinin nəzərinə çatdıraraq "Biz birlikdə güclüyük!" fikrini irəli sürməsi milli birliyin, xalq-dövlət vəhdətinin parlaq ifadəsidir.

Prezident İlham Əliyevin liderliyini səciyyələndirən qətiyyətli siyasi iradə və məqsədyönlülük, hər bir fərdin, sosial qrupun və bütövlükdə cəmiyyətin maraqlarının nəzərə alınması kimi keyfiyyətlər onun apardığı siyasət ətrafında milli birliyi möhkəmləndirir. Dövlətin bütün sahələrində uğurların əldə edilməsində Azərbaycan Prezidentinin yüksək idarəçilik qabiliyyəti və mükəmməl iş təcrübəsi, vətəndaş həmrəyliyinə sadiqliyi mühüm rol oynayır. Siyasi barışığın, vətəndaş sülhünün təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin formalaşdırılması sahəsində Prezident İlham Əliyevin atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını yaradır. Azərbaycan Prezidenti dövlətin idarə olunmasında cəmiyyətin ictimai-siyasi həyatında vətəndaşların yaxından iştirakının təmin edilməsi, konstruktiv, sağlam mövqe tutan ictimai-siyasi qüvvələrlə dialoqun aparılması kimi məsələlərə böyük əhəmiyyət verir.

Qeyd edək ki, Ümummilli Liderin adını daşıyan Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə vətəndaş həmrəyliyinin və milli birliyin möhkəmlənməsinə öz töhfəsini verməkdədir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elm və təhsil, səhiyyə, mədəniyyət, sosial məsələlər, idman, ətraf mühitin qorunması, informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində həyata keçirilən layihələri xalqımız böyük rəğbət hissi ilə qarşılayır. Nəinki Azərbaycanın, eləcə də xarici dövlətlərin vətəndaşları fondun ölkəmizdə və beynəlxalq miqyasda göstərdiyi xeyriyyəçilik və humanitar fəaliyyəti yüksək qiymətləndirirlər. Vətəndaş cəmiyyətinin inkişafı, mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin ictimai həyatda özünə mühüm yer tutması istiqamətində gördüyü işlər fondun Heydər Əliyevin adını daşımağa layiq olduğunu bariz şəkildə sübut edir.

*Yuxarıda göstərilənlərdən aydın olur ki, vətəndaş sülhünün və həmrəyliyinin möhkəmləndirilməsi Ümummilli Lider Heydər Əliyevin apardığı siyasətin əsas məqsədlərindən biri olmuş, bu sahədə görülmüş işlər ölkəmizin mütərəqqi yolla inkişafında mühüm rol oynamışdır. Görkəmli dövlət xadiminin əldə etdiyi tarixi nailiyyətlər Azərbaycanın gələcək inkişafının təməlində dayanmışdır. Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində milli həmrəylik ictimai həyatın ayrılmaz tərkib hissəsi olmuşdur. Dövlət-xalq birliyi ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni sahələrində mühüm uğurların əldə edilməsinin əsasında dayanır. Prezident İlham Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri həm də onun vətəndaş həmrəyliyi və milli birliyin möhkəmləndirilməsi istiqamətində apardığı mütərəqqi siyasətdə təcəssüm edir.*

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini***

1923 **Azərbaycanın özü qədər əbədi** 2020

*Əvvəli 1-ci səh.*

Bu epizodu heç vaxt unutmaram. Olardı 1990-cı ilin payız ayları, Bakıda taksiyə minmişdim. Yolumuz Neftçilər prospekti tərəfdən, Dənizkənarı Bulvarın yanından keçirdi. Sürücü orta yaşlarında bir kişi idi, onda bulvarın çox bərbad, hüznlü, xüsusilə payız vaxtı adama qüssə gətirən bir görkəmi vardı, onillər əvvəl burada yaradılmış abadlıq, infrastruktur baxımsızlıqdan dağılıb gedirdi.

Onda camaatın sözü-söhbəti siyasət idi, biz də yola nərdivan salmaq üçün sürücü ilə ordan-burdan söhbət edirdik.

Birdən qayıtdı ki, deyirlər, Heydər Əliyev Moskvadan Bakıya qayıdandan sonra şəhəri gəzməyə çıxıb. Bulvara da gəlib, buraları belə halda görəndə kişi kövrəlib ki, mənim qurub-yaratdıqlarımı niyə belə dağıtmısınız?!

Orta yaşlı taksi sürücüsünün o zaman danışdığı bu epizodun nə dərəcədə real fakt, yaxud xalq yaradıcılığı nümunəsi olduğunu, əfsus ki, dəqiqləşdirmək imkanım yoxdur. Amma o dövrdə qədirbilən sadə insanlarımızın Heydər Əliyevə münasibətinin, onun Azərbaycan üçün qurub-yaratdıqlarına qiymətinin və ölkənin gələcəyi üçün bu böyük dövlət adamının üzərinə qoyduğu ağır məsuliyyətin ifadəsi kimi maraq doğurur.

❖ ❖ ❖

Heydər Əliyev Azərbaycan üçün kimdir, xalqımız üçün hansı tarixi xidmətləri göstərib, onun dünya siyasətindəki miqyası necə görünür - bunu yaşlı və orta nəslə izah etməyə ehtiyac yoxdur. Çünki bu insanlar Heydər Əliyev ideyaları işığında yetişib tərbiyələniblər.

Böyük liderlərin bir özəlliyi də bundan ibarətdir ki, onlar öz cəmiyyətlərini formalaşdırırlar, toplumun ümumi baxışlarında, ictimai təfəkküründə Liderdən əxz edilmiş bir çox keyfiyyətlər, düşüncə tərzi, yanaşmalar nəzərə çarpır. Azərbaycanda da Heydər Əliyevdən görüb-götürən, onun Lider kimi böyüklüyünü, əzəmətini birmənalı şəkildə qəbul edən bütöv bir nəsil var.

Fikir müxtəlifliyinin təmin olunduğu cəmiyyətdə hamıdan eyni cür düşüncə gözləmək düzgün və mümkün deyil. Bu, insanların ayrı-ayrı şəxsiyyətlərə münasibətində də belədir. Ola bilər ki, qeyd etdiyim nəslin nümayəndələri arasında Heydər Əliyevin hansısa tarixi xidmətlərini lazımi qədər qiymətləndirəcək zəkada olmayanlar, vaxtilə ona qarşı müxalif mövqedə dayananlar və bu mövqedən yenə də geri çəkilmək istəməyənlər olsun. Cəmiyyətdir, nə qədər insan varsa, bir o qədər də rəy və düşüncə var. Amma əgər söhbət Heydər Əliyev şəxsiyyətindən, Ulu Öndərin Liderlik keyfiyyətlərindən, dövlətçilik təfəkküründən, idarəçilik məharətindən gedirsə, Azərbaycandakı yaşlı və orta nəslin bütün nümayəndələrinin, hətta vaxtilə Ümummilli Liderin ən qəti əleyhdarı olmuş insanların da yekdil fikrini eşidəcəksən ki, bu məqamlarda Heydər Əliyevin tayı-bərabəri yox idi.

❖ ❖ ❖

Heydər Əliyev Azərbaycan insanı üçün bir dəyərdir, qürurdur.

O, XX əsrdə yetişdirdiyimiz ən böyük dövlət adamıdır. Vaxt olub ki, böyük bir coğrafiyada bizi Vətənimiz, xalqımız, milli özəlliklərimizlə yanaşı, həm də məhz onun adı ilə tanıyıblar.

Heydər Əliyevin Vətənindən gəlmiş insanlar kimi hörmət qoyublar, biz də belə bir şəxsiyyətlə eyni xalqa, eyni mədəniyyətə mənsubluğumuza görə fəxarət hissi keçirmişik. Ulu Öndərin dünyanın ən mötəbər, ali kürsülərində ucalan boyuna, şax qədd-qamətinə təkcə bir şəxsiyyətin yox, ümumən xalqımızın boyu, yenilməzliyi kimi baxıb sevinmişik.

Ona görə də Heydər Əliyev öz böyüklüyü, Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri, təkcə ölkə hüdudlarında deyil, ümumən dünya çapındakı miqyası ilə insanların hər zaman yaddaşındadır.

Amma orası da var ki, ölkədə yeni nəsil yetişir, cəmiyyət gəncləşir, Azərbaycan xalqı hazırda demoqrafik göstəricilərinə, gəncləşmə potensialına görə dünyanın öncül millətlərindəndir. Özü də mən bura təkcə fiziki-bioloji mənada gəncləşməni deyil, təfəkkürlərin yenilənməsini, baxışların müasir dünyanın çağırışlarına uyğunlaşmasını da nəzərdə tuturam.

Yeni nəsli təmsil edənlərin böyük qismi Heydər Əliyevin cismani yoxluğu dövründə dünyaya gəlmiş gənc vətəndaşlarımızdır. Bu uşaqlardan ən böyüklərinin artıq 17 yaşı var. Amerika alimləri Uilyam Ştraus və Nil Houvun 1991-ci ildə elmi ictimaiyyətə təqdim etdikləri "Nəsillər nəzəriyyəsi"nin bölgüsünə əsaslansaq, bu uşaqlar "Z nəsli"nin təmsilçiləridirlər.

Onların simasında bəşəriyyət tarixində ilk dəfə olaraq insanlar öz əcdadlarından bu dərəcədə köklü şəkildə fərqlənməyə başlayırlar. Bu uşaqlar sözün əsl mənasında, dünyanın ilk rəqəmsal insanlarıdırlar. Bu uşaqların həyata baxışları, maraqları, yanaşmaları, dəyərləri tamamilə fərqlidir. Onların aləmində real və virtual dünya tam harmoniyadadır.

Bu nəsil multikultural mühitdə yaşayır və həmsöhbətinin kimliyi, harada doğulması, zahiri görünüşü, dil-din, mədəniyyət özəllikləri ilə qətiyyən maraqlanmır, insandır, şüurlu varlıqdır, vəssalam...

Deyirlər ki, onlar tarixin ən dözümlü və sülhsevər nəsli olacaq.

Şəxsiyyət amili bu gənclər üçün hansı önəmi daşıyır, münasibətlərində hansı yeri tutur, davranışlarına nə dərəcədə təsir göstərir, bütün bunlar zamanla üzə çıxacaq, hər halda başqa cəmiyyətlərə aid müşahidələrimiz şəxsiyyət dəyərinin bu nəsil üçün də öz aktuallığını itirmədiiyini göstərir.

Reallıq bundan ibarətdir ki, biz ikinci dünya müharibəsindən sonra doğulmuşlar, yəni "uşaq partlayışı" (baby boomer) nəslinin təmsilçiləri ictimai həyatdakı yerimizi yavaş-yavaş bu nəslə ötürürük, estafeti onlara təhvil veririk, dəyərlərimizi onlara əmanət etməyə başlayırıq...



# Vətən Sənə borcludur, HEYDƏR ƏLİYEV!..

❖ ❖ ❖

Gənc nəslə milli dövlətçilik tariximizin böyük bir dəyəri kimi Heydər Əliyevi də tanıtmağa çox böyük ehtiyac var. Açığını deyim ki, mən bu ehtiyacın getdikcə necə artdığını görürəm və müəyyən narahatlıqlarım yaranır.

Etiraf edək ki, gənc nəsilin heç də hamısı Heydər Əliyevi lazımi qədər, bizim istədiyimiz səviyyədə tanımır, digər böyük şəxsiyyətlərimiz kimi Ulu Öndərin də Azərbaycan tarixindəki yeri və rolu haqqında tam aydın təsəvvürlərə malik deyil.

Əlbəttə, gənclər Heydər Əliyevi digər tarixi şəxsiyyətlərimizlə müqayisədə,olsun ki, daha yaxından tanıyırlar, ümummilli liderin tarixi irsini daha asanlıqla hiss edə bilirlər, çünki bu, o qədər də uzaq tarix deyil, soruşsan hər biri cavab verəcək ki, bəli, yeni tariximizdə belə böyük bir şəxsiyyət var.

Amma Heydər Əliyev Azərbaycan üçün kimdir, bu xalq, bu dövlət üçün nələr edib, ideyaları, məramı, amalları nə idi, gənc nəslin bu barədə dərin bilgilərini, aydın düşüncələrini, Heydər Əliyev şəxsiyyəti ilə təkcə öyrənilmiş biliklər üzərindən deyil, həm də təhtəlşüur səviyyəsində bağlılıqlarını, təmasını heç də həmişə hiss etmək olmur.

Yaşlı nəslin nümayəndələrində bu, var, amma gənc nəsildə tam duyulmur. Açığı, burada təhsilin də, təşviqati işlərin də, ideoloji tərbiyənin də ciddi nöqsanlarını görürəm.

Əgər söhbət yeni nəsildən gedirsə, nəzərə almalıyıq ki, onların maraqları fərqli olduğu kimi bu marağı cəlb etməyin üsulları da fərqlənməlidir. Heydər Əliyevi gənc nəslə tanıtmaq üçün onların maraqlarını cəlb edəcək yeni və effektiv üsullar düşünmək zamanıdır.

Gözlərimiz önündə ən azı Türkiyə nümunəsi var, türk gəncliyinin zamanla daha da yüksələn Atatürk coşğusu, Atatürk sevgisi var...

❖ ❖ ❖

Bakının Xətai rayonu Türkiyənin Tarsus şəhəri ilə qardaşlaşmış şəhərdir. Tarsusda Heydər Əliyevin adını daşıyan park və Ulu Öndərin abidəsi var. Rəsmi tədbir çərçivəsində Tarsusa səfərlərimizin birində şəhər sakinlərinin əllərində Türkiyənin dövlət bayraqları, Atatürkün portretləri ilə hansısa bayramı böyük coşğunluq içində qeyd etdiklərini gördüm.

Səbəbi ilə maraqlananda məlum oldu ki, Atatürk 1923, 1925, 1926, 1937 və 1938-ci illərdə Tarsusda səfərdə olub. Adamlar bu səfərlərin hər birinin ayrıca hekayəsini danışdılar, sevə-sevə, ballandıra-ballandıra - Atatürk qatardan necə düşüb, kimlərlə nə danışıb, kimin evində müsafir olub, hansı təamlardan dadıb... O vaxtdan bəri bu səfərlərin anıları Tarsusda qeyd edilir. Təkcə Tarsusdamı?! Türkiyənin hər şəhərinin Atatürklə bağlı öz hekayəsi, öz anıları var.

Türkiyə insanı yeddidən-yetmiş yeddiyə bu anıları öz sevgisi, öz ruhu ilə yaşadır. Bu ruhu, sevgini yeni doğulan körpələrinə də ötürür. Türk körpəsi dünyaya bu sevgi ilə göz açır, Atatürk sevgisi onların canında-qanındadır. Zatən Türkiyəni güclü, yenilməz edən, dörd bir yandan üzərinə yönələn təzyiqlər qarşısında duruş gətirməsi üçün dayaq olan da elə bu sevgidir, bu hekayələrdir...

Əfsuslar olsun ki, biz gənc nəsil üçün bu hekayəni yarada bilməmişik, Heydər Əliyev şəxsiyyətini dərsliklərin, kitabların, media vasitəsilə aparılan təbliğatın hüdudlarından çıxarıb gəncliyə onlar üçün maraqlı olan hekayə tərzində tanıtmağa müyəssər olmamışıq. İndi ən çox buna ehtiyac var.

Bu, təkcə Heydər Əliyevin, təkcə bir şəxsiyyətin hekayəsi deyil, ümumən Azərbaycanın milli dövlətçilik hekayəsi olacaq...

❖ ❖ ❖

Böyük təəssüf hissi ilə bir faktı qeyd edim ki, biz Ulu Öndər Heydər Əliyevin şərəf və ləyaqətinin müdafiəsi haqqında qanunun qəbuluna da gecikmişik. Hələ də Azərbaycanda belə bir qanun qəbul olunmayıb. Amma Türkiyədə var belə bir qanun... Atatürk şəxsiyyətinə qarşı göstərilən həqir münasibət cinayət məsuliyyəti yaradır. Türkiyənin Ədliyyə Nazirliyi belə yaramazlığa qalxanlara qarşı iddia qaldırır, lazımi qulaqburmasını verir. Kiminsə Atatürk şəxsiyyətinə toz qondurmasına imkan tapmır. Bununla təkcə bir şəxsiyyətə yox, bu şəxsiyyət ətrafında yaranmış böyük bir dövlətçilik hekayəsinə sahib çıxır.

İndi soruşmaq istərdim: bəyəm Heydər Əliyevin şərəf və ləyaqətini qorumaq təkcə Onun ailə üzvlərinin vəzifəsidirmi?! Heydər Əliyev ümumən Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarının sayı qədər böyük ailəmizə aid deyilmi? O zaman Ulu Öndərin şərəf və ləyaqətini qanunla qorumaq da hər birimizin boynumuzun borcudur, mənəvi vəzifəmizdir.

Ümumən, əgər böyük tarixi şəxsiyyətlərimizin küfrdən, hərzə-hədyandan, qərəzdən, bədxah münasibətdən müdafiəsini ancaq onların bioloji doğmalarından gözləyəcəyiksə, onda xalq olaraq böyük tarix yarada bilmərik.

Hər xalqın malik olduğu şəxsiyyətlər onun tarixinin böyük parçalarıdır. Xalq öz şəxsiyyətlərini nə qədər uca tutarsa, özü də o qədər ucalar, bunun əksinə, şəxsiyyətlərinə nə qədər həqir münasibət göstərərsə, başqalarından da özünə qarşı eyni səviyyədə münasibət görər. Heç zaman unutmayaq: özümüzə, şəxsiyyətlərimizə hörməti bizim özümüzdən başqa kimsə göstərməyəcək. Çünki başqalarında imkan olsa, tariximizə, ərazilərimizə, milli varlığımıza sahib çıxmaqdan ötrü bütün böyük şəxsiyyətlərimizin adını salnamələrdən silib bizi qum dənəsi boyda kiçildib zamanın sərt külələri ilə baş-başa buraxarlar.

Heç olmasa bunu özümüz etməyək!

❖ ❖ ❖

Şəxsiyyətlər bizə özümüzü tarixdə hiss edə bilmək üçün çox lazımdır. Biz tarixdəki mövcudluğumuzu onlarla duyuruq. Zamanın ruhunu, nəsillərin əmanətini canımızda onların adı ilə hiss edə bilirik. Yaş keçdikcə bu məqamın bir xalq, toplum üçün nə qədər böyük əhəmiyyət daşıdığını daha dərindən duymaqdayam. Son illər bədii yaradıcılığımda tarixi mövzuların əsas yer tutmasının başlıca səbəbi də elə budur.

Axır illərdə tarixi şəxsiyyətlərlə bağlı xeyli kitabım çıxıb. "Nadir şah" haqqında "Sonuncu fateh" romanını yazmışam. "İki şah - iki sultan" trilogiyam işıq üzü görüb. Burada hadisələr Qazi Bürhanəddin və Uzun Həsəndən başlayıb Şah İsmayıl Xətayiyə qədər davam edir. Bunlar elə-belə, bir neçə ayın içində yazılan əsərlər deyil. Hər birini qələmə almaqdan ötrü bir neçə illik araşdırmalar aparmışam, obrazını canlandırdığım hər bir tarixi şəxsiyyətin dövrünü diqqətlə öyrənməyə çalışmışam, o dövrə daxil olmağa can atmışam. Heydər Əliyev haqqında da 8 kitabın müəllifiyəm, bu kitablardan biri dünyanın 40-dan çox dilinə tərcümə edilərək ayrı-ayrı ölkələrdə nəşr edilib.

Bu kitabları yazmaqdan ötrü apardığım araşdırmalar zamanı dövrlər və şəxsiyyətlər arasında qəribə bir bağlılıq gördüm. Baxırdım ki, zaman, tarixi şərait, reallıqlar fərqlidir, amma qarşıya qoyulan məqsədlər, hədəflər, amallar böyük, güclü Azərbaycan idealı hansısa nöqtədə kəsişir, tam üst-üstə düşür və bu şəxsiyyətlər eyniləşib eyni bir obraza daxil olurlar.

Bir neçə ay əvvəl əziz dostum, gözəl publisist qələmi və illərin redaktə təcrübəsi ilə çox güclü mətn duyumu olan Bəxtiyar Sadıqovla bu mövzuda söhbət edirdik. Ona tarixi faktlar əsasında tapdığım paralellər haqqında danışırdım. Onda Bəxtiyar müəllim belə bir ideya verdi ki, elə isə o kitablardakı ümumi xətləri, ortaq məqamları birləşdirib daha bir əsər yaz. Əgər o şəxsiyyətləri həqiqətən belə diqqətlə öyrənmisənsə və üzə çıxardığın məqamları, müqayisələri, paralelləri qələmə almaqdan ötrü belə aydın bədii təəssüratların yaranıbsa, çox gözəl bir əsər ərsəyə gətirə bilərsən. Bəxtiyar müəllim və digər dostlarım belə bir romanın yazılmasını yaxşı mənada boynuma qoydu və qismət olsa, özüm də tezliklə o romanı yekunlaşdırmağı çox istəyirəm. Elə gələcək kitabın adını da həmin söhbət zamanı Bəxtiyar Sadıqovla birgə əlüstü tapdıq: "Beş əsrin dörd kişisi".

Bu, əsrlər, şəxsiyyətlər arasında körpü salan əsər olmalıdır...

Həmin əsərin anladacağı bir həqiqət də olacaq. Buna bir neçə dəfə yazılarımda toxunmuşam. Azərbaycanda Uzun Həsənin də Şah İsmayılın da, Nadir Şahın da, Cümhuriyyətimizi yaratmış qurucu atalarımızın da başlayıb amma taleyin gərdişindən axıra çatdıra bilmədikləri yarımçıq qalan işlər, gələcəklə bağlı arzular vardı.

Onların hamısı Heydər Əliyev dövründə başa vardı...

Ulu Öndər o arzuların hamısını reallığa çevirdi. Heydər Əliyevin yekunlaşdıra bilmədiyi işləri isə İlham Əliyev zirvəyə çatdırdı.

"Beş əsrin dörd kişisi"nin dövlətçilik tacı bu gün əslində beşinci kişidə - İlham Əliyevdədir...

Əgər əsrlərin o üzündə məğribdən məşriqə böyük imperiyalar quran, yanına dünyanın o başından dəstə-dəstə elçilər gələn hökmdarların bu nüfuzunu Heydər Əliyev öz şəxsiyyəti ilə Kremlə daşımışdısa, SSRİ boyda imperiyanın əsas söz sahiblərindən biri, bütün müsəlman-türk dünyasının bu ali ucalıqda parlayan ulduzu idisə, İlham Əliyev də bu gün Qoşulmama Hərəkatının, Türk Şurasının rəhbəri kimi dünya miqyasında liderdir...

Bu böyüklüyü ilə tariximizdəki dörd böyük hökmdarın ruhunun daşıyıcısıdır...

Bu gün İlham Əliyevin yerlərdə vəziyyəti fürsət bilib xalqın malını yeyən, kasıb-kusubun ruzisinə göz dikən, vəzifə kürsüsündə hər cür mənəviyyatsızlığa qol qoyan məmurcuqların başına dünyanı dar etməsi o kişilərin adilliyindəndir, Heydər Əliyev ədalətindəndir....

Bu dörd kişidən gələn zəkadan, müdrikliyindən, gücdən, strateji baxışdan, qətiyyətdən, məğrurluqdan, ən əsası Vətən sevgisindəndir ki, İlham Əliyev bu gün bu qədər mətndir, onun rəhbərlik etdiyi Azərbaycan bu qədər qüdrətlidir...

Onların birləşən gücü, tarixin qədim qatlarından gələn enerjisi Azərbaycanı güclü, yenilməz edir. Nə qədər ki, əlimiz o şəxsiyyətlərdən qopmayıb bizi bu torpaqların bağrından kimsə qopara bilməyəcək, milli kimliyimizi, varlığımızı, dövlətçilik ruhumuzu, əzmimizi əlimizdən ala bilməyəcək...

Ona görə də qorumalıyıq o şəxsiyyətləri, kiminsə onların böyüklüyünə xələl gətirməsinə imkan verməməliyik. Eyni zamanda onların böyüklüyünü gənc nəslə də anlatmalıyıq. Qoy bu ruhla böyüsünlər, ürəkləri o şəxsiyyətlər kimi böyük olsun, geniş olsun, kiminsə yanında aşağılıq kompleksi keçirməsinlər.

O şəxsiyyətlərin işığı xalqımızı həmişə böyük edəcək. Amma onlara sahib çıxsaq, doğru-dürüst təqdim etməyi bacarsaq, məqsədli insanların həqir münasibətlərindən, mənasız ittihamlarından qorumağı bacarsaq...

İndi baxırsan, dərisi qara qəpiyə dəyməyən kimlərsə ara-sıra mətbuat səhifələrində, efirdə tarixi şəxsiyyətlərimizə qarşı hücuma keçirlər. Biri Şah İsmayılı aşağılayır, o biri Nadir şaha böhtan atır, başqası Uzun Həsəni mühakimə edir, digəri milli-mənəvi dəyərlərimizi aşağılamağa başlayır. Xalqın vicdanlı ziyalıları da hər dəfə onlara cavab verməyə, yerlərini göstərməyə məcbur qalırlar. İndi necə əmin ola bilərik ki, onilliklər sonra kimlərsə başqa tarixi şəxsiyyətlərimiz kimi Heydər Əliyevə qarşı da bu cür məsuliyyətsiz mövqe sərgiləməyəcəklər. Qeydlərimin əvvəlində bəhs etdiyim qanun bizə həm də bundan ötrü lazımdır.

Bunlar Azərbaycanın yeni inkişaf mərhələsində, cəmiyyətin sivil münasibətlər sistemində öz yerini tutmalı olan məsələlərdir. Belə məsələləri biz Heydər Əliyevçilər gündəmə gətirməliyik, həllinə nail olmalıyıq, Heydər Əliyevi gənc nəslə tanıtmalıyıq. Sevgimizlə, səmimiyyətimizlə, sədaqətimizlə, əməllərimizlə.

Heydər Əliyev şəxsiyyətinin, onun qurub-yaratdığı müstəqil Azərbaycan dövlətinin hekayəsini birgə yaratmaqla...

Hələ ki, bu missiyanı yalnız Azərbaycan Prezidenti və Ulu Öndərin adını daşıyan fond yerinə yetirir. Dövlət rəhbərimizin gördüyü işlər, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev ideyaları işığında reallaşdırdığı nəcib təşəbbüslər insanların həyatına böyük faydalar gətirməklə yanaşı, gənc nəslin diqqətini də ümummilli liderin şəxsiyyətinə, dövlətçilik amallarına, ali məqsədlərinə yönəldir, bu ideyaları tanıdır, sevdirir.

Bəs biz ziyalılar nə edirik?! Heydər Əliyev şəxsiyyəti qarşısındakı mənəvi borcumuzu lazımi şəkildə yerinə yetirə bilirikmi? Heydər Əliyev haqqında çoxsaylı kitabların müəllifi kimi, özümün də bu məsələdə yaxamı kənara çəkmək fikrim yoxdur. Əgər gənc nəsil o kitabları lazımi səviyyədə oxumursa, deməli, bir müəllif kimi burada mənim də suçum var. Sosioloji araşdırmalara görə, bir yaponiyalı il ərzində 25, isveçli 10, fransalı 7 kitab oxuyur. Türkiyədə hər 7 nəfərə ildə 1 kitab düşür. Azərbaycanda isə bu göstərici minimumdan da minimum səviyyədədir, əfsus ki...

İnsanlarımıza kitabı sevdirmək axı öz əlimizdədir.

Bu barədə daha ciddi düşünməliyik, imkanlarımızı bir araya gətirməliyik.

Heydər Əliyevi kitablarla tanıtmalıyıq, kitablarda tanıtmalıyıq, onun xalqına, dövlətinə, ümumbəşəri dəyərlərə fəda etdiyi ömrünü insanlar qarşısında kitab kimi açmalıyıq...

Necə ki, Türkiyədə bütün nəsillər Atatürkü ruhən, qəlbən sevir, Azərbaycanda da əgər Heydər Əliyevi gənc nəslə öz ucalığında, olduğu kimi təqdim edə bilsək, bu ruhi bağlılıq müstəqil dövlətimizin var olduğu əbədiyyətə qədər davam edəcək.

❖ ❖ ❖

Heydər Əliyev haqqında mütəmadi qaydada müxtəlif kitablar, ayrı-ayrı müəllif yazıları dərc edilir. Hər biri özlüyündə dəyərlidir, maraqlıdır və təqdir olunmalıdır. Bununla belə bu məsələdə müəyyən qədər də özfəaliyyət hiss olunur, sistemsizlik nəzərə çarpır. Oxucu auditoriyasına təqdim edilən materialların heç də hamısı Heydər Əliyev şəxsiyyətini olduğu kimi əks etdirə bilmir, gözlədiyimiz faydanı vermir.

Ona görə də Əliyevşünaslığın bir elm sahəsi kimi inkişafı, bu sahənin öyrənilməsi və öyrədilməsi tarixi zərurətə çevrilirb. Heydər Əliyev şəxsiyyətinin buna ehtiyacı yoxdur. Amma cəmiyyət olaraq, Azərbaycan xalqı olaraq bizim çox böyük ehtiyacımız var.

Gənc nəslinsə, düşünürəm ki, gələcəkdə daha böyük ehtiyacı olacaq. Çünki Əliyevşünaslıq dövlətin mövcudluğu boyu ortaya çıxan həyati suallara cavab tapmaq üçün aydın mənbədir, gələcəyə doğru yol göstərən etibarlı bələdçidir.

Bir müddət əvvəl müasir dövrümüzün böyük mütəfəkkir aydınlarından olan akademik İsa Həbibbəylinin "Azərbaycan" qəzetində HeydərƏliyevşünaslıqla bağlı geniş elmi məqaləsi dərc edilmişdi. Oxudum, çox maraqlı gəldi, bəzi qeydlər də götürdüm və ilk dəfə onda anladım ki, bu elmi istiqamətin inkişafı Azərbaycanın həm bu günü, həm də gələcəyi üçün nə qədər önəmlidir. HeydərƏliyevşünaslıq - böyük siyasət haqqında elmin üzvi tərkib hissəsi olub, siyasi-tarixi xarakter daşıyan nəzəri təlimdən, Azərbaycanşünaslığın əsas aparıcı və hərəkətverici qüvvəsi olan sistemli bir nəzəriyyədən müstəqil dövlətçilik və ümummilli ideologiya haqqında elmə qədər, daim inkişafda olan, böyük gələcəyə işıq salan əbədiyaşar novator dövlətçilik təliminə qədər çox geniş istiqamətləri əhatə edir.

İsa müəllim öz məqaləsində də haqlı olaraq qeyd edirdi ki, Heydər Əliyev haqqında deyilənlər və yazılanlar dünyanın ayrı-ayrı qitələrini və xalqlarını əhatə etdiyi üçün HeydərƏliyevşünaslıq beynəlxalq miqyaslı elmi təlimdir. Bununla belə, Heydər Əliyevə həsr olunmuş rəyləri, münasibət ifadə edən fikirləri, ən müxtəlif xarakterli araşdırmaları ümumiləşdirib dəyərləndirmək Azərbaycan elminin borcu və vəzifəsidir. Azərbaycan tarixinin son 50 illik inkişaf yolunu Heydər Əliyev faktorunu əsas kimi qəbul etmədən elmi cəhətdən obyektiv şəkildə qiymətləndirmək mümkün deyildir.

Əslində ölkəmizdə dəqiq və texniki elmlər, yer elmləri və təbiət elmləri də Heydər Əliyevin azərbaycançılıq ideallarının işığında inkişaf etdirilmişdir. Bu mənada HeydərƏliyevşünaslıqla azərbaycançılıq arasında bərabərlik işarəsi qoymaq mümkündür. HeydərƏliyevşünaslıq - müstəqillik dövrü Azərbaycan elminin strategiyasını müəyyən edən metodoloji meyardır.

Biz Heydər Əliyevi tanımaq və tanıtmaq üçün bu meyardan yola çıxmalıyıq...

❖ ❖ ❖

Heydər Əliyevi gənc nəslə tanıtmaq deyirəm, əslində heç biz özümüz də Ulu Öndəri yetərincə tanıya bilməmişik. Onun həyat və fəaliyyəti haqqında faktlarımız indi arzu etdiyimiz qədər deyil. Bunun bir səbəbi də Ulu Öndərin özündən gəlirdi, açıq yazaq.

O həddən artıq təvazökar dövlət adamı idi, bu gün bizim onun tarixi xidmətləri kimi dəyərləndirdiyimiz hadisələri sıradan adi bir fəaliyyət kimi qəbul edirdi, bunları açıqlamağa, təbliğ etməyə lüzum görmürdü. Deyirdi ki, burada nə var ki, adi bir fəaliyyətdir, qeyri-adi nəsə yoxdur.

Amma tarix göstərdi ki, Ulu Öndərin adilik saydıqlarının hər birində çox böyük qeyri-adiliklər, möhtəşəmliklər var. Ruhu şad olsun, amma bu məsələdə Heydər Əliyevdən yazı-pozu adamı kimi kiçik bir gileyim də var. O da digər qüdrətli türk hökmdarlarının yolunu tutdu, öz ömrü ilə yaratdığı dövlətçilik tarixinin təfərrüatlı şəkildə qələmə alınmasına, yazılı mənbələrdə bugünkü və gələcək nəsillər üçün sənədləşməsinə az vaxt ayırdı. Kaşkə bu faktları özündə saxlamasaydı, xatirələrini yazmağa vaxt ayıra bilsəydi, yaxud bunu yazmaq istəyənlərə şərait yaratsaydı...

Onda Heydər Əliyevin Azərbaycan dövlətinə, xalqımıza bəxş etdiyi böyük xidmətlər haqqında faktları tamam kənar mənbələrdən öyrənmək məcburiyyətində qalmayacaqdıq. Bu yaxınlarda rastıma Moskvada nəşr olunmuş bir kitab çıxdı. Müəllifi Sov İKP MK-nın Beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutensadır. "Köhnə meydanda otuz il" adlanan əsər tamam başqa mövzudadır. İçərisində vur-tut yarımca səhifə Azərbaycana həsr olunub, kitabda Heydər Əliyevin adı belə çəkilmir. Amma görün, o yarımca səhifəlik materialda nə qədər əhəmiyyətli bir hadisə, fakt əks olunur.

Hadisə baş verir 1972-ci ildə. Zaman-zaman Azərbaycana qarşı ərazi iddiaları qaldıran və bu məkrli mövqeyindən sovet dövründə də əl çəkməyən Ermənistan rəhbərliyi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi təşəbbüsü ilə SSRİ rəhbərliyinə müraciət edir. Onda Sov. İKP MK-nın katibi M.A.Suslov məzuniyyətdə idi, Qafqaz Mineral sularında dincəlirdi, onun vəzifəsini A.Kirilenko icra edirdi. Ermənistan rəhbərləri bu məqamı fürsət bilmişdilər. SSRİ rəhbərliyi qaldırılan məsələnin birlikdə öyrənilməsi onun həlli üçün təkliflərin irəli sürülməsi barədə hər iki ölkənin rəhbərliyinə göstəriş verir. Mərkəzi komitələrin birinci və ikinci katibləri, Nazirlər Kabinetinin, Ali Sovetin Rəyasət Heyətinin sədrləri səviyyəsində hər iki ölkədə görüşlər keçirilir. Amma heç bir razılıq əldə olunmur, Azərbaycan tərəfi Ermənistanın məkrli təşəbbüsünü qətiyyətlə rədd edir. Ermənistan tərəfinin təkidi ilə axırda belə razılıq əldə olunur ki, daha kiçik tərkibdə mərkəz üçün birgə arayış hazırlansın. Amma nə belə bir görüşə, nə də belə bir arayışa gərək qalmır. Çünki Azərbaycan rəhbəri dərhal Suslovun istirahət etdiyi yerə gedir, durumu ona çatdırır, Suslovsa Moskvaya dönən kimi məsələni yoluna qoyub, Brejnevi ermənilərin təşəbbüsünün mənasızlığına inandırıb onları geri oturtmağa nail olur...

Həmin vaxt Suslovla görüşüb bu məsələni onunla və dolayısı ilə Brejnevlə həll edən kim idi?! Təbii ki, Heydər Əlyev!..

O zaman Heydər Əliyev Azərbaycan rəhbərliyinə hələ cəmi iki il yarım idi ki, gəlmişdi, mövqeləri o qədər də güclü deyildi. Amma görün sarmaşıq kimi dünyanın bütün nüfuzlu mərkəzlərini bürümüş, hər yerə əlləri çatan ermənilərlə necə döyüşürdü?! Azərbaycanın maraqlarını necə qoruyurdi?!

Təsadüfi deyil ki, 1972-ci ildə moratorium qoyulmuş bu məsələni ermənilər məhz Heydər Əliyev ittifaq rəhbərliyindəki vəzifəsindən gedəndən cəmi 2 həftə sonra Ağambekyanın müraciəti ilə gündəmə gətirdilər. Heydər Əliyevi kənarda gücsüz görüb üstümüzə kükrədilər, başımıza bəlalar açdılar.

Bütün bu məsələlərin təfərrüatlarını sağlığında Heydər Əliyevin özündən öyrənmək olardı. Bizdə də günah oldu əslində, xatirələrini qələmə almaq üçün israr etməyə cəsarət göstərmədik, bu məsələdə gecikdik, zaman ötdü keçdi. Amma bir daha o həqiqətə qayıdıram ki, Heydər Əliyev bütün bunları qəhrəmanlıq kimi görmürdü, özünə adi missiya, Vətən və xalq qarşısında xidməti borc bilirdi.

Əslində, belə faktlarla qarşılaşanda biz araşdırmaçıların, tarixi əsər müəlliflərinin ürəyində niyə vaxtında bilməmişik düşüncəsindən bir nisgil yaransa da, bununla yanaşı, dünyanın ən böyük azərbaycanlısının bu böyük ürəyinə bir daha heyran oluruq.

*Bu böyük ürəyə hər zaman ehtiyacımız var!*
*Bu böyük ürəyi qorumalıyıq.*
*Bu, həm də Onun adı işığında Vətənin tarix qarşısındakı borcudur.*
*Vətən Sənə borcludur, Heydər Əliyev...*

**Hüseynbala MİRƏLƏMOV,**
***YAP Xətai rayon təşkilatının sədri***

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



## «Pandemiya ilə mübarizədə gördüyünüz işlərlə Azərbaycanın necə güclü dövlət olduğunu bir daha sübut etdiniz»

**Ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.**

Göygöl rayonunda yaşı 65-dən yuxarı olan tənha və ahıl insanlara xidmət göstərən könüllülər adından dövlət başçısına məktub ünvanlayan **Aynur Hüseynova, Məsmə Əliyeva** və **Səidə Ələsgərova** yazırlar: "Möhtərəm cənab Prezident, Siz Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi hakimiyyətə gəldiyiniz gündən bəri Azərbaycan daim inkişaf edir, beynəlxalq aləmdə özünəməxsus yer tutur. Apardığınız uğurlu daxili və xarici siyasət Azərbaycanın Avropa və dünya strukturlarına inteqrasiyası, xalqımızın maddi və mənəvi inkişafının təmin olunması məqsədini daşıyır. Son zamanlar bütün dünyanı bürümüş COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin qətiyyətiniz ölkəmizi böyük ziyanlardan qorudu. Əminik ki, Sizin rəhbərliyinizlə bu bəladan da şərəflə və üzüağ çıxacağıq. Vətəndaşların sağlamlığı Sizin üçün hər şeydən önəmlidir. Sizin çıxışlarınız, açılışlarında şəxsən iştirak etdiyiniz səhiyyə ocaqları bunun bariz nümunələridir. Cənab Prezident, karantin vəziyyəti ilə əlaqədar verilən bütün qərarlarınızı dəstəkləyirik. Çünki bu, birbaşa bizim hər birimizin sağlamlığının qorunması üçün atılmış addımlardır. "Evdə qal!" aksiyasında iştirak edən yaşlı və aztəminatlı təbəqənin nümayəndələri Sizin diqqət və qayğınız sayəsində bu çətin günlərdə maddi və mənəvi cəhətdən korluq çəkmədi. Biz - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Göygöl rayon şöbəsinin sosial xidmət işçiləri də həmişə Sizin tapşırıqlarınızı icra etməyə hazırıq. Bu şərəfli işinizdə həmişə Sizinləyik. Bizlərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirik. Cənab Prezident, Göygöl rayonunun ahıl insanları və ağsaqqalları hər zaman Sizin daxili və xarici siyasətinizi dəstəkləyirlər".

Bakının Nizami rayonundan **Arzu Babayev:** "Hörmətli cənab Prezident, Azərbaycan xalqının qəhrəman oğlu İlham Əliyev, məktubuma Ümummilli Liderimiz Heydər Əliyevin 18 il əvvəl Sizin haqqınızda dediyi sözlərlə başlamaq istərdim: "İlham Əliyev yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, yüksək enerjili, təşəbbüskar və tələbkar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları və işləri sizin yaxından dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Son 17 ildə Azərbaycanda görülən işlərə baxdıqda Ulu Öndərin Sizin barənizdə söylədiklərinin əsl həqiqət olduğuna bir daha əmin oluruq. Bu gün ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada Sizin zəhmətinizin izi olmasın. Cənab Prezident, seçildiyiniz gündən davamlı olaraq ölkəmizin bölgələrinə səfər etmisiniz. Bəzən bir gündə 3-4 rayona getmisiniz, daim xalqla bir yerdə olmusunuz. Çünki xalqı maraqlandıran, onu narahat edən hər bir sözü insanların dilindən eşitmək istəmisiniz. Hətta bəzən doğum gününüzü bölgələrdə, xalqla bir yerdə keçirirsiniz. Bu isə xalqı əziz tutmağınızdan, onun rifahını ən vacib məsələ hesab etməyinizdən irəli gəlir. Elə ona görə də bu gün Azərbaycanda ən güclü birlik Prezidentlə xalqın birliyidir. Azərbaycan xalqı bu gün dünyanın ən xoşbəxt xalqıdır ki, onun Sizin kimi sadə, humanist, hər bir vətəndaşın probleminə diqqətlə yanaşan, bütün ömrünü xalqına həsr edən Prezidenti var. Ona görə də xalqımız Prezidentin apardığı siyasəti ürəkdən bəyənir və dəstəkləyir. Cənab Prezident, bilirik ki, xalqın sağlamlığını qorumaq Sizin üçün daim prioritet olub. Vətəndaşlarımız Sizin dəstəyiniz sayəsində hər il səhiyyə ocaqlarında pulsuz müayinə və müalicə olunurlar. Hazırda dünyanı zəbt etmiş ağır koronavirusla mübarizədə də Siz vaxtında çox qətiyyətli tədbirlər görməklə böyük fəlakətin qarşısını aldınız. İnşallah, Sizin köməyinizlə xalqımız bu bəladan minimum itki ilə çıxacaq. Sizə cansağlığı və Azərbaycanımızın taleyüklü işlərində müvəffəqiyyətlər arzulayıram. Ulu Tanrı Sizi Azərbaycana və xalqımıza çox görməsin, Sizə və Sizinlə çiyin-çiyinə çalışan Mehriban xanıma daim kömək olsun!"

Sumqayıt şəhər "Təfəkkür" liseyinin şagirdi **Mehrəngiz Qurbanova:** "Möhtərəm cənab Prezident, bütün dünya üçün qorxulu fəsadlarla nəticələnən koronavirus pandemiyası Vətənimiz Azərbaycandan da yan keçmədi. Dünyanın nəhəng dövlətlərinin COVID-19 qarşısında aciz qaldığı bir zamanda Azərbaycan Sizin - mənim xilaskar Prezidentimin uzaqgörən siyasəti sayəsində bu bəladan minimum ziyan gördü. Pandemiyanın üzə çıxdığı ilk gündən etibarən əhalinin mütəmadi olaraq məlumatlandırılması, qabaqlayıcı tədbir olaraq kütləvi toplanmaların qarşısının alınması, az bir vaxtda yeni tipli xəstəxanaların inşa edilməsi, ölkəmizdən kənarda olan vətəndaşlarımıza belə dövlət səviyyəsində qayğı və dəstək göstərilməsi, aztəminatlı ailələrə maddi yardım göstərilməsi və digər tədbirlər Sizin yüksək liderlik, təşkilatçılıq qabiliyyətinizin nəticəsidir. Mən milyonlarla Azərbaycan vətəndaşından biri olaraq Vətənə, xalqa göstərdiyiniz bu məhəbbət, maddi, ən əsası isə mənəvi dəstək üçün Sizə çox minnətdaram. Bir şagird kimi ilk vaxtlar məktəbimin fəaliyyətini dayandırmasına görə çox üzülsəm də, sonra anladım ki, bu tədbir mənim və minlərlə azərbaycanlı şagirdin rifahı naminədir. Dəyərli Prezidentim, həyata keçirdiyiniz uzaqgörən siyasət üçün Sizə çox minnətdarıq. Biz Sizinlə güclüyük, cənab Ali Baş Komandan!"

Laçın Rayon Ağsaqqallar Şurasının sədri **Ağayar İsmayılov:** "Möhtərəm cənab Prezident, ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində rəhbərliyinizlə görülən işlər xalqımızın ən etibarlı arxa və dayağı kimi vətəndaşlarla birlikdə olmağınız, hər bir ailənin rifah halını və sağlamlığını düşünərək, bu istiqamətdə göstərdiyiniz maddi və mənəvi dəstək bir daha nümayiş etdirir ki, Siz hər bir Azərbaycan vətəndaşının layiqli Prezidentisiniz. Sizin "Biz birlikdə güclüyük!" çağırışınız xalqımızı ətrafınızda bir daha səfərbər edərək, daha sıx birləşdirdi. Biz ahıl sakinlər də bu taleyüklü məsələlərin həlli istiqamətində gördüyünüz işləri daim bəyənir, bundan məmnunluq hissi keçirir, buna görə Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. İnanırıq ki, ölkəmiz Sizin müdrik rəhbərliyiniz sayəsində tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcək".

Rizvan Pirnəzərov adına 299 nömrəli məktəb-liseyin şagirdi **Nuray Məmmədzadə:** "Hörmətli cənab Prezident, dünyanı öz ağuşuna alıb məhvə sürükləyən "COVID-19" pandemiyası ilk günlərindən bütün ölkələrdə kütləvi ölümlərə səbəb olduğunda, bu qorxunc xəbər hamını məyus etmişdi. Lakin qəlbimin dərinliyində zülmət qaranlığı parçalayacaq parlaq bir günəşin doğacağına əmin olduğum üçün nikbinlik hissi heç bir zaman məni tərk etməmişdi. Əmin əllərdə idarə olunan dövlətimizin həmişə vətəndaşının yanında olduğunu və onu qoruduğunu bildiyim üçün bu dəhşətin böyük faciə yaratmayacağına inanırdım. Təhlükənin ilk günlərində zərgər dəqiqliyi ilə alınmış uzaqgörən qərarlarınız vaxtında bu dəhşətin önünə sədd çəkdi. Bu ölüm saçan pandemiya ilə mübarizədə dünyanın bir çox ölkələrinə örnək olan davranışınızla Azərbaycan dövlətinin necə güclü olduğunu bir daha sübut etdiniz. Cənab Prezident, hazırda pandemiya dəhşətinin sönən alovları tezliklə bu bəladan qurtulub normal həyata dönəcəyimizdən xəbər verir. Sizin apardığınız çoxyönlü islahatlar ölkəmizin və xalqımızın rifahını artırdığı kimi, həm də dövlətimizin güclü olmasını təmin edir. Bu da biz gənclərin özünə güvən hissini, vətən sevgisini və vətənə layiqli övlad olma məsuliyyətini artırır. Qloballaşan dünyada ikili standartlara qarşı gecə-gündüz apardığınız haqlı mübarizədə biz gənclər də sizin siyasi kursunuzun davamçılarıyıq. Gələcəkdə vətənimizə layiqli vətəndaş olmaq və bizlərə əmanət ediləcək irsi, mədəniyyəti, mental dəyərləri qoruyub gələcəyə daşımaq və bəşəriyyətin sürətlə inkişaf etdiyi bu dönəmdə yeni texnologiyalara daha müfəssəl yiyələnmək üçün biz daha yaxşı oxumalı, müasir biliklərə yiyələnməli və bu yolda çox məsuliyyətli olmalıyıq. Doğma Azərbaycanımızı sevmək və onun layiqli vətəndaşı olmaq biz gənclərin ən vacib işidir. Çiçəklənən ölkəmizdə gündən-günə inkişaf edən iqtisadiyyatımızın hər sahəsində əldə olunan nailiyyətlər biz gəncləri daha da qürurlandırır və bizləri daha məsuliyyətli olmağa məcbur edir. Çünki bu gün əmin əllərdə idarə olunan ölkəmizin gələcəkdə daha da güclü və qüdrətli olması bizlərin prioritet məsələsidir. Bunun üçün də biz üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirməliyik. Bildiyimiz kimi, tarixən ölkəmiz zaman-zaman yadellilərin və nankor qonşuların işğalına məruz qalmışdır. Bu gün də torpaqlarımızın 20 faizindən çoxu işğal altındadır. Bir milyondan artıq köçkün soydaşlarımız öz yurd-yuvalarından didərgin düşmüşlər. Lakin biz əminik ki, cənab Prezident, Siz bu çətin məsələnin tezliklə həllinə nail olacaqsınız və köçkün soydaşlarımız öz yurd-yuvalarına geri dönəcəklər. Dünya ictimaiyyətinin də bildiyi bir həqiqət var ki, o da Azərbaycanın ərazi bütövlüyünün qeyri-şərtsiz bərpa olunmasıdır. Sülh yolunun tükəndiyi anda ölkəmizin müzəffər ordusu Ali Baş Komandanın əmri ilə və xalqın dəstəyi ilə düşməni darmadağın edib, üçrəngli zəfər bayrağını indi işğalda olan torpaqlarımızda dalğalandıracaq. Vətənimizin azadlığı üçün bu yolda canımızı belə verməyə hazırıq. Yaşasın Azərbaycan!"

## Koronavirusla mübarizədə Azərbaycanın önləyici addımları dünyada razılıqla qarşılanır

Tarix boyu hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən, onu dünya miqyasında tanıdaraq layiqli mövqelərə çıxaran liderlər həm də dövlətçilikdə uğurlu varislik ənənələri formalaşdıraraq müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin etmişlər. Ötən əsrdə xalqımızın yetirdiyi nadir şəxsiyyətlərdən olan Ulu Öndər Heydər Əliyev də müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını irəli sürməklə yanaşı, bu strateji kursu zamanın diktə etdiyi yeni şərtlər müqabilində davam etdirməyə qadir, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı yetişdirmişdir.

2003-cü ilin prezident seçkilərindən ötən 17 il müddətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli Liderin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləmiş, yüksək idarəçilik və liderlik keyfiyyətləri ilə ictimai inamı doğrultmuşdur. Dövlət başçısının idarəçilik fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə optimal qərarlar qəbul etməyi uğurla bacarır.

Dünyanın koronavirusdan (COVID-19) ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyması bir daha təsdiqləyir ki, ölkəyə rəhbərlik edən liderin müdrik qərarları bəzən bütöv bir xalqı faciədən hifz edir. Möhtərəm Prezident İlham Əliyevin ilk günlərdən dünyadakı prosesləri real analiz edərək qətiyyətli və operativ tədbirlər görməsi onun xalqının sağlamlığını dövlətin iqtisadi-siyasi dividendlərindən daha üstün tutduğunu bir daha təsdiqləmişdir.

Bir neçə gün əvvəl Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə keçirdiyi videokonfransda dövlət rəhbəri bununla bağlı haqlı olaraq demişdir: "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmamışdır. Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki bu ilin göstəriciləri olduqca ümidverici idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu".

Bu da təsadüfi deyildir ki, hazırda Azərbaycanın pandemiyanın qarşısının alınmasında nümayiş etdirdiyi ardıcıl və davamlı strategiya beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən birmənalı təqdir edilir. Məsələn, bir müddət əvvəl Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Gebreyesusun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladığı məktubda koronavirusla mübarizədə Azərbaycanın həyata keçirdiyi tədbirləri alqışlayaraq unikal model kimi dəyərləndirmişdir.

Təşkilatın tövsiyələrinə ilk gündən məsuliyyətlə yanaşan respublika rəhbərliyinin atdığı önləyici addımlar, qəbul etdiyi qətiyyətli qərarlar qısa zamanda müsbət nəticələrini verməklə, faktiki olaraq vəziyyətin nəzarət altına alınmasına, sabitləşməyə və yoluxma sayında azalan dinamikaya imkan yaratmışdır. Bir çox ölkələrin rəsmiləri razılıqla vurğulayırlar ki, Azərbaycan pandemiyanın qarşısının alınmasında iqtisadi, sosial, hüquqi, tibbi və texniki izolyasiya tədbirlərini ən yaxşı səviyyədə təşkil etmiş dövlətlər sırasındadır.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev koronavirus infeksiyasının hələ pandemiya elan olunmadığı bir zamanda - 2020-ci ilin yanvar ayından səmərəli önləyici tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Bu istiqamətdə ilk mühüm addımlardan biri dövlət başçısının 2020-ci il 27 fevral tarixli sərəncamı əsasında Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, habelə sosial izolyasiya qaydalarının tətbiqi olmuşdur. Bundan əlavə, 2020-ci il martın 24-dən etibarən mərhələlərlə mayın 4-dək xüsusi karantin rejiminin elan edilməsi, bir sıra hotel, mehmanxana, sanatoriya və digər turizm obyektlərinin bu məqsədlə səfərbər olunması virusa kütləvi yoluxma hallarının qarşısının alınması baxımından əhəmiyyətli olmuşdur.

Pandemiyaya qarşı mübarizədə vətəndaş məsuliyyətinin vacibliyini ilk gündən düzgün dəyərləndirən ölkə rəhbəri xalqa səmimi müraciətində sosial təcrid tədbirlərinin müstəsna əhəmiyyətini diqqətə çəkmiş, "Biz birlikdə güclüyük!" şüarını irəli sürməklə milli həmrəyliyi təmin etmişdir. 19 mart 2020-ci il tarixli fərmanla Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, quruma 20 milyon manat məbləğində vəsaitin ayrılması da müsbət nəticələrini göstərmişdir. Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın birillik məvaciblərini həmin fonda köçürmələri xeyirxahlıq və birlik nümunəsi olan sosial çağırış kimi cəmiyyətdə səfərbərlik ovqatının güclənməsinə təkan vermişdir.

Bəzi sahələrdə çalışanlar sağlamlığı risk qrupunda olan insanlar kimi cəmiyyətin rəğbətini qazanmış, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu sırada polis əməkdaşlarını və həkimləri xüsusi olaraq qeyd etmişdir. Dövlət başçısının müdrik addımlarından biri də yoluxucu xəstəliklə mübarizədə "ön cəbhədə" olan həkimlərin əməyinin stimullaşdırılması olmuşdur. 18 mart 2020-ci il tarixli sərəncamla pandemiya ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsi gücləndirilmiş, dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavələr müəyyən edilmişdir.

Pandemiya dövründə həyata keçirilən davamlı sosial layihələr isə Azərbaycanda insan və vətəndaş amilinə həssas münasibətin mövcudluğunu bir daha təsdiqləmişdir. Sosial təcrid tədbirlərinin iş yeri müvəqqəti bağlanmış vətəndaşların rifahına və sahibkarların işgüzar fəallığına təsirləri nəzərə alınaraq qısa zamanda mühüm dövlət proqramlarının işlənib hazırlanması təmin edilmişdir. Dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 3,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbul olunması cəmiyyətdə razılıqla qarşılanmışdır.

Pandemiyadan zərər çəkmiş, iş yerini itirmiş və yaxud işləməyən 600 min nəfərədək vətəndaşa 2 ay müddətində 190 manat məbləğində sosial ödəmənin verilməsi də mühüm sosial addımlar sırasındadır. Bundan başqa, aztəminatlı ailələrə ərzaq yardımının göstərilməsi və övladlarının təhsil haqqının ödənilməsi, habelə pandemiya dövründə elektrik enerjisindən güzəştli istifadəyə görə limitin artırılması vətəndaşların sosial rifahına xidmət etmişdir.

Ötən müddətdə ölkə ictimaiyyəti, ayrı-ayrı dövlət və özəl təşkilatlar koronavirus infeksiyası ilə mübarizə tədbirlərində sosial həmrəylik nümayiş etdirirlər. O cümlədən Ədliyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq şəraitində 1600-dən çox tənha yaşlıya ərzaq yardımları paylamışdır. Nazirliyin rəhbərliyi və kollektivi Koronavirusla Mübarizəyə Dəstək Fonduna əməkhaqlarından 870 min manat məbləğində vəsait köçürmüşlər. Məhkəmə-Hüquq Şurası, hakimlərin assosiasiyaları, apelyasiya və birinci instansiya məhkəmələrinin hakimləri də bu nəcib təşəbbüsə qoşularaq, Koronavirusla Mübarizəyə Dəstək Fonduna əməkhaqlarından 550 min manat məbləğində vəsaitin köçürülməsini təmin etmişlər.

Xüsusilə qeyd etmək lazımdır ki, pandemiya dövrünü əhatə edən sosial layihələrdə Heydər Əliyev Fondu da yaxından iştirak edərək ən azı 100 min aztəminatlı ailəyə ərzaq yardımı göstərməyi planlaşdırır. "Biz birlikdə güclüyük!" şüarı ilə keçirilən aksiyanın məqsədi karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələri və onlara sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək, bu prosesdə vətəndaş həmrəyliyini genişləndirməkdir. Fondun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən "150" Çağrı Mərkəzinə daxil olan müraciətlər əsasında sovqatların hazırlanması və onların ünvanlara çatdırılması təmin edilir.

Xüsusi karantin rejimində qanunçuluğun, hüquq qaydalarının, nizam-intizamın daha da möhkəmləndirilməsi, eləcə də pandemiyanın qarşısının alınmasında vətəndaş məsuliyyətinin artırılması baxımından qanunvericiliyə edilmiş bir sıra əlavə və dəyişikliklər də son dərəcə əhəmiyyətli olmuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, eləcə də Cinayət Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər mahiyyətcə karantin rejimi qaydalarının pozulmasına görə hüquqi məsuliyyətin artırılmasına və beləliklə, həm də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələn tədbirlərin reallaşdırılmasına xidmət etmişdir.

İnzibati Xətalar Məcəlləsinin "Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması"na dair 211-ci maddəsinə edilmiş dəyişikliklərlə inzibati məsuliyyəti nəzərdə tutan cərimələrin məbləği artırılmışdır. Cinayət Məcəlləsinə əlavə edilmiş "Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması"na dair 139-1.1-ci maddəyə əsasən, 2500 manatdan 5000 manatadək cərimə və ya 3 ilədək azadlığın məhdudlaşdırılması, yaxud 3 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmuşdur. Həmin rejimlərin pozulması insan ölümü və ya digər ağır nəticələrə səbəb olduqda, 3 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq ediləcəkdir.

Pandemiya dövründə məhkəmələrin fəaliyyətinin tənzimlənməsi və təşkili baxımından Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 23 aprel 2020-ci il tarixli "Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədilə məhkəmələrdə həyata keçirilməsi zəruri olan tədbirlər haqqında" Qərarı müstəsna əhəmiyyət kəsb edir. Qərar Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi sosial təcrid qaydalarının məhkəmələrin fəaliyyətində də tam riayət edilməsinə imkan yaratmışdır.

Qərarla Azərbaycan Respublikasının bütün məhkəmələrinə 20 aprel 2020-ci il tarixdən 04 may 2020-ci il tarixinədək təxirəsalınmaz qaydada baxılmalı olan, yaxud məhkəmə baxışının keçirilməsini tələb etməyən işlərə (qətimkan tədbirlərinin seçilməsi, uzadılması, dəyişdirilməsi, ləğvi, inzibati həbs nəzərdə tutulan işlər, zəruri hallarda hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında müraciətlər, iddianın təmin tədbirlərinin görülməsi, əmr icraatı, kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat, bəzi kateqoriya üzrə xüsusi icraat işləri və sair) baxılması istisna olunmaqla, icraatlarında olan digər işlərə baxılmasını müvəqqəti təxirə salmaq tövsiyə edilmişdir. Qərarın 1.2-ci bəndinə görə, Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin 16-cı maddəsinin tələbləri nəzərə alınmaqla inzibati məhkəmə icraatı qaydasında baxılan işlərə şifahi məhkəmə baxışı (şifahi dinləmələr) keçirilmədən baxılması imkanlarından istifadə edilməsi tövsiyə olunmuşdur.

Qərarla, həmçinin Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin tələbləri nəzərə alınaraq mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması imkanlarından istifadə edilməsi məsləhət görülmüşdür. Bu günlərdə Ədliyyə Nazirliyinin təşkil etdiyi "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda onlayn mətbuat konfransında da qeyd olunduğu kimi, xüsusi karantin rejimi ilə əlaqədar "Elektron məhkəmə" informasiya sistemində yaradılmış xüsusi proqram vasitəsilə məhkəmə proseslərinin onlayn rejimdə, videokonfrans formatında həyata keçirilməsi, həmçinin iclasın avtomatlaşdırılmış rejimdə audio-video yazılışının aparılmasına başlanılmışdır. Vətəndaşların təhlükəsizliyinin qorunması və onların hüquqlarının məhkəmə müdafiəsinin təmin olunması məqsədilə ilk dəfə olaraq məhkəmə prosesləri videokonfrans şəklində, onlayn qaydada keçirilmiş və yekun qərarlar çıxarılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 23 aprel 2020-ci il tarixli Qərarında məhkəməyədək icraat zamanı barələrində həbs qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxslər haqqında cinayət işlərinin məhkəmələrin icraatına qəbul edilməsi; hakimlərin və məhkəmə aparatı işçilərinin iş rejimi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrindən irəli gələn digər zəruri məsələlərin həlli tövsiyə edilmişdir. Eyni zamanda qərara görə bütün məhkəmələrdə vətəndaşların qəbulunun dayandırılması, qəbulun yalnız telefon, mobil və internet rabitəsi vasitəsi ilə həyata keçirilməsi təmin olunmalıdır. Fiziki və hüquqi şəxslərə məhkəmələrə ünvanlanmış ərizələrini, o cümlədən apelyasiya və kassasiya şikayətlərini poçt vasitəsilə və ya elektron şəkildə göndərmələri tövsiyə edilmişdir.

Ümumbəşəri dəyərlərə, hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu prinsiplərinə həssas münasibətin əyani təcəssümü olaraq Azərbaycanda məhkumların əfv edilməsi də təqdirəlayiq ənənəyə çevrilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 06 aprel 2020-ci il tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı isə pandemiya dövründə yaşı 65-i ötmüş vətəndaşlara humanist və insanpərvər münasibətin əyani təzahürü olmuşdur. Koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin müraciətləri, eləcə də məhkumların sağlamlıq vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq, belə bir vacib humanist sərəncam imzalanmış və 176 nəfər məhkum cəzalarının çəkilməmiş hissəsindən azad olunmuşdur.

Humanist siyasətin tərkib hissəsi olaraq məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi tədbirləri də davam etdirilmişdir. Ədliyyə Nazirliyinin müvafiq komissiyasının rəyi nəzərə alınaraq məhkəmələrə təqdim olunmuş materiallara təxirəsalınmadan baxılması təmin edilmişdir. Məhkumların hüquqlarının qorunması məqsədilə növbətçi hakimlər tərəfindən həmin işlərə təxirəsalınmadan baxılaraq, ümumilikdə 400-dən çox məhkum azadlığa buraxılmışdır.

Ümumilikdə ölkə miqyasında həyata keçirilən kompleks tədbirlər müsbət nəticələrini göstərməklə, Azərbaycanın pandemiyadan maksimum az itki ilə çıxmasını, ölkə vətəndaşlarının qlobal riskdən əsaslı dərəcədə sığortalanmasını təmin etmişdir. Bunun nəticəsi olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarı ilə 2020-ci ilin aprelin 27-dən xüsusi karantin rejiminin yumşaldılması təmin edilmişdir. Eyni zamanda Operativ Qərargahın 1 may 2020-ci il tarixli qərarı ilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər rayon və şəhərlərində, habelə Naxçıvan Muxtar Respublikasında 4 may 2020-ci il saat 00:00-dan etibarən karantin rejimi demək olar ki, götürülmüşdür. Bu tarixdən yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sisteminin ləğvi; dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti; restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlərin bərpası, bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyətin götürülməsi; rayonlar və şəhərlərarası gediş-gəlişin bərpası təmin edilmişdir. Karantin rejiminin mayın 31-dək davam edəcəyi Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda isə əksər (müəyyən edilmiş sayda) dövlət qurumlarının və fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrik, uzaqgörən, xalqın sağlamlığını və rifahını önə çəkən addımları ictimaiyyətin böyük razılığı ilə qarşılanır. Mütləq əksəriyyət əmindir ki, həyata keçirilən kompleks tədbirlər qısa zamanda vəziyyətə nəzarətin tam təmin olunmasına və koronavirus pandemiyasının qarşısının alınmasına imkan yaradacaqdır.

***Ələddin CƏFƏROV,***
***Nizami Rayon Məhkəməsinin sədri,***
***Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri***

# Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin (siyahı əlavə olunur) tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.17.1-ci yarımbəndində göstərilmiş 20,0 (iyirmi) milyon manat Bakı Şəhər İcra Hakimiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 may tarixli Sərəncamına Əlavə

### Bakı şəhərində və onun qəsəbələrində tikintisi, əsaslı təmiri və bərpası nəzərdə tutulan məktəblərin siyahısı

| Sıra №-si | Tədbirin adı | Ayrılan vəsait | İstifadəyə verilən güc |
|---|---|---|---|
| 1. | Nizami rayonundakı 251 nömrəli tam orta məktəb üçün 840 şagird yerlik əlavə korpusun tikintisi | 1 910 000 | Obyekt |
| 2. | Binəqədi rayonunun Binəqədi qəsəbəsindəki 205 nömrəli orta məktəbin sökülməsi və 960 şagird yerlik məktəbin tikintisi | 1 710 000 | Obyekt |
| 3. | Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 154 nömrəli orta məktəbin sökülməsi və 960 şagird yerlik məktəbin tikintisi | 3 680 000 | Obyekt |
| 4. | Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 97 nömrəli orta məktəbin əsaslı təmiri (layihə-smeta sənədlərinin hazırlanması ilə), köhnə binasının, habelə emalatxanasının sökülməsi və 264 şagird yerlik korpusun (yeməkxana, idman və akt zalı ilə) tikintisi | 2 500 000 | Obyekt |
| 5. | Sabunçu rayonunun Ramana qəsəbəsindəki 90 nömrəli məktəbin əsas korpusunun və idman zalının əsaslı təmiri (layihə-smeta sənədlərinin hazırlanması ilə), iki korpusun sökülməsi və 960 şagird yerlik korpusların tikintisi | 2 310 000 | Obyekt |
| 6. | Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 87 nömrəli orta məktəbin köhnə korpusunun sökülməsi və 1752 şagird yerlik korpusların tikintisi | 2 500 000 | |
| 7. | Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 71 nömrəli tam orta məktəb üçün əlavə 30 sinif otağının tikintisi | 1 350 000 | |
| 8. | Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 307 nömrəli orta məktəb üçün əlavə 15 sinif otağının tikintisi | 746 600 | |
| 9. | Xətai rayonundakı 263 nömrəli orta məktəbin üçmərtəbəli korpusunun bərpası, ikimərtəbəli korpusunun, habelə birmərtəbəli keçidlərin sökülməsi və yeni korpusların (idman və akt zalı ilə) tikintisi | 1 500 000 | |
| 10. | Nəsimi rayonundakı 35 nömrəli orta məktəbin köhnə korpusunun sökülməsi və yeni korpusun tikintisi | 1 320 000 | |
| 11. | Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki 300 nömrəli orta məktəb üçün 960 şagird yerlik korpusların (idman və akt zalı ilə) tikintisi (keyfiyyət zəmanəti) | 333 000 | |
| 12. | Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki 208 nömrəli orta məktəb binasının sökülməsi və 360 şagird yerlik məktəb binasının tikintisi (keyfiyyət zəmanəti) | 98 800 | |
| 13. | Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsindəki 101 nömrəli orta məktəbin əsas və köməkçi binalarının sökülməsi və 360 şagird yerlik əlavə korpusun (yeməkxana və akt zalı ilə) tikintisi (keyfiyyət zəmanəti) | 41 600 | |
| | **Cəmi:** | **20 000 000** | |

# Azərbaycan təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradır

## Parlamentin iclasında Qoşulmama Hərəkatının "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşü ölkəmizin növbəti beynəlxalq uğuru kimi dəyərləndirildi






Foto Şamil Talıbovundur

*Əvvəli 1-ci səh.*

Bu dövrdə 12 yeni məhkəmə yaradılıb, kommersiya məhkəmələri fəaliyyətə başlayıb, hakimlərin sayı 200 vahid artırılıb. Hakimlərin seçilməsi prosesi davamlı xarakter alıb, fasiləsiz seçim prosedurları yaradılıb.

Diqqətə çatdırıldı ki, hazırda Ali Məhkəmədə 41 hakim ştatı mövcuddur. Lakin 9 hakim ştatının yaradılmasına ehtiyac yaranıb. Buna görə də Ali Məhkəməyə apelyasiya məhkəmələrindən hakimlərin təyin olunması təklif olunur. Eyni zamanda Ali Məhkəmədən 4 hakimin Bakı Apelyasiya Məhkəməsinə, bir hakimin isə birinci instansiya məhkəməsinə keçirilməsi təklif edilir. Təkliflərdə birinci instansiya məhkəmələrindən bir neçə hakimin Bakı Apelyasiya Məhkəməsinə irəli çəkilməsi də əksini tapıb. Əli Hüseynli onu da diqqətə çatdırdı ki, bu ilin yanvarından inzibati və kommersiya məhkəmələri yaradılıb. Təqdimata əsasən apelyasiya məhkəmələrindən 3 hakimin kommersiya məhkəmələrinə irəli çəkilməsi təklif edilir.

Məsələ ilə bağlı Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlardan Aydın Mirzəzadə, Vahid Əhmədov münasibət bildirdilər. Qeyd olundu ki, bu təyinatlar məhkəmə-hüquq islahatları çərçivəsində atılan növbəti uğurlu addımdır. Çıxış edənlər yeni təyinatların məhkəmələrin fəaliyyətinin yüksəldilməsində mühüm rol oynayacağını qeyd etdilər.

Müzakirələrin yekununda hər üç məsələ təsdiq olundu.

### Ölkəmizin və onun liderinin yüksək nüfuzunun göstəricisi

"Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşü bu qlobal pandemiyaya qarşı mübarizədə həmrəylik baxımından çox vacibdir. Qırxdan çox üzv ölkənin dövlət və hökumət başçılarının, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin Azərbaycan Prezidentinin təşəbbüsünə dəstək verməsi və Zirvə görüşünə qatılması bir daha ölkəmizin və onun liderinin nüfuzunun çox yüksək olmasının göstəricisidir".

Bu fikirləri parlamentin Sədri Sahibə Qafarova bildirdi. Azərbaycanın koronavirusa qarşı mübarizədə fəal rol oynadığını, həmçinin qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlığın böyük önəm daşıdığını qeyd edən Milli Məclisin Sədri vurğuladı ki, bu bəlanın yayılmasının qarşısının alınması və onun fəsadlarının aradan qaldırılması Qoşulmama Hərəkatına üzv olan dövlətlərin də qarşısında duran ən mühüm vəzifələrdən biridir: "Ona görə də möhtərəm Prezidentimizin təşəbbüsü ilə belə bir Zirvə görüşünün keçirilməsi və görüşün sonunda Bəyannamənin qəbul olunması bütün dövlətlərin səylərinin birləşdirilməsinə daha bir çağırışdır. Azərbaycan öz təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradır".

Sahibə Qafarova qeyd etdi ki, Azərbaycan BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına çox uğurla sədrlik edir. Ölkəmiz sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzunun, beynəlxalq aləmdə oynadığı rolun artırılması istiqamətində çox mühüm təşəbbüslər irəli sürür. "Hesab edirəm ki, Təmas Qrupu formatında Zirvə görüşü də bu mənada çox əhəmiyyətlidir", - deyə Milli Məclisin Sədri bildirdi.

Deputatlardan Fazil Mustafa, Musa Qasımlı, Razi Nurullayev, Sahib Alıyev, Əli Məsimli, komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, Zahid Oruc gündəlik və cari məsələlərlə bağlı fikirlərini bildirdilər.

İclasda "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyanın təsdiq edilməsi haqqında, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisindən tranzit qaydası haqqında 1999-cu il 4 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında, "Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında 1999-cu il 8 oktyabr tarixli Sazişdə dəyişikliklərin edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında, "1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair" Protokolunun təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında diplomatik nümayəndəlik, konsulluq və daimi nümayəndəlik əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" qanun layihələri də təsdiq olundu.

Deputatlar "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə də (üçüncü oxunuş) müsbət münasibət bildirdilər.

İclasda son olaraq "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda müzakirə edildi. Layihələrlə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdilər. Müzakirələr zamanı təklif olunan dəyişikliklər koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin mühüm tərkib hissəsi kimi dəyərləndirildi.

Hər iki qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Kəmalə Nəbi qızı Abiyeva
Zaur Əli oğlu Əliyev
Vüqar Təvəkgül oğlu Həsənov
Abiddin Qabil oğlu Hüseynov
İsmayıl Kamil oğlu Xəlilov
Elşad Yaquboviç Şamayev
İspəndiyar Əsəd oğlu Şəfiyev
Aqil Əzizağa oğlu Abbasov
Ələsgər Əli İskəndər oğlu Novruzov

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 93-4-cü maddəsinə uyğun olaraq aşağıdakı şəxslər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Çingiz İsgəndər oğlu Əsgərov
Bəhman Fərhad oğlu Qəribov
Bəhram Məmməd oğlu Məmmədli

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## Bakı Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Vəfaddin Ələm oğlu İbayev
Akif Əsgər oğlu İsgəndərov
Əli Səlim oğlu Seyfəliyev
Qürbət Ağa oğlu Əsgərov
Ramin Afad oğlu Qurbanov
Ziya Allahverdi oğlu Şirinov
Anar Vəzir oğlu Tanrıverdiyev
Emin Əlixan oğlu Mehdiyev
Rəşad Məhəmməd oğlu Həsənov

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## Bir sıra məhkəmələrin hakimlərinin vəzifədən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar tutduqları vəzifədən azad edilsinlər:

Aslan Kalbalı oğlu Kalbalıyev - Ali Məhkəmənin hakimi
İlham Bayram oğlu Əhmədov - Bakı Apelyasiya Məhkəməsinin hakimi
Fehruz Novruz oğlu Abbasov - Şirvan Apelyasiya Məhkəməsinin hakimi
Mübariz Rahil oğlu Hüseynov - Şəki Apelyasiya Məhkəməsinin hakimi

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## Özbəkistanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın Xarici İşlər nazirinə təqdim edib

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov mayın 5-də Özbəkistan Respublikasının ölkəmizə yeni təyin olunan səfiri Bahrom Aşrafxanov ilə görüşüb. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfir Bahrom Aşrafxanov etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.

Elmar Məmmədyarov Bahrom Aşrafxanovu səfir təyin olunması münasibətilə təbrik edib və qardaş Özbəkistan səfirinə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər Azərbaycan və Özbəkistan arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə ediblər. Ticarət və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Mövcud pandemiya ilə mübarizə kontekstində ölkələr arasında qarşılıqlı dəstək və əməkdaşlığın zəruriliyini vurğulayan tərəflər ümumdünya sağlamlıq böhranından sonrakı dövrdə ikitərəfli əməkdaşlığın gündəliyində duran tədbirlərin həyata keçirilməsi üzrə fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə etdilər.

## Azərbaycan Turizm Bürosu onlayn təlim portalı və koronavirusla bağlı xüsusi bölmə təsis edib

Azərbaycan Turizm Bürosu tərəfindən onlayn təlim platforması istifadəyə verilib. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, "Azerbaijan 101: e-learning project powered by ATB" adlı platformanın yaradılmasında məqsəd beynəlxalq turizm sənayesinin nümayəndələrinə Azərbaycanın təqdim etdiyi turizm imkanları barədə təlimlər keçməkdir.

Belə ki, Azərbaycan da daxil olmaqla dünyanın istənilən ölkəsindən olan iştirakçılar "elearning.tourismboard.az" portalında qeydiyyatdan keçərək ödənişsiz təlimlərə qoşulmaq imkanına sahibdirlər.

Təlimlər 5 moduldan ibarət olmaqla Azərbaycan haqqında ümumi məlumat, müalicəvi turizm məhsulları, qastronomiya, şərab turları, ölkənin zəngin mədəni irsi kimi mövzuları əhatə edir.

Eyni zamanda, yerli istifadəçilər üçün "Yenilənmiş azerbaijan.travel veb-saytının funksiyaları" və "Viator platformasından istifadə" adlı 2 modul da mövcuddur.

Artıq bir neçə gündür ki, fəaliyyət göstərən təlim portalında indiyədək 235 nəfər qeydiyyatdan keçib və onlar test mərhələsindən uğurla keçərək 427 sertifikat əldə ediblər.

Sertifikatlaşmanı uğurla adlayaraq "Azərbaycan turizmi üzrə ekspert" statusunu qazanmış iştirakçılar əsasən ABŞ, Böyük Britaniya, Almaniya, Yunanıstan, İsrail, Yaxın Şərq və Pakistan və s. vətəndaşlarıdır.

Bundan əlavə, Azərbaycan Turizm Bürosunun Azərbaycan və rus dillərində fəaliyyət göstərən, yenilənmiş rəsmi veb-saytında "COVID-19 (Coronavirus) update" (https://new.tourismboard.az/-page/314-COVID-19) adlı mütəmadi olaraq yenilənən bölmə yaradılıb.

Bölmədə yeni növ pandemiya ilə əlaqədar ölkələr üzrə Azərbaycana səyahətlə bağlı məhdudiyyət tarixləri və ziyarətçilər üçün ümumi tövsiyələr yerləşdirilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahın rəsmi məlumatlarına istinad edilən və vahid informasiya bazası rolunu oynayan bölmədə əcnəbi ziyarətçilərin Azərbaycanda səfərdə olarkən riayət etməli olduqları gigiyena qaydaları, həmçinin onlar tərəfindən maraq doğuran suallara cavablar əksini tapıb.

Veb-saytda, həmçinin beynəlxalq bazarlardakı cari vəziyyət haqda məlumatların təqdimatı məqsədilə də "Markets" (https://new.tourismboard.az/markets) adlı xüsusi bölmə təsis edilib.

Bölmədə cədvəl formatında Azərbaycanın hədəf bazarlarında COVID-19 virusu ilə mübarizə tədbirləri barədə məlumatlar yerləşdirilib.

Cədvəldəki müvafiq məlumatlara əsaslanaraq bu bazarlarda kommunikasiya və marketinq fəaliyyətinə nə zaman başlanılması üçün mühüm məlumatlar əldə etmək olar.

## Gürcüstanın Dmanisi rayonunda yaşayan soydaşlarımıza ərzaq yardımı edilib

Azərbaycanın Gürcüstandakı səfirliyi və bu ölkədəki Azərbaycanlı İş Adamları Birliyi Prezident İlham Əliyevin çağırışına qoşularaq bu ölkədəki soydaşlarımıza yardım kampaniyasını davam etdirir. AZƏRTAC xəbər verir ki, növbəti yardım paketləri mayın 5-də xüsusi karantin rejimi tətbiq olunan Kvemo Kartli - Borçalı bölgəsinin Dmanisi rayonunda bölgə və rayon rəhbərliyinə təqdim olunub.

Səfir Dursun Həsənov deyib ki, Azərbaycan ən ağır günlərdə Gürcüstanın yanında olub. Heç bir zaman Gürcüstana dost və qardaş yardımını əsirgəməyib. Bu siyasət bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bildirilib ki, yardımlar xüsusi qayğıya ehtiyacı olan 100 ailə üçün nəzərdə tutulub.

Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili göstərilən yardıma, diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıq edib. Qubernator deyib ki, gürcü xalqı Azərbaycan dövlətinin bu diqqətini yüksək qiymətləndirir.

Dmanisi bələdiyyəsinin rəhbəri Qeorqi Tatuaşvili də göstərilən diqqət və qayğıya, edilən yardıma görə Azərbaycan Prezidentinə, eləcə də səfirliyə və Azərbaycanlı İş Adamları Birliyinin üzvlərinə minnətdarlıq edib.




# Həmrəylik, qarşılıqlı dəstək, birgə mübarizə

## İlham Əliyev Qoşulmama Hərəkatının üzv dövlətlərinə qlobal böhrandan çıxış yolunu göstərdi

*Əvvəli 1-ci səh.*

Koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşü Qoşulmama Hərəkatının gündəliyinə tarixi hadisə kimi yazıldı. Bu tarixi yazan isə qısa zaman kəsiyində dünyanın etibarlı tərəfdaşına çevrilən, cəmi 9 il əvvəl bu qlobal hərəkatın üzvlüyünə qəbul edilən Azərbaycan və onun lideri cənab İlham Əliyevdir.

### İlham Əliyevin qlobal təşəbbüsünə birmənalı dəstək

Məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan bu konfrans təşkilatda 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq, coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında keçirildi.

Cənab İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi təşkilatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. Təqdirəlayiq haldır ki, Qoşulmama Hərəkatının bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəklədilər və Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olundular. Onu da nəzərə alaq ki, 120 daimi üzvü olan hərəkat müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm platformadır.

Aprelin 10-da cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının növbəti Zirvə görüşü də eyni formatda reallaşmışdı. Azərbaycan Prezidenti türkdilli dövlətlərə də hər zaman ölkəmizin pandemiya ilə mübarizədəki üstün təcrübəsini bölüşməyə hazır olduğunu bəyan etmişdi.

Göründüyü kimi, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük nailiyyətlərə imza atmaqdadır. Azərbaycan dünyanın yeni reallıqlarına çevik və adekvat reaksiya verir. Yəni dünyanın bir parçası olan ölkəmiz bəşəriyyəti böyük sınaq qarşısında qoyan qlobal pandemiyaya qarşı nəinki milli səviyyədə səmərəli tədbirlər görür, eyni zamanda regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir.

Qətiyyətli qərarları, düşünülmüş və uzaqgörən siyasəti ilə hər zaman örnək göstərilən cənab İlham Əliyevin qlobal təşəbbüsü ilə son iki ayda reallaşan iki mühüm beynəlxalq konfransda yekdil fikir böhrandan qurtuluşda səylərin birləşdirilməsi, üstün təcrübələrin paylaşılması oldu. Hər iki təşkilatın üzvləri Azərbaycan Prezidentinin təşəbbüs və təklifini birmənalı dəstəklədilər.

### Pandemiya dövründə maneəsiz və etibarlı tranzit daşımaları

Bu Zirvə görüşündə də cənab İlham Əliyev Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik və zəruri qabaqlayıcı tədbirlər barədə məlumat verərək, pandemiya dövründə insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsinin prioritet məsələlər olduğunu bildirdi.

Dövlət başçısı pandemiya şəraitində Azərbaycanda iqtisadi sabitliyin təmini, məşğulluqla bağlı problemlərin həlli istiqamətində görülən işlərdən də danışaraq, bu məqsədlə müstəqillik tariximizin ən böyük (3,5 milyard manat) maliyyə tutumlu sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu diqqətə çatdırdı.

Cənab İlham Əliyev Azərbaycanın koronavirus xəstələrinin müalicəsi sahəsindəki təcrübəsini də Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə, bu sahədə əməkdaşlığa hazır olduğunu bir daha bəyan edərək ölkəmizin pandemiya dövründəki iqtisadi və nəqliyyat-tranzit imkanlarından da söz açdı. Prezident Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilən Azərbaycanın pandemiya dövründə də etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin etdiyini bildirdi.

Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatının üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait Azərbaycanla razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

### 18 bənddən ibarət Bəyannamə, yaradılacaq İşçi Qrupunun fəaliyyəti

Zirvə görüşündə çıxış edən BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande qeyd etdi ki, COVID-19 bütün dünyada milyardlarla insanı təhlükə ilə üz-üzə qoyub. Bu gün Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, həmin insanlar 3,4 trilyon dollar məbləğində gəlirlərini itiriblər. Qlobal səhiyyə sisteminin bu gün çox ağır təzyiq altında olduğunu deyən diplomat vurğuladı ki, BMT pandemiya ilə mübarizədə səslənən bütün təklifləri dəstəkləyir.

BMT-nin Baş katibi Antonio Quterreş isə videomüraciətində pandemiyanın ağır fəsadlarına toxunaraq qeyd etdi ki, koronavirus cəmiyyətlərin sarsıntı qarşısında kövrəkliyini açıq nümayiş etdirdi və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasını təhdid edərək, dərin qeyri-bərabərliyi bütün çılpaqlığı ilə üzə çıxarıb.

Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi dəstəyi yüksək dəyərləndirən qurumun Baş direktoru cənab Tedros Adhanom Gebreyesus isə bildirdi ki, Qoşulmama Hərəkatına və onun üzv dövlətlərinə COVID-19 xəstəliyinə qarşı apardıqları mübarizədə onlara dəstək verir. Baş direktor hesab edir ki, "taclı bəla"ya qarşı yalnız birgə mübarizə yeganə çıxış yoludur: "Bütün siyasi sərhədləri aşaraq heç zaman görünmədiyi qədər bu mühüm işləri aparmalıyıq. Çünki virus özlüyündə iki əsas meyarın bir kombinasiyasıdır. O, sürətlə yayılır və o qatildir. Buna görə də bizə qlobal həmrəylik və birlik lazımdır. Bu baxımdan biz virusu önləməliyik, ondan öndə getməliyik. Bütün cəmiyyətlərin bu baxımdan ehtiyaclarından irəli gələrək deyə bilərik ki, biz həlledici böhran mərhələsindəyik".

Zirvə görüşündə 18 bənddən ibarət Bəyannamə qəbul edildi. Sənəddə hərəkat üzvlərinin müxtəlif sahələr üzrə bir-birinə dəstəyi də öz əksini tapdı. Bəlli oldu ki, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcək. Sonra isə həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə və beynəlxalq humanitar təşkilatlara təqdim olunacaq.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan Prezidentinin növbəti qlobal təşəbbüsü pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlər arasındakı əməkdaşlığı daha da dərinləşdirəcək.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən onlayn Zirvə görüşü xarici mətbuatın diqqətindədir


LAVANGUARDIA
Aliev llama a un mayor apoyo a la OMS en tiempos de coronavirus

İspaniyanın ən qocaman nəşri olan "La Vanguardia" qəzetində "İlham Əliyev koronavirus dövründə ÜST-ə dəstəyi gücləndirməyə çağırır" sərlövhəli məqalə dərc edilib.

Məqalədə qeyd edilir ki, Qoşulmama Hərəkatının virtual sammitində sədrlik edən Azərbaycan Prezidenti İlham Əliyev, COVID-19 ilə mübarizədə xalqlar arasında həmrəyliyi daha da gücləndirməyə və qlobal fövqəladə vəziyyətdə Ümumdünya Səhiyyə Təşkilatını daha artıq dəstəkləməyə çağırıb.

Məqalədə Prezident İlham Əliyevin bu sözləri sitat gətirilib: "COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik. Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq".

Azərbaycan Prezidenti pandemiyaya qarşı qlobal mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının fundamental rolunu yüksək qiymətləndirib.

Diqqətə çatdırılır ki, Azərbaycan Afrika, Asiya və Latın Amerikası ölkələrində koronavirusa qarşı mübarizə üçün ÜST-ə 5 milyon dollar məbləğində əlavə ianə ayırmasını elan edib.

İspan qəzeti yazır ki, İlham Əliyev öz çıxışında beynəlxalq ictimaiyyəti və 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının üzvlərini COVID-19-a qarşı mübarizədə həmrəyliyə çağırıb.

* * *

Dünyanın aparıcı KİV-i Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə keçirilmiş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü barədə materiallara geniş yer ayırır.

Çinin Sinxua agentliyi Prezident İlham Əliyevin nitqindən sitatlar gətirir, Azərbaycanda pandemiya ilə mübarizə istiqamətində görülən işlər, vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər barədə məlumat verir. Bu sahədə təcrübəsini bölüşməyə hazır olan Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar maliyyə yardımı ayırdığı diqqətə çatdırılır.

Zirvə görüşünü geniş işıqlandıran Malayziyanın BERNAMA agentliyi Prezident İlham Əliyevin açılış nitqində səsləndirdiyi fikir və təklifləri beynəlxalq əməkdaşlığa növbəti çağırış kimi səciyyələndirib. Prezidentin nitqinə istinadla məlumat verilib ki, pandemiya dövründə insanların sağlamlığı və əhalinin sosial müdafiəsi Azərbaycan dövləti üçün prioritet məsələlərdir.

ABŞ-da dərc olunan ispandilli "Eurasia Hoy" qəzeti Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı "Azərbaycan COVID-19-la mübarizədə qlobal miqyasda həmrəylik və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir" sərlövhəli məqalə dərc edib. Məqalədə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər nəticəsində koronavirusa kütləvi yoluxma hallarının qarşısının alındığı, son vaxtlar xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamikanın yarandığı vurğulanır. Qəzet epidemiya şəraitində iqtisadi sabitliyin təmin edilməsi, əhalinin həssas qruplarına yardımlar verilməsi, məşğulluqla bağlı problemlərin həll olunması məqsədilə böyük sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu bildirib.

BMT-nin saytında Zirvə görüşü barədə dərc olunmuş material belə adlanır: "Qoşulmama Hərəkatının üzv ölkələri pandemiya ilə mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının səylərinə tam dəstək nümayiş etdirdilər". Zirvə görüşünün əhəmiyyətinin vurğulandığı materialda BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciətində səsləndirdiyi aşağıdakı fikirlər yer alır: "Bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirləri tələb edir. Burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir. Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin üçdəikisini əhatə edən Qoşulmama Hərəkatı qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır".

İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) portalında da Zirvə görüşü haqqında ətraflı məlumat dərc olunub. Sammitdə Azərbaycan Prezidentinin qlobal həmrəyliyin nümunəsi kimi BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə bağlı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi barədə təkliflə çıxış etdiyi diqqətə çatdırılıb.

BTA (Bolqarıstan), Anadolu (Türkiyə), TASS (Rusiya), EFE (İspaniya), WAM (Birləşmiş Ərəb Əmirlikləri), İRNA (İran) agentlikləri, "Eurasiaticanews.altervista" (İtaliya), EU Politics (Avropa İttifaqı) portalları, "Nayrouz" (İordaniya), "Aldiplomacy" (Misir) qəzetləri də Qoşulmama Hərəkatının Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşü barədə geniş xəbərlər yayıb.

KİV qeyd edir ki, Azərbaycan liderinin beynəlxalq əməkdaşlığa çağırışları üzv ölkələr, həmçinin BMT, Ümumdünya Səhiyyə Təşkilatı və digər təşkilatlar tərəfindən dəstəklənib və təqdir olunub. Pandemiya ilə mübarizədə qlobal həmrəyliyin və əməkdaşlığın əhəmiyyəti vurğulanıb, səyləri bütün cəmiyyət səviyyəsində müxtəlif sahələri əhatə edən, çoxtərəfli fəaliyyətə əsaslanan uzunmüddətli hazırlığa yönəltməyin vacibliyi bildirilib. Pandemiyaya qarşı mübarizədə Qoşulmama Hərəkatının oynadığı rolun danılmaz və əhəmiyyətli olduğu qeyd edilib. Vurğulanıb ki, bu virusa qarşı dünya miqyasında aparılan mübarizə siyasi sərhədlərin, hər hansı bir ideologiyanın, məfkurənin kənara qoyulmasını, birgə işləməyi tələb edir. COVID-19 dünyanın müxtəlif guşələrinin biri-birinə nə dərəcədə bağlı olduğunu göstərdi. Qoşulmama Hərəkatının Zirvə görüşü bu qlobal çağırışa zamanında verilmiş cavabdır.

Materiallarda qeyd olunub ki, Azərbaycanın bu təşəbbüsü qlobal miqyasda koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfədir.

* * *


XINHUANET
Non-Aligned Movement unites to foster global COVID-19 response

Çinin rəsmi xəbər agentliyi Sinxua Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü haqqında xəbər yayıb.

Materialda Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin açılış nitqinə geniş yer verilib, dövlət başçısının Azərbaycanın pandemiya ilə mübarizədə gördüyü işlər barədə fikirləri, o cümlədən ölkəmizdə koronavirusun yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, bütün kütləvi tədbirlərin təxirə salınması, təhsil müəssisələrində tədris prosesinin dayandırılması, xüsusi karantin rejiminin tətbiq edilməsi barədə fikirləri əks olunub.

Prezident İlham Əliyevin Azərbaycanın bu istiqamətdə təcrübəsini Qoşulmama Hərəkatının üzv dövlətləri ilə bölüşməyə hazır olması fikrinə toxunan Sinxua yazır ki, Azərbaycan ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırıb.

Qeyd olunub ki, videokonfransda BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus, Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat çıxış edib, BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciəti dinlənilib.

Bildirilib ki, Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə keçirilmiş Zirvə görüşünün yekununda Bəyannamə qəbul edilib.

# İndi yaşamaq və yaşatmaq bizdən asılıdır




Dünyada koronavirus adlı bir kabus dolaşır. Bu xəstəlik vahiməli olduğu qədər də sirlidir. Hazırda onun vahid müalicə forması yoxdur. İndiki halda bir neçə müalicə üsulundan istifadə olunur ki, o da bir xəstəyə müsbət təsir göstərdiyi halda digərinə kömək etmir. Bir sözlə, bütün dünyada həkimlər bu xəstəliyin qarşısını almağa çalışsalar da, istəklərinə tam nail ola bilmirlər.

Hazırda koronavirusun müalicəsi üçün dərman və ya peyvəndin hazırlanması ilə məşğul olan alimlərin rəyinə görə, onlara ən azı bir-iki il vaxt gərəkdir. Çünki indiyədək heç yerdə belə bir virus müşahidə edilməyib. Xəstəliyin başlanğıcının bəzən gizli keçməsi, ətrafdakıların tez yoluxması, hər xəstə üçün bir cür müalicə üsulundan istifadə edilməsi işləri daha da çətinləşdirir.

Dünyanı bürüyən koronavirus təəssüf ki, ölkəmizə də gəlib çatdı. Mayın 1-dək ölkə üzrə bu xəstəlikdən 25 nəfər vəfat edib. Bu, dünyada əhali sayına görə ölüm hallarının ən aşağı səviyyədə olması deməkdir. Məsələn, 11 milyon əhalisi olan Belçikada ölənlərin sayı 6 minə yaxınlaşıb. Hazırda hər gün ölənlərin sayı da bizdə olduğundan qat-qat çoxdur. Azərbaycanda vəfat edənlərin və yoluxanların sayının az olması Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə bu bəlaya qarşı vaxtında lazımi tədbirlərin görülməsidir.

Koronavirusun yarada biləcəyi fəsadların qarşısını almaq üçün Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb və fəaliyyət göstərir. Qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə bu sahə üzrə ekspertlərdən ibarət qrup formalaşdırıldı. Virusun geniş yayılmamasından ötrü məktəblərin, uşaq bağçalarının, ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırıldı. Həmçinin park və istirahət yerlərinə giriş qadağan edildi. Pandemiya ilə mübarizəni sərtləşdirmək üçün martın 24-də xüsusi karantin rejimi, aprelin 5-dən isə ölkədə hərəkət məhdudiyyəti tətbiq olundu.

Koronavirusla mübarizədə qoruyucu maskalar önəmli rol oynayır. Dövlət başçısı bu sahədə idxaldan asılılığı aradan qaldırmaq üçün Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsal edən müəssisənin yaradılması haqqında göstəriş verdi. Qısa bir zamanda xaricdən avadanlıq və xammal gətirilərək istehsala başlandı. Beləliklə, bir neçə günə ölkədə maska problemi həll olundu. Dünyadakı vəziyyətə nəzər yetirdikdə görürük ki, pandemiyanın hər gün yüzlərlə can aldığı inkişaf etmiş ölkələr bu gün də maska qıtlığından əziyyət çəkirlər və onu xaricdən idxal edirlər.

Prezident İlham Əliyevin göstərişi ilə ölkənin bütün maddi resursları əhalinin sağlamlığının qorunmasına səfərbər edilib. Buraya 575 çarpayılıq "Yeni klinika"nın vaxtından əvvəl istifadəyə verilməsi, xaricdən müasir laboratoriyaların alınıb gətirilməsi, mövcud xəstəxanaların lazımi tibbi avadanlıqlarla təchizi də daxildir. Eyni zamanda infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili üçün modul tipli xəstəxanaların quraşdırılması məqsədilə dövlət tərəfindən böyük vəsait ayrılıb. Prezident İlham Əliyev tibbi maska istehsalı müəssisəsinin açılışında bir daha bəyan etdi ki, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı onun üçün hər şeydən üstündür. Dövlət başçısı yeni açılan müəssisənin əhəmiyyətini vurğulayaraq demişdir: "Bildiyiniz kimi, koronavirusla mübarizədə maskalardan istifadə xüsusi əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, indi dünyanın bir çox ölkələrində bu sahədə problemlər yaşanır. Azərbaycanda da qıtlıq yaranmışdır və bəzi hallarda apteklərdə tibbi maskalar yoxdur. Ona görə bu istehsal bizə imkan verəcək ki, özümüzü təmin edək və koronavirusla mübarizə başa çatandan sonra da Azərbaycan artıq idxaldan asılı olmayacaq".

Ölkədə görülən qabaqlayıcı tədbirlər sayəsində biz bu bəlanı az itki ilə adlamağa nail oluruq. Ancaq hələ də bu xəstəliyə yoluxanlar var. Aprelin 27-dən sərt karantin tədbirlərinin yumşaldılması insanlarda əbəs yerə arxayınlıq yaradıb. Bəziləri ehtiyat tədbirlərinə məhəl qoymadan əhalinin sıx olduğu yerlərdə tibbi maskalardan istifadə etmir. Ən qəribəsi isə odur ki, hər gün televiziya ilə dünyada baş verən insan tələfatını seyr edənlər belə sübut etməyə çalışır ki, ümumiyyətlə, koronavirus adında bir bəla mövcud deyil. Bu fikirdə olanlar bilməlidirlər ki, koronavirus hələ də dünyada tüğyan edir. Bu bəla hər gün minlərlə can alır, yoluxanların sayı isə milyonlarladır. Təkcə ABŞ-da pandemiya nəticəsində 70 mindən çox adam ölüb. Bu, illərlə davam edən Vyetnam müharibəsində olduğundan çoxdur. Pandemiyanın tüğyan etdiyi ölkələrin vətəndaşları da vaxtında dövlətin xəbərdarlıqlarına məhəl qoymadılar. Bir də onda ayıldılar ki, artıq doğmalarını itirirlər. Virusun sürətlə yayılmasından sonra görülən tədbirlər gecikmiş oldu. Bir çox ölkələrdə isə karantin rejiminin yumşaldılmasından istifadə edən insanların ehtiyatsız davranışları pandemiyanın ikinci dalğasının başlanmasına gətirib çıxardı.

İndiyədək bu virusla mübarizə aparan həkimlərin gəldiyi yekdil fikir belədir ki, pandemiya ilə mübarizənin ən səmərəli yolu gigiyenik və özünütəcrid qaydalarına ciddi əməl etməkdir. Bu, həm də ötən beş ay ərzində aparılan elmi araşdırmaların nəticəsidir.

Biz ABŞ-ın acı təcrübəsindən nəticə çıxarmalıyıq. Bu ölkədə ölənlərin sayının sürətlə artması cəsədləri vaxtında dəfn etməyə belə imkan vermir. İnsanlar soyuducu kamerası olmayan maşınlarda çürüyən meyitlərin üfunətindən vahiməyə düşüblər. Bu və digər arzuolunmayan hallar Avropa ölkələrində də müşahidə edilir. Məsələn, bir sıra Avropa ölkələrində qocalar evində yaşayan ahıllar ya müalicə olunmur, ya da onların müalicəsi lazımi səviyyədə aparılmır. Bir sözlə, bu insanlar taleyin ixtiyarına buraxılıb. Yəni onların sağalması üçün vaxt sərf edilmir və bunun üçün xərcləməyə vəsait də yoxdur. Həmin ölkələrdə bu cür acınacaqlı vəziyyətin yaranmasının iki əsas səbəbi var. Birincisi, dövlətin vaxtında qabaqlayıcı tədbirlər görməməsi, ikincisi isə, insanların karantin rejiminin qaydalarına əməl etməməsidir.

Koronavirusla mübarizə dünyada bir mühüm amilə də aydınlıq gətirdi. Bu, hər bir ölkənin hansı dəyərlərə sahib olmasıdır. İndi inkişaf etmiş bir çox ölkələrdə baş verən insanlıq dramı da bununla bağlıdır. Humanizmdən dəm vuran, bizə insan haqlarından dərs keçməyə çalışan Qərb ölkələrinin insan həyatına verdiyi dəyəri görürük. Həmin dövlətlər insanların həyatını xilas etmək üçün ciddi addımlar atmır. Bu səbəbdən də həmin ölkələrdə ölüm halları yüksəkdir. Bir daha vurğulamaq istəyirik ki, sözügedən yerlərdə pandemiyanın daha sürətlə yayılmasında insanların öz günahı da çoxdur. Həmin dəhşətli vəziyyətdən ciddi nəticə çıxarmalıyıq.

Özümüzü, əzizlərimizi qorumaq naminə karantin qaydalarına əməl edək! İndi yaşamaq və yaşatmaq bizdən asılıdır!

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

# Ön xətt bölmələri yoxlanılıb





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrdə olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunların təmas xəttindəki əməliyyat şəraiti barədə məruzələri dinlədikdən sonra general-polkovnik M.Əliyev və general-polkovnik Z.Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə ediblər. Müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olması barədə müvafiq tapşırıqlar verib.

Ön xətdə olan Müdafiə naziri cəbhənin Talış kəndi istiqamətindəki döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidmət şəraiti ilə maraqlanıb.

Şəxsi heyətlə görüş zamanı Ali Baş Komandanın Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi və hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı verdiyi tapşırıqların icrası istiqamətində fəaliyyətlərin davam etməsindən danışan general-polkovnik M.Əliyev bu məsələlərin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu da xüsusi vurğulayıb.

Sonra tank bölmələrində olan general-polkovnik M.Əliyev və general-polkovnik Z.Həsənov tank heyətləri ilə görüşərək onların döyüş hazırlığını yoxlayıb və xidmətləri ilə maraqlanıblar.

Sonda hərbi qulluqçularla birgə nahar süfrəsi təşkil edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsindəki hərbi hissələrin silah və hərbi texnikasının döyüş qabiliyyətini yoxlayıblar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi hissələrdə şəxsi heyət üçün yaradılan şəraitlə tanışlıqdan sonra hərbi hissələrin sərəncamında olan silah və hərbi texnikanın müxtəlif növlərinə baxış keçirilib.

Hərbi hissələrin birinin ərazisində inşa olunan trenajor binasına gələn general-polkovnik M.Əliyev və general-polkovnik Z.Həsənov ekipajların tank və piyada döyüş maşınlarının təlim-məşq qurğularında atış və sürücülük məşqlərini izləyiblər.

Müdafiə nazirinin əmri ilə döyüş texnikası təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılıb və tapşırıq uğurla icra olunub.

# İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar 7382 nəfər üçün birdəfəlik maddi yardımın ödənişi təmin edilib

Prezident İlham Əliyevin 2020-ci il 24 aprel tarixli sərəncamının icrası olaraq, İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin müharibənin iştirakçılarının - 256 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik maddi yardımın maliyyələşdirilməsi artıq təmin olunub.

Bu barədə AZƏRTAC-a nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib.

Bildirilib ki, sərəncama əsasən, həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarından, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərdən və İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərindən, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərdən, Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 7126 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik maddi yardım ödənişi həyata keçirilib.

Sərəncamın icrası olaraq, ümumilikdə, 7382 nəfər üçün birdəfəlik maddi yardımın ödənişi təmin olunub.

Birdəfəlik maddi yardım vəsaitləri həmin vətəndaşların pensiya üzrə plastik kart hesablarına köçürülüb.

Xatırladaq ki, İkinci Dünya müharibəsi iştirakçılarına və digər şəxslərə hər il Qələbə günü ərəfəsində verilən birdəfəlik maddi yardımın məbləği mütəmadi artırılır. Bu istiqamətdə növbəti artım kimi, ötən il ilə müqayisədə hazırda həmin şəxslər üçün nəzərdə tutulan birdəfəlik yardımın məbləği də 50 faiz artırılıb.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Ayqedzor kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Dövlət çevik və genişmiqyaslı sosial dəstək

## Müsahibimiz Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevdir

***- Cənab nazir, pandemiyaya qarşı mübarizə, əhalinin sağlamlığının mühafizəsi sahəsində uğurlu iş təcrübəsi ilə seçilən Azərbaycan, eyni zamanda indiki çətin dövrdə də sosial dövlət olaraq çoxistiqamətli dəstək proqramları reallaşdırır. Bu proqramlar əsasən hansı istiqamətləri əhatə edir?***

- Yeni növ koronavirus infeksiyasının dünya ölkələrini kəskin böhran və itkilərlə, sosial-iqtisadi problemlərlə üzüzə qoyduğu son dövrlər dövlətlər üçün ciddi bir sınağa çevrilib. Hətta inkişaf etmiş ölkələrdə pandemiya qurbanlarının sayının minlərlə olduğu, böhranın çıxılmaz vəziyyət yaratdığı, səhiyyə sisteminin çökdüyü indiki çətin və mürəkkəb dövrdə Azərbaycan bu ağır sınaqdan uğurla çıxmaqdadır.

Prezident İlham Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində ötən dövrdə bütün istiqamətlərdə yaradılmış güclü iqtisadi potensial, xüsusilə müasir səhiyyə sistemi, peşəkar tibbi personal, eyni zamanda dövlət başçısının qəbul etdiyi operativ qərarlar, "Biz birlikdə güclüyük!" devizi ətrafında qısa müddətdə pandemiyaya qarşı yaranan güclü milli həmrəylik hərəkatı respublikaya bu qlobal böhranı uğurla adlayıb keçməyə imkan verir.

Təsadüfi deyil ki, bu gün istər pandemiyaya qarşı mübarizə və əhalinin sağlamlığının mühafizəsi, istərsə də pandemiyanın iqtisadiyyata və sosial rifaha mənfi təsirlərinin azaldılması sahəsində Azərbaycanın uğurlu iş təcrübəsi Ümumdünya Səhiyyə Təşkilatı və digər mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilir və bir örnək kimi qəbul olunur. Ölkəmizin pandemiya ilə mübarizədə təşəbbüsləri, təsirli tədbirləri başqa dövlətlər tərəfindən də tətbiq edilir.

Azərbaycan sosial dövlətdir və Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş amilinin dayanması əhalinin rifahının təminatı istiqamətində atılan mühüm addımlarda, ildən-ilə genişlənən sosial proqramlarda əyani təsdiqini tapır. Koronavirus epidemiyası dövründə də "Bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır" deyən dövlət başçısının güclü sosial siyasəti əhalinin sağlamlığının qorunması üçün kompleks təsirli tədbirlərlə yanaşı, çevik və genişmiqyaslı sosial dəstək proqramlarının hazırlanaraq həyata keçirilməsinə imkan verir.

Cənab Prezidentin 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstəyin təmin olunması üçün də çoxistiqamətli proqramlar müəyyən edildi. Ümumilikdə Tədbirlər Planı üzrə ayrılan vəsait ilk vaxtlar 2,5 milyard manat nəzərdə tutulsa da, dövlət başçısının tapşırığı ilə dəstək tədbirlərinin genişləndirilməsi nəticəsində bu vəsaitin məbləği 3,5 milyard manatı üstələmişdir.

Sənəddə məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 12 tədbir əksini tapıb, məşğulluq və sosial rifah bölməsinə 600 milyon manat vəsait ayrılıb. Həmin istiqamətlər üzrə qısa müddətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq işlərə başlanıb və onlar hazırda davam edir. Bu istiqamətlərə iş yerlərinin və işçilərin əməkhaqlarının qorunması, əhalinin məşğulluq imkanlarının artırılması, ödənişli ictimai iş yerlərinin sayının artırılması, işsizlər və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal çalışan şəxslərdən ibarət aztəminatlılara birdəfəlik ödəmələrin verilməsi, 2,3 milyon insanı əhatə edən sosial ödənişlərin davamlılığı, işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və s. daxildir. Həmçinin işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərin və peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinin sosial müdafiəsi, özünüməşğulluq proqramının genişləndirilərək icrasının sürətləndirilməsi, xüsusi həssas təbəqələrin sosial müdafiə tədbirlərinin gücləndirilməsi, ünvanlı dövlət sosial yardımı proqramının əhatə dairəsinin genişləndirilməsi, sosial yardımın verilməsi müddətinin uzadılması və təyinatının sadələşdirilməsi, tənha yaşlılara sosial xidmətlərin təşkili işinin miqyasının artırılması və digər dəstək tədbirləri qeyd edilən proqramların istiqamətləridir.

***- Bu sosial dəstək istiqamətləri üzrə hansı addımlar atılmış və nə qədər vətəndaş bu sosial dəstək tədbirləri ilə əhatə olunmuşdur?***

- Qeyd edim ki, ötən il Prezident İlham Əliyevin qəbul etdiyi qərarlarla iki inqilabi sosial paket icra olunub ki, nəticədə ümumilikdə əhalinin 42 faizinin, yəni 4,2 milyon nəfərin ciddi sosial dəstəklə əhatə olunması, əməkhaqqı, pensiya, sosial müavinət və təqaüdlər, eləcə də digər sosial ödənişlərin məbləğinin əhəmiyyətli dərəcədə, hətta bir sıra istiqamətlər üzrə iki dəfədən çox artırılması təmin olunub. Yəni ötənilki mühüm sosial dəstək hesab edirəm ki, bu il mövcud olan pandemiya dövründə də əhalimiz üçün bir sosial dayaq, mühüm sosial müdafiə rolunu oynayır.

Bununla bərabər, pandemiya dövründə dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılmasına, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əməkhaqlarının saxlanması üçün müvafiq işlər aparılmış və həmin işlər indi də davam edir. Qeyri-dövlət sektoru üzrə işçilərin məşğulluğunun qorunması məqsədilə pandemiyanın ilk günlərindən işəgötürənlərlə bağlı ciddi iş aparılır. Onlara "Əmək müqaviləsi bildirişi" altsistemi üzərindən xəbərdarlıqlar olunub və bu sistem vasitəsilə də gündəlik nəzarət təmin edilir. Yəni bu işlər dövlət sektoru üzrə 925 min, qeyri-dövlət sektoru üzrə isə 735 min, ümumilikdə 1 milyon 660 min muzdla (əmək müqaviləsi ilə) çalışan işçinin iş yerinin və əməkhaqqı gəlirinin qorunmasına imkan verir.

Cənab Prezidentin tapşırıqlarına uyğun olaraq məşğulluq imkanlarının artırılması, kölgə iqtisadiyyatına, qeyri-formal məşğulluğa qarşı kompleks mübarizə tədbirlərinin, xüsusilə işəgötürənlərə və işçilərə qeyri-formal məşğulluğa son qoyulması barədə edilən çağırışların uğurlu nəticəsi olaraq əmək müqavilələrinin sayında artım tempinin davam etdiyini görürük.




Nazirliyin "Əmək müqaviləsi bildirişi" altsistemindən mayın 1-də əldə olunan məlumata əsasən 2020-ci ilin əvvəlindən əmək müqavilələrinin sayı 105 min artıb. Daha pozitiv məqam kimi onlardan 94 minə yaxını özəl sektorun payına düşür. Eyni zamanda bu dövr ərzində ölkə üzrə əməkhaqqı fondu 8 faiz özəl sektorda əməkhaqqı fondu isə 12 faiz artıb.

Təsadüfi deyil ki, 2020-ci ilin 4 ayı ərzində nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) məcburi dövlət sosial sığorta haqlarından daxilolmaları proqnozdan 163 milyon manat və ya 17,2 faiz çox olub. Əgər ötən ilin müvafiq dövrü ilə müqayisə etmiş olsaq, hətta xüsusi karantin rejiminə baxmayaraq, DSMF-nin daxilolmaları keçən ilin müvafiq dövrünə nisbətən 313,4 milyon manat və ya 39,6 faiz artıqdır.

Digər tərəfdən, sosial ödənişlərin davamlılığı təmin edilir. Ötən il görülmüş tədbirlər nəticəsində DSMF-nin gəlirləri üzrə müəyyən edilmiş proqnozun 105,5 faiz icra edilməsi, əsassız pensiya işlərinin təmizlənməsi nəticəsində Fondun xərclərinə qənaət hesabına yaranmış 200 milyon manat ehtiyat bu sahədə əhəmiyyətli dəstək oldu. Aprel ayında da 2,3 milyon şəxsə sosial ödənişlər (o cümlədən 1 milyon 270 min nəfərə pensiya, 418 min nəfərə müavinət, 298 min nəfərə təqaüd, 82 min 300 ailənin 342 min üzvünə ünvanlı sosial yardım) verildi. Bu istiqamətlər üzrə əhaliyə təkcə aprel ayında ötən ilin müvafiq dövrünə nisbətən 27 faiz və ya 103 milyon manat çox olmaqla 480 milyon manatdan artıq vəsait ödənişi həyata keçirildi. Həmçinin son bir ayda bu sosial təminat növləri üzrə ödənişlər ötən ilin müvafiq dövrünə nisbətən 7 faiz və ya 154 min nəfər çox insanı, 2,3 milyon vətəndaşı əhatə etdi.

Onu da qeyd etmək lazımdır ki, 2020-ci ilin dörd ayı ərzində əmək pensiyalarının orta aylıq məbləği 2020-ci ilin 1 yanvar tarixinə nisbətən 12 faiz və ya 31,74 manat artaraq 2020-ci ilin 1 may tarixinə 295,3 manat təşkil edib. 2020-ci ilin 1 may tarixinə yaşa görə pensiyaların orta aylıq məbləği isə 329 manat təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bütün növ pensiyaların orta aylıq məbləği 64,24 manat və ya 27,8 faiz artıb. Bu isə pandemiya şəraitində pensiyaçılarımızın maddi təminatının qorunmasına ciddi dəstəkdir. Eyni zamanda 2020-ci ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 28,4 faiz artaraq 712,3 manat olub.

İşsiz və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal işləyən şəxslərdən ibarət 600 min aztəminatlı şəxs müəyyən olunub və onlara aprel ayı üzrə birdəfəlik ödəniş həyata keçirilib. Aprel ayı üzrə ödənişlər bank və poçt filialları vasitəsilə vətəndaşlara ödənilib.

May ayı üzrə ödənişlə bağlı isə vətəndaşlar üçün bank kartları artıq sifariş verilib. Onlara banklar tərəfindən kartlarını götürmələri üçün mesaj göndərilir və vətəndaşlarımız kartları əldə edərək bankomatlardan may ayı üzrə vəsaitlərini ala biləcəklər. Ümumilikdə 600 min şəxsə aprel-may ayları üzrə birdəfəlik ödəmə verilməsi üçün 228 milyon manat ayrılıb ki, onun da artıq 114 milyon manatı aprel ayı üzrə həmin vətəndaşlara ödəniş edilib.

Digər bir istiqamət kimi məşğulluq imkanlarının artırılması üçün dövlət başçısının tapşırığına əsasən ödənişli ictimai iş yerlərinin sayı 38 mindən 90 minə çatdırılır. Artıq DOST İş Mərkəzi vasitəsilə əlavə 23 min şəxs bu işlərə cəlb edilib. Hazırda 61 min şəxs əmək müqaviləsi ilə ödənişli ictimai iş yerlərində çalışır.

Özünüməşğulluq proqramına gəldikdə, bu proqram çərçivəsində cari il minimum 12 min ailə üçün kiçik təsərrüfatların qurulması işləri aparılır. Bu sahədə Dünya Bankı ilə birgə layihəyə də başlanır və həmin layihə üzrə hər il 5 min ailənin özünüməşğulluğu təmin ediləcək. Heydər Əliyev Fondu və BMT-nin İnkişaf Proqramı ilə birgə işsiz və əlilliyi olan şəxslərin biznesə çıxışına da dəstək verilir.

Ünvanlı dövlət sosial yardımı proqramının da əhatə dairəsi genişləndirilir. Təkcə aprel ayında əlavə 12 min ailə (50 min ailə üzvü) də bu proqrama cəlb edilib və hazırda 82 mindən çox ailənin 342 min üzvü ünvanlı dövlət sosial yardımı ilə təmin olunur. Hər ailəyə aylıq orta hesabla 224 manat sosial yardım ödənilir. Habelə işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi, 20 minədək şəxsi əhatə etməsi üçün qanunvericiliyə dəyişikliklər edilir.

Məlumdur ki, xüsusi karantin rejimi dövründə infeksiyaya yoluxma riski yüksək olan yaşı 65-i ötmüş vətəndaşların sağlamlıqlarının qorunması üçün onların evdən bayıra çıxmaları qadağan olunub. Bununla əlaqədar cənab Prezidentin göstərişi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bütün sosial xidmət işçiləri səfərbər edilməklə gücləndirilmiş iş rejimi şəraitində onlara evlərində gündəlik sosial məişət xidmətləri (ev təsərrüfatı ilə bağlı işlərdə, əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və s.) göstərilir. Prezident İlham Əliyevin "Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 14 aprel 2020-ci il tarixli Sərəncamı xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmətlərin səmərəli təşkilinə xidmət etməklə, eyni zamanda sosial xidmət işçilərinin əməyinə verilən yüksək dəyərin və onlara xüsusi qayğının əyani təzahürüdür. Xatırladım ki, xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən sosial xidmət işçilərinin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 1 misli miqdarında müddətli əlavə müəyyən edilib.




Həssas əhali qruplarının qayğı ilə əhatə olunmasında Heydər Əliyev Fondunun humanizm, mərhəmət və xeyirxahlıq prinsiplərinə əsaslanan çoxşaxəli tədbirləri, sosial layihələri pandemiya dövründə də xüsusilə geniş vüsət alıb. Fondun "Regional İnkişaf" İctimai Birliyi respublikanın bütün rayon və şəhərlərində tənha yaşayan vətəndaşlara, həssas əhali qruplarına ərzaq yardımları edir. Bu günlərdə isə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən sağlamlıq imkanları məhdud olan 30 min uşağın ailəsinə də ərzaq yardımlarının verilməsinə başlanıb. Eyni zamanda tənha yaşlılar və tənha əlilliyi olan şəxslər, aztəminatlı ailələr, digər həssas qruplarla bağlı həm dövlət qurumları, həm də özəl sektorun nümayəndələri tərəfindən milli həmrəyliyə mühüm töhfə olaraq sosial dəstək aksiyaları keçirilir.

Yaşlı tənha vətəndaşlarımıza operativ sosial xidmətlərin təşkilində sosial məsuliyyətdən çıxış edən "Azərmaş" ASC "Böyüklərimizi qoruyaq!" sosial aksiyası çərçivəsində sosial xidmətçi və könüllülərin çağırılan ünvanlara daha tez, rahat getmələri və kömək göstərilməsini operativ icra etmələri üçün 100 avtomobil və sürücü ayırıb.

Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Baş Prokurorluq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Nəqliyyat Agentliyi, Meliorasiya və Su Təsərrüfatı ASC və başqa dövlət qurumları tərəfindən on minlərlə tənha yaşlıya və əlilliyi olan şəxsə, ailə başçısını itirmiş ailələrə, aztəminatlı ailələrə ərzaq yardımları edilib. "Bravo" supermarketlər şəbəkəsi sosial məsuliyyət strategiyası çərçivəsində Bakı və ölkənin bölgələrində 25 min insanın, o cümlədən nazirlik tərəfindən evlərində sosial xidmətlərlə təmin edilən tənha yaşlılardan və tənha əlilliyi olan şəxslərdən ibarət 10 minədək şəxsin və ailə başçısını itirmiş ailələrdən 15 min ailənin ərzaq yardımı ilə təminatı proqramını həyata keçirib. "Azercell Telekom", "Gilan Holdinq", "İSR Holdinq","Binə Aqro", "A-Qrup Sığorta", "İrşad Elektroniks", "Özgədəbəy", "Aleks - Pastry & Bakery" və sair şirkətlər, həmçinin İsrailin Azərbaycandakı səfirliyi, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi, "ŞA-İnşaatçı" MTK, "Para" BOKT, "İnternational" BOKT, Yelo Bank, Azərbaycan Ət və Ət Məhsulları İstehsalçıları Assosiasiyası İctimai Birliyi və başqaları tərəfindən ümumilikdə on minlərlə ərzaq payı tənha yaşlı və tənha əlilliyi olan şəxslərə, həssas qruplardan olan digər vətəndaşlara, ailə başçısını itirmiş, çoxuşaqlı və ya sağlamlıq imkanları məhdud uşaqları olan ailələrə təqdim edilib.

Bütün bu sosial dəstək aksiyaları həm Bakı, həm də respublikamızın bölgələri üzrə olmaqla 100 minədək ailənin ərzaq yardımı ilə təminatını, 15 min tənha yaşlıya və əlilliyi olan şəxsə evlərində sosial xidmətin göstərilməsi işlərini əhatə edir.

Bu işlərdə könüllülərin xüsusi rolunu, dəstəyini vurğulamaq istərdim. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi könüllüləri, YAP könüllüləri, DOST könüllüləri və ASAN könüllüləri, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının, Gənclər Fondunun nəzdindəki Gənclərin İnkişaf və Karyera Mərkəzinin və "SƏLİS" Birliyinin könüllüləri görülən işlərə yaxından dəstək oldular və mən onların hər birinə öz təşəkkürümü bildirirəm.

Beləliklə, pandemiya ilə əlaqədar sosial sahədə dövlət tərəfindən yalnız Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə təqdim olunan dəstək tədbirləri 4,8 milyondan çox vətəndaşı və ya ölkə əhalisinin 48 faizindən çoxunu əhatə edir.

Bu sosial dəstək tədbirləri ilə bərabər, işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə sığorta ödənişinin, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə təqaüdün verilməsi müddətləri də uzadılıb. Bu sosial müdafiə tədbirindən 2 min nəfər faydalanır.

Ünvanlı dövlət sosial yardımının verilmə müddəti bitənlər üçün də bu sosial yardımın ödəniş müddəti uzadılıb. 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların əlillik müddətinin uzadılması (bu tədbir 14 min nəfəri əhatə edir) və sair sosial müdafiə işləri də aparılıb. Bunlardan əlavə, əhaliyə güzəştli işıq limiti aprel-may aylarında 100 kvts. həcmində artırılıb, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulub. Yəni dövlət bütün istiqamətlər üzrə əhaliyə öz dəstəyini göstərir.

*Ümumilikdə dünya ölkələrində iqtisadiyyata və sosial sahəyə dəstək tədbirləri üzrə mövcud olan təcrübələrə nəzər salanda görürük ki, Azərbaycan pandemiya dövründə bütün istiqamətlərdə və digər bir çox ölkələrlə müqayisədə daha əhatəli və çoxistiqamətli iqtisadi və sosial dəstək proqramlarına malikdir.* Yəni ölkəmizdə iş yerlərinin qorunması, işçilərin əməkhaqqının maliyyələşdirilməsi, işsizlərə, xüsusi karantin rejimi dövründə qazancını itirmiş qeyri-formal məşğul şəxslərə və heç bir gəliri olmayan digər həssas kateqoriyaya aid olan aztəminatlı şəxslərə birbaşa pul şəklində birdəfəlik ödəmənin verilməsi, məşğulluq imkanlarının artırılması üçün proqramların işə salınması, sosial müdafiə, sosial yardım və işsizlikdən sığorta ödənişi proqramlarının genişləndirilməsi, sahibkarların dəstəklənməsi və digər zəruri istiqamətlərdə geniş miqyasda işlər aparılır.




***- Sahil müəllim, mühüm sosial dəstək proqramlarından biri də birdəfəlik ödəmə proqramıdır. Bu proqramın məqsəd və mahiyyəti barədə istərdik məlumat verəsiniz. Hansı əhali qrupları bu dəstəklə əhatə olundu? Ödəmənin təyinatında hansı prinsiplər üstün tutuldu?***

- Birdəfəlik ödəmə proqramı pandemiya dövründə birbaşa o şəxslərə yönəldi ki, o insanlar işsiz və heç bir qazanca, gəlirə malik deyillər, dövlətdən hər hansı sosial ödəniş almırlar. Bu proqramda məqsəd də ondan ibarət idi ki, ilk növbədə, məhz həmin köməksiz, dəstəksiz qalmış insanlar müdafiə olunsunlar, onlara dövlət öz köməyini etsin. Belə də oldu.

İlk vaxtlar "Məşğulluq" altsistemində işsiz və işaxtaran kimi qeydə alınmış 200 min insan üçün nəzərdə tutulan proqramın əhatə dairəsi dövlət başçısının humanist siyasəti nəticəsində 3 dəfə genişləndi. Aprelin 17-də Prezident İlham Əliyev keçirdiyi videobağlantı formatında iclasda tapşırıq verdi ki, 200 min əvəzinə 600 min insana iki ay ərzində hər ay 190 manat birdəfəlik vəsait verilməlidir. "Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda koronavirusla bağlı işini müvəqqəti itirən və qeyri-formal məşğul insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür" deyə cənab Prezident bəyan etdi. Halbuki dövlət başçısı tərəfindən qeyri-formal məşğul insanlara formal məşğulluğa keçmələri üçün indiyədək dəfələrlə çağırışlar edilib və xüsusi dövlət proqramları təsdiq olunub.

# tədbirləri ilə vətəndaşının yanındadır




Qeyd edilən iclasda da cənab Prezident bir daha dedi: "Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu, sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanıldı. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq bu gün hələ də kölgə iqtisadiyyatında çalışan insanlar dərk edəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm bir daha, əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin".

Bu günlər həmin qeyri-formal məşğul şəxslərə, eləcə də işəgötürənlərə bir ibrət dərsi oldu. Onlar gördülər ki, bu vaxta qədər qeyri-formal çalışdıqlarına görə çətin gündə köməksiz qalırlar, lakin yenə də dövlət birdəfəlik ödəmə proqramı ilə onlara dayaq oldu. Bundan sonra isə əminik ki, onlar artıq qeyri-formal deyil, əmək müqaviləsi ilə çalışmağa səy göstərəcəklər.

Beləliklə, birdəfəlik ödəmə üçün bütün müraciətlərin qəbulu, emalı və ödəmə təyin olunub-olunmamasına dair qərarların qəbulu, nəticə barədə vətəndaşların məlumatlandırılması - bütün bu proseslər elektron qaydada, tam şəffaf şəkildə aparıldı. Aprelin 7-də Nazirlər Kabineti tərəfindən müvafiq qərar təsdiq edildikdən və müraciətlərin qəbuluna başlandıqdan 2 gün sonra - aprelin 9-dan birdəfəlik ödənişlərin həyata keçirilməsinə başlandı. Bu proses demək olar ki, bir aydan az bir müddətdə yekunlaşdı və 600 min işsiz və xüsusi karantin rejiminə görə qazancını itirən qeyri-formal işləyən şəxslərdən ibarət aztəminatlı vətəndaşlara ödəniş olundu. Halbuki bir çox ölkələrdə koronavirus pandemiyası dövründə işdən kənarlaşdırılmış milyonlarla şəxs işsizlik müavinəti almaqdan ötrü hələ də qeydiyyatdan keçə bilməyib.

Birdəfəlik ödənişlə təmin olunanlardan 55 faizi kişi, 45 faizi qadınlardır. Birdəfəlik ödəmə verilənlərin 25 faizi Bakı, 4 faizi Sumqayıt və 3 faizi Gəncə şəhərlərində yaşayanlar, 68 faizi respublikanın digər bölgələrinin sakinləridir. Həmçinin onlardan 8 faizi 20 yaşa qədər, 42 faizi 20-30, 25 faizi 30-40, 14 faizi 40-50 yaş arası, 11 faizi 50 yaşdan yuxarı olanlardır.

Digər sosial müdafiə və aktiv məşğulluq tədbirlərində olduğu kimi, birdəfəlik ödəmə proqramının icrası ilə bağlı da nazirlik ictimai aşkarlığa və ictimai nəzarətə xüsusi önəm verir. Bu məqsədlə birdəfəlik ödəniş edilmiş 600 min şəxsin siyahısı nazirliyin saytında yerləşdirilib. Qeyd edək ki, ötən dövrlərdə ünvanlı dövlət sosial yardımı alanların, özünüməşğulluq proqramına cəlb olunanların, mənzil, fərdi ev və avtomobillə təmin edilənlərin, ödənişli ictimai işlərə cəlb olunanların siyahıları da nazirliyin saytında yerləşdirilərək ictimaiyyətə açıqlanıb.

***- Belə bir əhatəli proqramın icrasında "e-sosial" portalı böyük bir yükü öz üzərinə götürmüş oldu ki, bu da portalın funksional imkanlarının geniş olduğunu göstərdi...***

- Birdəfəlik ödəmə ilə bağlı yüz minlərlə müraciətin müxtəlif dövlət orqanlarına məxsus 25 fərqli elektron informasiya bazalarından inteqrasiya şəraitində emalı, təhlili və qiymətləndirilməsi, bunun nəticəsində də vətəndaşlara ödəniş təyinatı və ya imtina barədə məlumatların göndərilməsi kimi geniş və çoxşaxəli böyük bir iş yükünün qısa müddətdə aparılması məhz nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin, o cümlədən "e-sosial" portalının və "Məşğulluq" altsisteminin sayəsində mümkün oldu.

Bildiyiniz kimi, 2018-ci ilin prezident seçkilərindən sonra Azərbaycanda köklü islahatların yeni mərhələsinə start verilib və sosial sahədə islahatlar da geniş vüsət alıb. Dövlət xidmətləri sahəsində e-texnologiyaların geniş tətbiqi ilə bağlı Prezident İlham Əliyevin müvafiq tapşırıqları sosial sahədə uğurla icra olunmaqla əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində idarəçiliyin və əhaliyə xidmətlərin elektron infrastrukturunun qurulması, bu sahələrdə innovativ əsaslarda proaktiv xidmətlərin yaradılması üçün mühüm addımlar atılıb.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST (Dayanıqlı və Operativ Sosial Təminat) layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulmasına imkan verib. Ötən il nazirliyin tabeliyində DOST Agentliyi və agentliyin Bakının Yasamal rayonunda 1 saylı və Xəzər rayonunda 2 saylı DOST mərkəzləri yaradılıb.

2019-cu ildə 21 sosial təminat növünün (2 pensiya və 19 müavinət-təqaüd növünün) elektron təyinat sistemi işə salınıb və təkcə bu il 38 mindən artıq şəxsə tam elektron qaydada pensiya, müavinət və təqaüd təyin edilib. Habelə ötən il 13 yeni "e-arayış" xidməti əhalinin istifadəsinə verilməklə, nazirliyin "e-arayış" xidmətlərinin sayı 15-ə çatdırılıb. Bu il daha 15 belə "e-xidmət" yaradılacaq. Həmçinin dövlət məşğulluq xidmətlərinin çevikliyini və əmək bazarı iştirakçıları üçün real vaxt rejimində əlçatanlığını, effektivliyini, əmək bazarında rolunun artırılmasını təmin edən "Məşğulluq" altsistemi qurulub. Hazırda bu altsistem bütün işsiz və işaxtaran vətəndaşlar və vakansiyalar barədə məlumatları özündə əhatə edir.

Bütün bunlarla yanaşı, sosial sahədə mühüm innovativ uğurlardan biri - Prezident İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli fərmanı ilə yaradılan, 16 elektron altsistemi və 2 reyestri özündə birləşdirən, ölkənin ilk sosial reyestri olan və bu gün də geniş funksional imkanları təqdir olunan "e-sosial.az" portalıdır. Portal vətəndaşlara onlar barədə toplanmış sosial məlumatlara - əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və sair üzrə çıxış, eyni zamanda 100-dən çox sosial xidmət növündən yaranmış hüquqları müqabilində çevik rejimdə yararlanmaq imkanı verir. Portalın "Android" və İOS əməliyyat sistemi üçün tətbiqləri də fəaliyyət göstərir.

Birdəfəlik ödəmə ilə bağlı ilk günlərdə müraciətlər "Elektron hökumət" sistemi tərəfindən vətəndaşa verilmiş istifadəçi adı və şifrə vasitəsilə qəbul edilirdi. Lakin müraciətlərin kifayət qədər çoxluğu, əksər müraciətçilərin indiyədək istifadəçi adı və şifrə əldə etməmələri, on minlərlə şəxsin eyni vaxtda qeydiyyatdan keçməyə çalışması vətəndaşlar üçün istifadə prosedurlarında çətinliklər yaradırdı. Bunu nəzərə alaraq, biz həm çoxsaylı müraciətlərin qəbulunu, həm bütün müraciətlərin 25-dək informasiya bazalarına inteqrasiya şəraitində emalını, həm də vətəndaşlara nəticə barədə sms-məlumatların göndərilməsi kimi geniş və çoxşaxəli, kifayət qədər böyük bir iş yükünü "e-sosial" portalı üzərindən tam elektron qaydada icra etdik. Qısa müddətdə - bir gün ərzində vətəndaşların sadə şəkildə, heç bir qeydiyyata ehtiyac olmadan müraciət edə bilmələri üçün portalda "onlayn müraciət" pəncərəsində müvafiq imkan yaradıldı.

"e-sosial" portalı əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, əlillik, reabilitasiya və sair müxtəlif istiqamətlərdə hər gün on minlərlə müraciətin qəbulu və emalı kimi əhatəli bir funksiyanı icra edir. Nəzərə alsaq ki, portal bunlarla yanaşı, birdəfəlik ödəmə ilə bağlı yüz minlərlə müraciətin qəbulu, müxtəlif qurumlara məxsus 25-dək elektron informasiya bazasına inteqrasiya edilməklə emalı, hər bir müraciət üzrə vətəndaşa sms - məlumatların göndərilməsi, vəsaitlərin köçürülməsi kimi əməliyyatları da eyni vaxtda yerinə yetirdi, o zaman portalın nə qədər böyük miqyasda iş yükünü üzərinə götürərək bunun öhdəsindən layiqincə gəldiyini təsəvvür etmək olar.




Nəticədə birdəfəlik ödəmə proqramının icrasında "e-sosial" portalının təkmil və kifayət qədər əhatəli bir iş yükünü daşımağa qadir güclü e-sistem, elektron nailiyyət, uğurlu bir innovativ layihə olduğu təsdiqini tapdı. Hətta bu sahədə nüfuzlu reytinq saytı olan Alexa.com saytının (ABŞ) qiymətləndirməsinə əsasən "Azərbaycanın top saytları" siyahısında "e-sosial.az" portalı ölkəmizdə ən çox müraciət olunan "google.com", "youtube.com" və "wikipedia.org" saytları ilə birgə ilk beşlikdə qərar tutdu.

"e-sosial" portalının imkanları bizə vətəndaşlardan heç bir sənəd istənilmədən, bunun əvəzində bu məlumatların e-informasiya bazalarından əldə edilməsinə şərait yaratdı. Əks halda müraciət etmək üçün yüz minlərlə vətəndaş hansısa kağız sənədləri almaq məqsədilə müxtəlif qurumlara müraciət etməli olacaqdı ki, bu da xüsusilə indiki karantin rejimi şəraitində mümkün olmayacaqdı.

Onu da bildirim ki, pandemiya ilə əlaqədar sosial dəstək tədbirlərinin genişləndiyi şəraitdə bu tədbirlərlə əlaqədar nazirliyin 142 - Çağrı Mərkəzi də gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Təkcə aprel ayında Çağrı Mərkəzinə vətəndaşlar tərəfindən 200 minə yaxın zəng daxil olub. Müraciətlər sosial dəstək tədbirləri, həmçinin əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial reabilitasiya və s. məsələlərlə bağlıdır. Hər bir müraciət əməkdaşlarımız tərəfindən ətraflı cavablandırılır, vətəndaşlara izahat və məlumatlar verilir. Çağrı Mərkəzində saat 9:00-dan 24:00-a kimi 100-dək operator tərəfindən zənglər cavablandırılır.

***- Bildiyimiz kimi, onlayn müraciət zamanı şəxsiyyət vəsiqələrinin müddəti bitənlərə də güzəştlər edildi. Daha nə kimi güzəştlər oldu? Bu kimi müraciətlər, təbii ki, vətəndaş məsuliyyətinin vacibliyini ortaya çıxarır.***

- Tamamilə doğrudur. Ümumilikdə qeyd etdiyim kimi, əsas məqsədimiz o oldu ki, birdəfəlik ödəmə proqramında bu dəstəyə ehtiyacı olanları maksimum əhatə edək. Baxmayaraq ki, portala edilən müraciətlərin emalı zamanı bir çox vətəndaşların sənədləri ilə bağlı ortaya müəyyən problemlər çıxdı, biz bu sahədə də vətəndaşlarımıza dəstək olduq.

Şəxsiyyət vəsiqələrinin müddəti bitsə də, dəyişməyənlər vardı. Lakin bu sahədə güzəşt tətbiq edildi, şəxsiyyət vəsiqəsinin müddəti bitmiş şəxslər üçün xüsusi karantin rejimi dövründə müraciət imkanı yaradıldı, onların şəxsiyyət vəsiqəsinin qüvvədə olma müddəti xüsusi karantin rejiminin sonunadək uzadıldı. Habelə bir sıra şəxslərin nikah münasibətlərində, ailə vəziyyətində dəyişiklik olsa da, bununla bağlı şəxsiyyət vəsiqələrini yeniləmədikləri məlum oldu. Onlara da güzəştlər edildi ki, müraciət edərək müvafiq meyarlara uyğun olduqları halda bu proqramdan yararlana bilsinlər.

Digər bir problem isə bir çox vətəndaşların telefon nömrələrinin öz adlarına olmaması ilə bağlı idi. Lakin bu sahədə də onlara imkan yaradıldı - müraciət edərkən öz adlarına olmayan, istənilən telefon nömrəsini qeyd etməkdə sərbəstlik verildi.

Təbii ki, güzəştlər edildi, lakin bu təcrübədən nəticə çıxararaq həmin vətəndaşlarımız bundan sonra öz sənədləri ilə bağlı daha diqqətli və məsuliyyətli olmağa çalışmalıdırlar.

***- Adlarına aktiv VÖEN, torpaq payı, yaxud əmək müqaviləsi olan vətəndaşlar var ki, onlar da müraciət ediblər və proqramdan kənarda qalmalarına görə müəyyən narazılıqları var. Bundan əlavə, eşitdiyimizə görə birdəfəlik ödəmə üçün müraciət edənlər sırasında maddi imkanları yetərli, hətta yüksək olanlar da vardı.***

- Məşğulluq haqqında qanunvericilikdə məşğul şəxs hesab olunanların dairəsi aydın şəkildə müəyyən edilib. Onların sırasına sahibkarlar, əmək müqaviləsi, yaxud mülki-hüquqi xarakterli müqavilə əsasında işləyənlər, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri və başqaları daxildir. Bu kateqoriyalardan olan şəxslər heç bir halda işsiz hesab edilmirlər.

Misal üçün, torpaq payı gəlir və məşğulluq mənbəyidir. Azərbaycanda torpaq payı olan vətəndaşların torpaqdan istifadə edərək həm rifah halını yaxşılaşdırmaları, həm də kənd təsərrüfatının inkişafına töhfə vermələri üçün dövlət geniş imkanlar yaradıb. Həmin vətəndaşlar torpaq vergisindən başqa digər bütün vergilərdən azad ediliblər, onlara il ərzində 6 növdə dövlət subsidiyaları verilir. Ona görə də torpaq payı olan hər bir şəxs o torpağı istifadəsiz qoymamalı, əkib-becərməli, ondan öz rifahı üçün maksimum yararlanmalıdır.

Adına aktiv VÖEN olan, yaxud əmək, xidməti və ya mülki-hüquqi xarakterli müqavilə əsasında fəaliyyət göstərən, torpaq payına malik şəxslər barədə məlumatlar aidiyyəti qurumların elektron bazalarından əldə olundu. Məhz bu məlumatlara əsaslanmaqla, insan faktoru olmadan, elektron qaydada qərar qəbul edilərək o şəxslərə imtina cavabı verildi.

Bununla bərabər, müraciət edənlər sırasında maddi imkanları yetərli, hətta yüksək olanlar da vardı və belə insanların 190 manatlıq vəsaiti əlavə gəlir kimi əldə etmək istəmələri bizi təəccübləndirdi. Məsələn, mülkiyyətində 2 və daha çox daşınmaz əmlakı, avtomobilləri və s. olanlar müəyyən edildi. Təbii ki, sayı heç də az olmayan həmin müraciətçilərə imtina cavabı verildi, bu barədə konkret göstəricilər əsasında məlumatlar yayıldı. Maddi imkanları yaxşı səviyyədə ola-ola onların məhz aztəminatlı insanlar üçün ayrılan yardımı almağa cəhdləri haqlı olaraq kəskin ictimai qınağa səbəb oldu.

Ümumilikdə müraciətlərin e-sistem tərəfindən təhlili zamanı müraciət edənlər sırasında nazirliyin "Əmək müqaviləsi bildirişi" altsistemindən alınmış məlumat əsasında 320 min şəxsin adına aktiv əmək müqaviləsi bildirişi olduğu, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin müvafiq informasiya bazasından alınmış məlumatlar əsasında 170 min şəxsin adına aktiv VÖEN olduğu, Əmlak Məsələləri Dövlət Xidmətinin informasiya bazasından əldə edilmiş məlumatlar əsasında 20 min şəxsin adına iki və daha çox daşınmaz əmlakı, Daxili İşlər Nazirliyinin müvafiq informasiya bazasından əldə edilmiş məlumatlar əsasında 19 min 200 şəxsin adında 2 və daha çox avtomobil olduğu və sair müəyyən edilərək onlara birdəfəlik ödəmə verilməsindən imtina edildi. Habelə müvafiq qurumların informasiya bazalarına istinad edilməklə 41 min müraciətin hazırda xarici ölkələrdə yaşayan şəxslər, 65 min şəxsin isə həyat yoldaşının birdəfəlik ödəmə üçün artıq müraciət edərək bu ödəmə ilə təmin edildiyi məlum oldu. Bundan əlavə, müraciətlər zamanı çox sayda səhv məlumatların, həmçinin bəzi şəxslər tərəfindən vəfat etmiş həyat yoldaşı ilə bağlı məlumat xanasına səhvən övladının FİN məlumatlarını və ya yanlış olan FİN məlumatları daxil edildiyi və sair müəyyən olundu. Bütün bu şəxslərə birdəfəlik ödəmə verilməsindən imtina edildi və onlara göndərilən mesajda imtinanın səbəbi göstərildi.

Yeri gəlmişkən qeyd edim ki, digər qurumların elektron informasiya sistemləri ilə işləyən əməkdaşları bu işlərdə birgə əlaqəli fəaliyyət müstəvisində bəzən günün 24 saatını işlədilər. Fürsət düşmüşkən onlara minnətdarlığımızı bildiririk.

***- Birdəfəlik ödəmə proqramı ilə əhatə olunanların sayını işsizlik səviyyəsi ilə əlaqələndirənlər də var. Bu, düzgün yanaşmadırmı?***

- Xeyr, bu, səthi yanaşmadan irəli gələn yanlış fikirdir. İlk növbədə, diqqətinizə çatdırım ki, birdəfəlik ödəmə proqramı təkcə işsizləri deyil, qeyri-formal çalışan və xüsusi karantin rejimi dövründə müvəqqəti olaraq qazancını itirmiş şəxsləri, vaxtamuzd çalışanları, habelə iqtisadi qeyri-fəal əhalini də əhatə etdi, bu kimi aztəminatlı şəxslərin də minimum ehtiyaclarını ödədi.

İkincisi, şəxsin məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyatı üçün əvvəlcə o, işaxtaran kimi qeydə alınır, bəlli bir müddət ərzində ona münasib iş təklif olunmadıqda, işsiz kimi qeydiyyata alınır. Birdəfəlik ödəmə proqramına başlanarkən həmin insanların pandemiya dövründə daha çevik şəkildə, qısa müddətdə maddi dəstəklə təmin edilmələri prinsipi üstün tutuldu. Buna görə də Nazirlər Kabinetinin 2020-ci il 7 aprel tarixli 127 nömrəli qərarı ilə təsdiq olunmuş qaydalara əsasən, bu kateqoriyadan olan şəxslərin "e-sosial" portalı üzərindən onlayn müraciətləri əsasında dərhal işsiz kimi qeydiyyata alınmasına şərait yaradıldı.

Birdəfəlik ödəmə üçün müraciət edənlər sırasında işsizlərlə yanaşı, çoxsaylı məşğul şəxslər, xüsusi karantin şəraitində qazancını itirən qeyri-formal işləyən şəxslər, habelə iqtisadi qeyri-fəal şəxslər (yəni işləmək istəməyən, heç bir zaman iş axtarmayan və yalnız ev işlərini yerinə yetirən, ailə üzvlərinə qulluq edən və sair) də oldu. Bu şəxslərin hamısının işsizlərə aid edilməsi, əlbəttə, düzgün deyil və sadə dillə desək, faktların təhrif edilməsidir.

İşsizliyin səviyyəsinə gəldikdə, onun ölçülməsində dünyada ən mütərəqqi yanaşma kimi Beynəlxalq Əmək Təşkilatının metodologiyası götürülür. Bu metodologiyaya əsasən yalnız əmək qabiliyyətli yaşda olan o şəxslər işsiz sayılır ki, həmin şəxslərin müayinə keçirilən dövrdə qazanc (gəlir) gətirən məşğuliyyəti olmasın, son bir ayda aktiv iş axtarsın və iş təklif edildiyi andan ən geci iki həftə ərzində işə başlamağa hazır olsun. Bu zaman muzdla işləyən şəxslər, fərdi sahibkarlar (o cümlədən işəgötürən və ya sabit vergi ödəyiciləri kimi fəaliyyət göstərənlər), ev təsərrüfatlarında məşğul olanlar, mülkiyyətdən qazanc əldə edənlər, iqtisadi qeyri-fəal əhali nəzərə alınmır. Başqa sözlə, işsizlik bütün dünyada iqtisadi qeyri-fəal əhalinin deyil, iqtisadi fəal əhalinin məşğul olmayanlarını özündə ehtiva edir.

Onu da vurğulayım ki, Prezident İlham Əliyevin iqtisadi və sosial sahədə apardığı dövlət siyasətinin prioritet istiqamətlərindən biri də iqtisadiyyatda qeyri-formal məşğulluğun azaldılması, əmək münasibətlərinin rəsmiləşdirilməsi yolu ilə işçi qüvvəsinin əmək və sosial hüquqlarının təmin olunmasına yönəlib. Bu məqsədlə dövlət komissiyası fəaliyyət göstərir və dövlət başçısı tərəfindən xüsusi tədbirlər planı təsdiq olunaraq icra olunur. Həmin tədbirlər çərçivəsində qeyri-formal məşğulluqla bağlı ən ciddi məsuliyyət tədbirləri müəyyən olunub, inzibatçılıq təkmilləşdirilib, qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidi stimullaşdıran ciddi mexanizmlər tətbiq olunub və bu istiqamətdə tədbirlər davam etdirilir. Qeyd etdiyim kimi, xüsusi karantin rejimi dövrünə təsadüf etməsinə baxmayaraq, qeyri-dövlət sektorunda əmək müqavilələrinin sayında ciddi artım da (yanvar-aprel aylarında əmək müqavilələrinin sayında 105 min artım olub ki, onlardan 94 minə yaxını özəl sektora aiddir) bu işlərin nəticəsidir.

***- Cənab nazir, bu il üçün nazirliyin qarşısında hansı hədəflər var?***

- Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu il həssas qruplarla bağlı nəzərdə tutulmuş bütün sosial müdafiə və aktiv məşğulluq proqramları, eyni zamanda bu proqramların genişləndirilməsi ilə bağlı planlar tam icra olunacaq.

Şəhid ailələrinə və müharibə əlillərinə 2019-cu ildə əvvəlki illə müqayisədə 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilib, 2020-ci ildə isə onlara bundan 60,6 faiz çox olmaqla 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Eləcə də 2018-ci ildə müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 265 avtomobil, 2019-cu ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600 avtomobil verilib. Xüsusi karantin rejimi bitdikdən sonra şəhid ailələrinə və müharibə əlillərinə yeni alınmış mənzillərin, müharibə əlillərinə avtomobillərin verilməsi işləri davam etdiriləcək.

Eyni zamanda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST mərkəzləri şəbəkəsinin bu il regionlar üzrə genişləndirilməsi işləri aparılacaq. Ötən il Bakının Yasamal rayonunda 1 saylı və Xəzər rayonunda 2 saylı DOST mərkəzləri yaradılıb. Yaxın günlərdə isə paytaxtın Nizami rayonunda 3 saylı DOST mərkəzinin açılışı olacaq. Bu il həmçinin Binəqədi rayonunda 4 saylı, Abşeron rayonunda 5 saylı, Sumqayıt şəhərində 6 saylı, Quba və Bərdə rayonlarında 7 və 8 saylı DOST mərkəzlərinin təmir-tikinti işlərinə başlanılacaq və mümkün qədər sürətlə bu işlər yekunlaşdırılacaq.

Məlum olduğu kimi, 2019-cu ildə Yevlax və Naftalan şəhərlərində əlilliyi olan şəxslər üçün Regional Bərpa mərkəzləri, Mərdəkan Müalicə Pansionatı, Protez-Ortopedik Bərpa Mərkəzi, Gəncə Pensiyaçılara Ərazi Sosial Xidmət Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Gəncə şəhərində Peşə Hazırlığı Mərkəzi açılıb. 2020-ci ildə isə Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran Regional Bərpa mərkəzlərinin, Şağan əlilliyi olan şəxslər üçün Müalicə Pansionatının, Göygöl və Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisələrinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilməsini təmin edəcəyik. Qəbələ və Şəmkirdə Uşaq Bərpa mərkəzlərinin açılması da bu ilə planlaşdırılıb.

Ümumilikdə cari ildə 10 reabilitasiya mərkəzi və sosial xidmət müəssisəsinin istifadəyə verilməsi nəzərdə tutulub. Peşə hazırlığı mərkəzləri şəbəkəsinin regionlar üzrə genişləndirilməsi üçün bu il üç rayonda - Quba, Bərdə və Şəki rayonlarında peşə tədrisi mərkəzlərinin açılması planlaşdırılır.

Ötən dövrdə sosial sahədə geniş e-sistemlər işə salınıb və e-nailiyyətlər beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Məsələn, özünüməşğulluq proqramı və qeyri-rəsmi məşğulluğun qarşısının alınması layihələri ilə yanaşı, ünvanlı dövlət sosial yardımı və əlillik üzrə elektron sistemlərimiz Beynəlxalq Sosial Təminat Assosiasiyası tərəfindən xüsusi mükafatlarla təltif olunub. Bu il elektron texnologiyaların tətbiqinin və əhaliyə proaktiv xidmətlərin əhatəsinin genişləndirilməsi işləri davam edəcək. Yeni e-təyinat və e-arayış xidmətləri işə salınacaq. Xüsusilə bölgələri əhatə edən aktiv məşğulluq tədbirlərinin miqyası genişləndiriləcək.

Bildiyimiz kimi, birdəfəlik ödəmə proqramı pandemiya dövründə genişmiqyaslı sosial dəstək proqramlarından yalnız biridir. İl ərzində sosial dəstək tədbirlərimiz, o cümlədən işsizlər və aztəminatlılar üçün özünüməşğulluq proqramı genişlənəcək. Peşə hazırlığı proqramı davam edəcək və iş tapmaqda çətinlik çəkənlər bu proqramdan faydalanaraq rəqabətqabiliyyətli peşələrə yiyələnəcəklər. Sosial xidmətlərin genişləndirilməsi, qeyri-formal məşğul vətəndaşların formal məşğulluğa keçidinin sürətləndirilməsi və digər sahələrdə işlər davam edəcək. Bir sözlə, dövlət başçısının qarşıya qoyduğu vəzifələrə və sosial islahatlar proqramına uyğun olaraq 2020-ci il də əmək, məşğulluq, sosial müdafiə sahəsində geniş islahatlar ili olacaq.

***Müsahibəni apardı***
***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

## Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının ilk iclası keçirilib



Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Fərmanına əsasən yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının yayılması ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsidir.

Fondun vəsaitlərinin xərclənməsinə nəzarət məqsədilə aprel ayının 11-də Baş Nazirin müvafiq Sərəncamı ilə İctimai Nəzarət Şurası yaradılıb və fondun vəsaitinin sərəncamçısı kimi Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edilib. İctimai Nəzarət Şurasının əsas fəaliyyəti fonda toplanmış vəsaitdən istifadə zamanı şəffaflığa və maliyyə hesabatlılığına nəzarət etmək, həmçinin ictimaiyyətin bununla bağlı mütəmadi məlumatlandırılmasını təmin etməkdir.

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, mayın 5-də Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının ilk iclası keçirilib. İclasda fondun fəaliyyəti, toplanmış maliyyə vəsaitlərinin təyinatı üzrə istifadəsi zamanı şəffaflıq və hesabatlılıq məsələləri müzakirə olunub.

Bildirilib ki, ianələrin məbləğindən və ödənişi həyata keçirənin sosial statusundan asılı olmayaraq fonda toplanan vəsaitlər haqqında məlumat ictimaiyyətə açıqdır və gündəlik olaraq rəsmi internet saytında (http://covid19fund.gov.az/az/) yerləşdirilir. İctimaiyyətin bütün təbəqələrindən olan vətəndaşlar, hüquqi və fiziki şəxslər, sahibkarlar ölkə üçün hazırkı çətin sınaq dövründə həmrəylik nümayiş etdirərək Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ödəmələr həyata keçirirlər. 2020-ci il 4 may tarixə fonda edilən ianələrin ümumi məbləği 113 milyon manat, 157 min ABŞ dolları, 87,5 min avro və 150 min rubl təşkil edir.

Qeyd edək ki, fonda toplanan vəsaitlərin koronavirusla mübarizəyə - xüsusi rejimli tibb müəssisələrinin formalaşdırılmasına, tibb müəssisələrinin infrastrukturunun təkmilləşdirilməsinə və maddi-texniki bazasının gücləndirilməsinə, tibb sahəsində çalışan işçilərin mükafatlandırılmasına və onlara maddi yardım göstərilməsinə yönəldilməsi nəzərdə tutulur. Fonda vəsaitlərin toplanması və ondan təyinatı üzrə istifadə məqsədilə Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində xüsusi xəzinə hesabı açılıb və bu vəsaitlərdən istifadə edilməsi Nazirlər Kabinetinin müəyyən etdiyi gəlir və xərclər smetası əsasında həyata keçirilir. İndiyədək fonda toplanmış vəsaitlərdən hər hansı formada istifadə edilməyib.

Tədbirin sonunda KİV nümayəndələrinin sualları cavablandırılıb.

## *İbrahim MƏMMƏDOV:* "Metronun fəaliyyətinin bərpa edilməsi koronavirusla bağlı tendensiyadan asılıdır"




Metronun fəaliyyətinin bərpa edilməsi koronavirusla bağlı vəziyyətdən asılıdır. Mayın 11-nə doğru xəstəliklə bağlı tendensiyanın necə olacağı bununla bağlı qərar qəbul etməyə imkan verəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirdiyi mətbuat konfransında deyib.

O, 65 yaşdan yuxarı vətəndaşların küçəyə çıxma məsələsinə də toxunub. Bildirib ki, mayın 11-nə doğru statistika pozitivə doğru meyil edərsə, bu məsələyə də baxılacaq.

## Koronavirusla Mübarizəyə Dəstək Fonduna 113 milyon manatdan artıq vəsait toplanıb

Bu gün Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı Nazirlər Kabineti yanında Operativ Qərargahında keçirilən mətbuat konfransında Nazirlər Kabineti Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

Onun sözlərinə görə, bu günə qədər fonda 113 milyon manatdan artıq vəsait toplanıb.

Milli Məclisin deputatı, İctimai Nəzarət Şurasının üzvü Ziyad Səmədzadə isə Fonda 11 mindən çox insanın dəstək verdiyini diqqətə çatdırıb.

## Azərbaycanda koronavirusa daha 76 yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 76 yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 2060 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1508 nəfər müalicə olunaraq sağalıb, 26 nəfər vəfat edib, 526 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 21 nəfərin vəziyyəti ağır, 27 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 164.481 test aparılıb.

# Biz birlikdə güclüyük!

## Azərbaycanda həyata keçirilən tədbirlər müsbət nəticəsini verib

### Kütləvi yoluxmanın qarşısı alınsa da, təhlükə hələ davam edir



Yer kürəsində COVID-19 adlı yeni növ koronavirusa qarşı mübarizə davam etməkdədir. Bu mübarizədə hələ də insanlar kiçik virusa uduzmaqdadırlar. Belə ki, dünyanın 210 ölkəsinə yayılan koronavirus infeksiyasına bir sutka ərzində 80 minədək insan yoluxub, təxminən 4 min nəfər də qurbanı olub.

Bölgələr və ölkələr üzrə COVID-19 virusuna yoluxanların qeydiyyatını aparan "Worldometer" saytının 04 may tarixli statistikasına görə, dünyada 3643271 nəfər yeni növ koronavirusa yoluxub, 252241 nəfər isə bu ölümcül virus səbəbindən həyatını itirib. Bu günədək ümumilikdə 1194739 nəfər müalicə üsulu ilə virusdan xilas olub.

Ən çox yoluxma və ölüm halları Avropa regionunda qeydə alınıb - 1 469 911 yoluxma və 142 143 ölüm. Sutka ərzində burada yoluxanların sayı 22 408, ölənlərin sayı isə 1540 nəfər artıb.

Şimali Amerikada virusa yoluxanların ümumi sayı 1319037 nəfər təşkil edir, indiyədək 76774 nəfər də ölüb. Cənubi Amerikada vəziyyət o dərəcədə də sərt deyil - 224274 yoluxma və 11268 ölüm faktı var.

Yoluxma sayı üzrə üçüncü yeri Çin, Koreya Respublikası və Yaponiyanın daxil olduğu Asiya qitəsi tutur. Son məlumata görə, burada 572839 yoluxma, 20078 ölüm faktı qeydə alınıb.

Ən çox yoluxanlar ABŞ-dadır - 1212835 nəfər. Onun ardınca İspaniya (248301), İtaliya (211938), Böyük Britaniya (190584), Fransa (169462) və Almaniya (166152) gəlir.

#### "COVID-19-a yalnız qarşılıqlı dəstəklə və birgə səylərlə qalib gələ bilərik"

Azərbaycanda isə vəziyyət digər ölkələrə nisbətən ürəkaçandır. Prezident İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti altında həyata keçirilən operativ, qabaqlayıcı və səmərəli tədbirlər nəticəsində ölkəmizdə kütləvi yoluxma hallarının qarşısı alınıb. Son 3 həftə ərzində xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamika müşahidə olunmaqdadır.

Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşündə Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyev giriş nitqində qlobal pandemiyanın bütün dünya dövlətlərinə mənfi təsir göstərdiyini qeyd edərək deyib ki, heç bir ölkə bundan sığortalanmayıb: "COVID-19-a yalnız qarşılıqlı dəstək, özünə qapanmama və birgə səylərlə qalib gələ bilərik".

Pandemiyanın ilk günlərindən Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasda olduğumuzu, müraciət əsasında təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyətin martda ölkəmizə səfər edərək vəziyyətlə tanış olduğunu xatırladan dövlət başçısı Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik və zəruri qabaqlayıcı tədbirləri sadalayıb: "... Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Son üç həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir daha həkimlərimizin peşəkarlığının şahidi olmuşuq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır".

Dövlət başçısı qeyd edib ki, pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait Azərbaycanla razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

Prezident İlham Əliyev BMT Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal humanitar cavab planının elan edilməsini, BMT Baş Assambleyasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndirdiyini bildirib.

#### "Vətəndaşlar karantin rejimi qaydalarına ciddi əməl etməlidirlər"

TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev ölkənin iri şəhərlərində karantin rejimi tələblərinin ciddi pozulduğunu deyib. Onun sözlərinə görə, məhdudiyyətlərin yumşaldılmasından sonra daha çox insan fərdi mühafizə qaydalarına məhəl qoymadan küçələrə çıxmağa başladı.

"Vətəndaşlar sosial məsafəni gözləmirlər və maska taxmırlar. Hökumət xəstəliyin yayılması ilə mübarizə məqsədilə bütün tədbirləri görüb. İndi vətəndaşlar məsuliyyət göstərməli və karantin rejimi qaydalarına ciddi əməl etməlidirlər", - deyən V.Əliyev xatırladıb ki, Operativ Qərargahın sonuncu brifinqlərinin birində koronavirusa daha çox yoluxmanın aşkarlandığı bölgələr açıqlanıb. Onlar arasında Gəncədən başqa, Bakı, Sumqayıt, Lənkəranın adı çəkilib. Gərgin epidemioloji vəziyyət hökuməti bu şəhərlərdə karantin rejimini yumşaltmamaqla bağlı qərar verməyə məcbur etdi: "Gəncədə yoluxanların sayının sürətlə artması ciddi siqnal kimi qəbul edilməlidir. Karantin rejimi gözlənilməsə, digər şəhərlərdə də vəziyyət pisləşəcək. İnsanlar başa düşməlidirlər ki, koronavirusla mübarizə bir-iki günün problemi deyil. Vəziyyətə daha ciddi yanaşmaq lazımdır".

O vurğulayıb ki, Azərbaycanda koronavirusla bağlı vəziyyət hər gün analiz edilir və əgər xəstələrin sayında artım müşahidə olunarsa, karantin rejimi nəinki uzadılacaq, eyni zamanda, yenidən sərtləşdiriləcək.

#### 486 sürücü inzibati məsuliyyətə cəlb edilib

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə mayın 4-də saat 00:00-dan mayın 5-də saat 00:00-dək olan müddətdə respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 486 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ümumilikdə aprelin 1-dən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 47 min 963 hərəkət iştirakçısı inzibati qaydada cəzalandırılıb.

#### İctimai nəqliyyatda tibbi maska taxmaq zəruridir

"Son günlərdə sərnişinlər xüsusi karantin rejiminə məsuliyyətsiz yanaşır. Bu da nəticə etibarı ilə beynəlxalq mediada, həm də ÜST tövsiyələrində deyildiyi kimi, ikinci dalğanın olması ehtimalını yüksəldir".

Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında Bakı Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Vüsal Kərimli söyləyib.

O, son günlər ictimai nəqliyyatda sıxlıq müşahidə olunduğunu, bunun isə xoşagəlməz hadisələrə gətirib çıxara biləcəyini deyib: "Bir həftə əvvəlki nəqliyyat axını ilə bugünkü arasında 10-12 faiz artım müşahidə olunur. İctimai nəqliyyatla bağlı metodiki göstərişlərdə deyilir ki, maska taxılmalıdır. Odur ki, ictimai nəqliyyatda tibbi maska taxmaq zəruridir və tələb olunur. Bununla bağlı cərimə mexanizminin olub-olmaması barədə yaxın günlərdə Operativ Qərargah qərar verəcək. Hesab edirəm, cəriməni yox, ictimai qınaqla bağlı maarifləndirməni seçmək daha doğru olardı".

V.Kərimlinin sözlərinə görə, "Bakubus"da 800-dən çox sürücü yoxlanılıb, testdən keçirilib. Nəticələr neqativ çıxıb, sürücülər arasında koronavirusa yoluxma faktı olmayıb: "Qarajları ciddi şəkildə dezinfeksiya edirik. Pandemiya dövründən əvvəl də hər gün dezinfeksiya aparılırdı, sadəcə avtobusun içində normal vaxtlarda dezinfeksiya aparatının olması təcrübəsi yox idi. Amma bundan sonra da həmin dezinfeksiya aparatını saxlamağı düşünürük".

Azərbaycanda əhali arasında virusa yoluxma sürətinin aşağı düşməsi, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. Xüsusi karantin rejimi mayın 31-nə qədər uzadılsa da, tətbiq edilən bir sıra məhdudiyyətlər aprelin 27-si və mayın 4-dən etibarən yumşaldılıb. Lakin bu qərar insanlarda təhlükənin sovuşduğu əhvali-ruhiyyəsi yaratmamalıdır. Çünki ölkədə COVID-19-a yoluxma halları hələ də davam edir. Bu isə adi bir ehtiyatsızlıq, məsuliyyətsizlik nəticəsində yoluxmanın arta biləcəyini istisna etmir. Ona görə də Nazirlər Kabineti yanında Operativ Qərargah bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## İctimai nəqliyyatda sağlamlığımızı necə qorumalıyıq

### Sərnişindaşımanın fasiləsizliyinin təmini və COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması üçün metodik göstərişlər hazırlanıb

Dünya koronavirus (COVID-19) adlı bəlayla mübarizə aparır. Bir neçə aydır ki, bu mərəzdən çıxmaq üçün müxtəlif yollar axtarılır və hələ də buna nail olunmayıb. Koronavirus sürətlə yayılaraq dünyada 3 milyondan çox insana yoluxub, 200 mindən artıq insanın həyatına son qoyub. Nə yazıq ki, bu statistika artan tendensiya ilə davam edir. Azərbaycanda virusun üzə çıxdığı ilk zamanlardan etibarən ciddi və təxirəsalınmaz tədbirlər həyata keçirilməyə başlanıldı. Koronavirusun geniş vüsət almasına imkan verməmək, vətəndaşların sağlamlığını qorumaq üçün həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirildi. Dövlətimiz tərəfindən görülən vacib tədbirlər sayəsində hazırda ölkəmizdə pandemiya ilə bağlı vəziyyət ürəkaçandır. COVID-19-la bağlı xüsusi karantin rejimi tətbiq olunsa da, ondan mərhələli şəkildə çıxmaq ərəfəsindəyik.





May ayının 4-dən etibarən əksər sahələrdə karantin qaydaları yumşaldılıb, bir çox fərdi iş yerləri açılıb. Məlumdur ki, karantin qaydalarının yumşaldılması, iş yerlərinin açılması və s. ilə bağlı insanların ictimai nəqliyyatdan istifadəsi də çoxalır. Bəs ictimai nəqliyyat işçilərinin və sərnişinlərin sağlamlığının qorunması məqsədilə ictimai nəqliyyatda hansı profilaktik tədbirlər görüləcək? Bununla bağlı TƏBİB-in hazırladığı yeni metodiki qaydalarda ətraflı məlumat verilir.

#### Xəstəliyə yoluxma riski bu halda azalır

Mövcud olan məlumatlara əsasən COVID-19 infeksiyası insanlar arasında birbaşa havadamcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə toxunduqdan sonra əllərlə ağız boşluğu, gözlərə, buruna və s. toxunduqda ötürülür. Bir çox hallarda yoluxmuş insanlarda xəstəliyin gedişatında yüngül simptomlar müşahidə edilir, lakin yaşlı və ya yanaşı xəstəliyi olan yoluxmuş insanlarda kəskin ağırlaşmalar müşahidə olunur.

Xəstəliyin profilaktik tədbirlərinə əl gigiyenası, sosial məsafənin saxlanması, gözlərə, ağız boşluğuna, buruna toxunulmaması və tənəffüs gigiyenası aid edilir. İctimai yerlərdə ortaq istifadə edilən səthlərin mütəmadi təmizlənməsi və dezinfeksiya edilməsi xəstəliyə yoluxma riskini azaldır.

#### Bu nəqliyyat vasitələrində şəffaf arakəsmələr quraşdırılmalıdır

Sərnişindaşımanın fasiləsizliyinin təmini məqsədilə vəzifələrin paylanması və onların həyata keçirilməsi ilə bağlı iş yerində və evdən işləmə üçün müvafiq şəraitin yaradılması olduqca vacibdir. İşçi heyətin nəzərinə şəxsi gigiyena tədbirləri haqqında məlumat çatdırılmalıdır. İşəgötürən tərəfindən işçilər qoruyucu vasitələr və dezinfeksiyaedici ləvazimatlarla (70%-li spirt tərkibli gel və ya məhlul) mütəmadi təmin edilməlidir.

İnfeksiyanın yayılmasının profilaktikasına dair məlumatların və maarifləndirici materialların elektron tablolar, nəqliyyat vasitələrində quraşdırılmış planşetlər vasitəsilə sərnişinlərə çatdırılması təmin edilməlidir.

Dayanacaqlarda, yeraltı nəqliyyatın platformalarında və nəqliyyat vasitələrində nəqliyyatdan mümkün qədər az istifadə edib piyada getməyi təşviq edən plakatlar və videomonitorlarda maarifləndirici təşviqat materialları yerləşdirilməlidir.

Bilet kassalarının, ödəmə terminallarının qarşısında, nəqliyyat vasitəsini gözləyərkən və yola düşdükdə, metro stansiyalarına daxil olduqda tibbi maska taxmaları tələb olunmalı və məsafə saxlamaları üçün nəqliyyat vasitələrinin gözləmə məntəqələrində, platformalarda və s. müvafiq işarələnmə aparılmalıdır.

Sərnişinlərlə sürücünün fiziki təmasının istisna edilməsi üçün nəqliyyat vasitələrində kabinə olmadıqda onların arasında şəffaf arakəsmələr quraşdırılmalıdır.

Şəhərdaxili taksilərdən istifadə edən müştərilər yalnız arxa oturacaqlarda otura bilər. Taksi sürücüsü ilə arxadakı oturacaqların arası şəffaf, hava keçirməyən arakəsmələrlə ayrılmalıdır. Bütün ictimai nəqliyyat vasitələrinin, o cümlədən taksilərin içərisinin havası vaxtaşırı dəyişdirilməli, fasilələr zamanı dezinfeksiya işləri aparılmalıdır. Sürücülər bir yerə yığışmamalı və onlara öz aralarında sosial məsafənin saxlanılması tapşırılmalıdır. Sürücülər arasında təmaslar minimuma endirilməlidir.

#### Təmizlik və dezinfeksiya işləri apararkən bunlara diqqət edilməlidir

Təmizlik-dezinfeksiya işləri səthlərin xüsusiyyətləri, təmizlik-dezinfeksiya qaydaları nəzərə alınmaqla və müxtəlif təmizlik vasitələrindən istifadə etməklə aparılır. Təmizlik-dezinfeksiya işləri növbəyə çıxdıqda və növbənin sonunda tam olaraq, hər iki saatdan bir sərnişinlərin tez-tez toxunduğu səthlərdə icra olunmalıdır.

Təmizlik-dezinfeksiya işləri həyata keçirilərkən aşağıdakı ardıcıllığa riayət edilməlidir:

- *mexaniki təmizlik: quru çirklər və tullantılar səthlərdən və məkandan uzaqlaşdırılır;*
- *təmizləmə isti su və lazımi hallarda yuyucu vasitələrdən istifadə etməklə həyata keçirilir;*
- *durulama: istifadə edilmiş yuyucu vasitə qalıqlarının səthdən tamamilə uzaqlaşdırılması məqsədilə isti sudan istifadə edilir;*
- *dezinfeksiya: istifadəsinə icazə verilən dezinfeksiyaedici maddələr istifadə təlimatına uyğun olaraq tətbiq edilir;*
- *dezinfeksiyadan sonra durulama: bu mərhələdə içmək üçün yararlı sudan istifadə edilir;*
- *lazım olan konsentrasiyadan (qatılıq) artıq istifadə edilməməlidir;*
- *digər şəxslərin yanlış istifadəsinin qarşısını almaq məqsədilə dezinfeksiyaedici məhlul hazırlandıqdan sonra qablaşdırma üzərində tərkibi və hazırlanma tarixi barədə qeyd yazılmalıdır;*
- *dezinfeksiya işlərinin aparılma tezliyi planlaşdırılmalıdır;*
- *dezinfeksiya işlərini həyata keçirən işçi heyət xüsusi qoruyucu vasitələrlə (əlcək, maska və s.) mütləq təmin edilməlidir.*

#### Dezinfeksiya edilməsi vacib olan sahələr

Dezinfeksiya işlərinin həyata keçirildiyi sahə bu işlər başa çatdıqdan sonra havalandırılmalıdır.

Dezinfeksiyaedici maddələrin istifadə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməlidir.

Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri:

- *giriş-çıxışlardakı ayaq altlıqları (xlor tərkibli məhlul və ya digər);*
- *qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);*
- *tutacaqlar (spirt tərkibli məhlul və ya digər);*
- *döşəmələr/platformalar (xlor tərkibli məhlul və ya digər);*
- *ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər);*
- *eskalatorlar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);*
- *ictimai nəqliyyatın pəncərələri (spirt tərkibli məhlul və ya digər).*

#### İşçi heyətin şəxsi gigiyenası

Əllərin gigiyenasına dair tövsiyələr:

- *əllərinizi axar su ilə isladın və sabunu əllərinizə sürtün, barmaqların və dırnaqların arasını yaxşı sabunlayıb ən azı 20 saniyə ovuşdurun, daha sonra əllərinizi axar suyun altında mükəmməl durulayın, təmiz salfetlərlə qurudun;*
- *sabun və ya sudan istifadə mümkün olmadıqda, etanol (spirt) tərkibli dezinfeksiyaedici məhlullardan istifadə edin.*

#### Tibbi maskalardan ümumi istifadə qaydaları

Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərti ilə taxılmalıdır. İstifadə zamanı maskanın ağızla təmasda olan hissəsinə toxunmaq olmaz. Maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır). Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır. Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir. Birdəfəlik maskalardan təkrar istifadə qəti qadağandır. Birdəfəlik maskalar istifadədən sonra tibbi tullantı kimi ləğv edilməlidir.

#### Tibbi xidmətin göstərilməsi üçün 103 TTTY-ə müraciət edilməlidir

İş zamanı özündə COVID-19-a aid əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 TTTY-ə müraciət edilməlidir.

İşə gəlməzdən əvvəl özündə COVID-19-un əlamətini(lərini) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) rəhbərinə xəbər verərək evdə izolyasiya olunmalıdır və tibbi xidmətin təmin olunması məqsədilə 103 TTTY-ə müraciət etməlidir. Xəstəliyin əlamətləri olan işçinin iş yeri dezinfeksiya edilməlidir. Həmin işçidə laborator üsulla COVID-19 təsdiqləndiyi halda onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanın bərpaolunan enerji, yaratmaq imkanları genişdir

### Koronavirusdan irəli gələn qlobal çətinliklərə baxmayaraq xarici tərəfdaşlarımız sözlərinə sadiqdirlər

Azərbaycanı haqlı olaraq günəşli ölkə adlandırırlar. Ərazimizin böyük bir hissəsi dənizin sahilində yerləşdiyindən, necə deyərlər, küləyimiz də boldur. Odur ki, ölkənin bir sıra yerlərində bərpaolunan enerji stansiyalarının inşa edilməsi üçün geniş imkan var. Bunları nəzərə alaraq Prezident İlham Əliyev bərpaolunan enerji mənbələrindən istifadəni energetika sahəsinin inkişafının prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Dövlət başçısının keçən il dekabrın 5-də imzaladığı "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı da məhz bu məqsədə xidmət edir. Bu il yanvarın 9-da isə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə bir külək və bir günəş stansiyasının tikintisi üçün müqavilələr imzalanmışdır. Külək stansiyası 240 meqavat, günəş stansiyası 200 meqavat gücündə olacaq. Bu stansiyaların tikintisi ilə bağlı pilot layihələrin icrası Prezidentin diqqət mərkəzindədir.

Təqdirəlayiq haldır ki, COVID-19-la bağlı dünyada qlobal səviyyədə müşahidə olunan mürəkkəb şəraitə baxmayaraq, "ACWA Power" və "Masdar" şirkətlərinin rəhbərləri imzalanmış sənədlərə sadiq qaldıqlarını bu yaxınlarda bir daha ifadə ediblər. Bu, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə bəslənən inamın və etimadın daha bir göstəricisidir.

Dövlət başçısı bir sıra çıxışlarında bu iki layihəyə önəm verdiyini vurğulayıb. 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirədə Prezident qeyd edib ki, bu, bərpaolunan enerji növlərinin yaradılması istiqamətində çox önəmli addımdır. Bu hadisənin əhəmiyyəti ondadır ki, vəsait investorlar tərəfindən qoyulacaq. Bu, ölkəmizə bəslənən inamın təzahürü, Azərbaycanın uzunmüddətli inkişafına göstərilən dəstəkdir.

İki stansiyanın istehsal gücü 440 meqavat təşkil edəcək. Bunlar regionda ən böyük günəş və külək elektrik stansiyaları olacaq.

Hazırda Azərbaycanın enerji balansında bərpaolunan enerjinin payı təqribən 17-18 faizdir. Uzunmüddətli strategiyaya görə, bu, ən azı 30 faizə çatdırılmalıdır. Həmin məqsədlə ölkəmiz xarici investorların iştirakı olmadan da bir sıra layihələr həyata keçirib. Məsələn, 50 meqavatlıq stansiya inşa edilib. İndi 84 meqavatlıq daha bir stansiyanın layihələndirmə işləri tamamlanır.

Bu ilin aprel ayında Ağdərə-Sumqayıt magistral qaz kəmərinin açılışında Prezident İlham Əliyev ölkəmizdə əhalinin sayının getdikcə artdığını, sənayenin inkişaf etdiyini vurğulayaraq demişdir ki, bu inkişafa adekvat olan enerji mənbələri yaradılmalıdır. Müasir texnologiyalar bu sahədə də çox böyük və müsbət dəyişikliklər etməyə imkan verir.

Keçən ay Bakıda "Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında dövlət başçısı bu məsələyə bir daha toxunmuşdur: "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpaolunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı... Bu layihələri icra etmək, yəni investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə bütün ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpaolunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər".

Mütəxəssislərin fikrincə, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 26 min 940 meqavat, o cümlədən külək enerjisi üzrə 3000, günəş enerjisi üzrə 23 min 40, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Xatırladaq ki, Prezidentin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamının icrası məqsədilə Energetika, İqtisadiyyat, Maliyyə, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər, Ədliyyə nazirlikləri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Əmlak Məsələləri Dövlət Xidməti, Dövlət Vergi Xidməti, Mərkəzi Bank, "Azərenerji", "Azərişıq" və digər qurumların təmsilçilərindən ibarət 7 işçi qrupu fəaliyyətini davam etdirir. Bu, Azərbaycanda alternativ enerji mənbələrinin yaradılması işinin yeni uğurlar gətirəcəyinə zəmanət verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Naxçıvan şəhər buzxanası yenidənqurma və bərpadan sonra istifadəyə verilib

Naxçıvanın qədim tarixi, mədəniyyəti və zəngin mətbəxi turizmin inkişafı üçün geniş imkanlar açır. Bu torpaqda min illər ərzində xalqımızın formalaşdırdığı məişət mədəniyyətinin izləri həm də tarixi abidələrdə - buzxanalarda yaşadılır.

Qədimdə insanların buza olan tələbatını ödəyən, ərzaq məhsullarının uzun müddət saxlandığı buzxanalarda bu gün milli mətbəx nümunələrimizin təbliği tarixi və mədəni irsimizin yaşadılmasına hesablanmış tədbirlərdəndir. Ali Məclis Sədrinin tapşırığı ilə Naxçıvan şəhərindəki buzxananın bərpa olunması da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 5-də Naxçıvan şəhər buzxanası bərpa və yenidənqurmadan sonra istifadəyə verilib, abidədə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi üçün iş şəraiti yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov inşaatçılar adından minnətdarlıq edərək deyib ki, muxtar respublikada aparılan tikinti quraşdırma və abadlıq işləri nəticəsində qədim diyarımız günü-gündən inkişaf edir. Tikinti işləri zamanı keyfiyyət amili diqqətdə saxlanılır, yeni binaların inşası ilə yanaşı, tarixi abidələr də bərpa olunur. Naxçıvan şəhər buzxanasında bərpa işlərinin görülməsi də bu tədbirlərin davamıdır.

"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin əməkdaşı Fəridə Əsədova çıxış edərək deyib ki, muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri sırasında tarixi-memarlıq abidələrinin bərpası xüsusi yer tutur. Buzxana abidəsinin bərpa olunaraq Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin balansına verilməsi göstərilən qayğının əyani ifadəsidir. Bu gündən etibarən "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi burada fəaliyyət göstərəcəkdir. Yaradılan şərait Naxçıvan mətbəxinin təbliğinə geniş imkanlar açacaq, yerli və xarici turistlərin böyük marağına səbəb olacaqdır. Fəridə Əsədova tarixi-mədəni irsimizin və dəyərlərimizin yaşadılması sahəsində görülən işlərə görə kollektiv adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını ölkə əhəmiyyətli tarixi abidəmiz olan Naxçıvan şəhər buzxanasının bərpa və yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə təbrik edərək deyib: "Abidələri yaşatmaq xalqın tarixini, mədəniyyətini, dəyərlərini yaşatmaq deməkdir. Bu gün tariximiz təkcə kitablarda deyil, eyni zamanda, abidələrdə yaşayır. Xalqımızın neçə əsr bundan əvvəlki təfəkkürünün məhsulu olan abidələri qorumaq, bərpa edərək yaşatmaq, gələcək nəsillərdə tariximiz və qədim mədəniyyətimiz haqqında təsəvvürlər formalaşdırır".

Ali Məclisin Sədri deyib: "Buzxana abidəsinin tarixi görkəmi qorunub saxlanılmaqla bərpa olunması ona ikinci həyat vermişdir. Abidədə xalqımızın milli dəyərlərinin bir hissəsi olan kulinariya mədəniyyəti yaşadılacaq və təbliğ olunacaqdır. Bu gün Naxçıvan Dövlət Universitetində müvafiq ixtisas üzrə kadr hazırlığının aparılması və həmin ixtisasın hamiliyə götürülməsi, eləcə də gənclərimizə kulinariya mədəniyyətimizin öyrədilməsi qarşıda duran əsas vəzifələrdəndir. Ona görə də buzxanada Naxçıvan Turizm Departamentinin "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin fəaliyyəti üçün şərait yaradılmış, yeni iş yerləri açılmışdır. Burada milli mətbəx nümunələrimiz hazırlanaraq təbliğ olunacaq, həm tariximiz, həm də dəyərlərimiz yaşadılacaqdır. Abidənin qorunması və yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunması Turizm Departamentinin üzərinə düşən vəzifədir. Buradan yalnız ictimai-iaşə obyekti kimi istifadə olunmamalı, eyni zamanda, televiziya verilişləri vasitəsilə milli mətbəx nümunələrinin hazırlanma qaydaları əyani formada nümayiş olunmalı, internet resurslarından istifadə etməklə təbliğat işi aparılmalıdır".

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə əminliyini bildirib, abidənin bərpasında əməyi olanlara təşəkkür edib, yaradılan şəraitlə maraqlanıb.

Ali Məclisin Sədri abidənin qorunması və milli mətbəx nümunələrimizin təbliği ilə bağlı tapşırıqlar verib.

# İsveçdə Azərbaycan mədəniyyətini təbliğ edəcək təşkilat fəaliyyətə başlayıb

İsveçdə Azərbaycan milli geyim və folklor təşkilatı fəaliyyətə başlayıb. AZƏRTAC xəbər verir ki, İsveç krallığının Onge əyalətində yaşayan Azərbaycanlı rəssam Kəmalə Kərimova Yansson bu ölkədə Azərbaycan - İsveç milli geyim və folklor təşkilatı yaradıb.



Kəmalə Kərimova Yanssonun sözlərinə görə, təşkilatın əsas məqsədi Azərbaycanın və İsveçin milli irsinin, zəngin mədəniyyətinin, adət-ənənəsinin, dastan və nağıllarının, milli musiqi-rəqs, mətbəx və el oyunları, habelə geyim və alətlərinin, məişət-el sənətkarlığının müxtəlif sahələrinin öyrənilməsi, yaşadılması və insanlara düzgün şəkildə təqdim edilməsindən ibarətdir. Bildirib ki, yeni təşkilatın formatı adıçəkilən ölkələrin və türkdilli millətlərin mədəniyyətini diqqətdə saxlamaqla yanaşı, digər xalqların da etnik-milli mədəni və folkloru ilə əlaqədar müxtəlif layihələr həyata keçirməyi nəzərdə tutur.

"Çox maraqlı və vacib fikirlərim var. Gələcək layihələrdə insanlar yaşından, milli-dini mənsubiyyətindən, çalışdığı vəzifəsindən asılı olmayaraq özünü, milli kimliyini, mədəniyyətini, ideya-arzularını sərbəst yaradıcılıq vasitəsilə ifadə edə biləcəklər. Bu təşkilatın bir mədəni birlik rəmzini daşıyan ocaq olması üçün çalışıram", - deyə Kəmalə Kərimova Yansson bildirib.

O, digər təşkilatlarla da birgə olaraq Azərbaycan adına, uğuruna, nüfuzuna layiqli fəaliyyət aparılmasının mümkünlüyünü qeyd edərək deyib: "İnanıram ki, vətənimizi, millətimizi, dövlətimizi uğurlarımız ilə sevindirəcəyik".

# Arının baldan da faydalı məhsulu - çiçək tozu

Bal, çiçək tozu, vələmum, mum, arı südü, arı zəhəri, bal qaymağı, güləm kimi arı məhsullarının hər biri sağlamlıq üçün çox əhəmiyyətlidir. Təbiətin bizə bəxş etdiyi bu əvəzsiz nemətlərin içərisində tərkibinə və müalicəvi xüsusiyyətlərinə görə çiçək tozu digərlərindən fərqlənir. Vitaminlər, proteinlər, karbohidratlar, makro və mikroelementlər, amin turşuları ilə zəngin olan çiçək tozunun fermentləri hüceyrələrdə gedən mübadilə proseslərini təmin edir, onun bioloji aktivliyini artırır.

Ağcabədi rayonundan olan arıçı Rəfayət Musayev söhbətində çiçək tozu, onun əldə edilməsi, əhəmiyyəti və istifadəsi barədə danışıb. Bildirib ki, çiçək tozu həşəratlarla tozlanan bitkilərin erkək elementinin arı fermentləri ilə zənginləşdirilməsi nəticəsində yaranan arıçılıq məhsuludur. Çiçək tozunu arılar balalarını yemləmək üçün, əsasən mart, aprel, may və iyun aylarında toplayırlar. Arılar onu arxa ayaqlarına yapışmış vəziyyətdə yuvalarına daşıyırlar. Arıların təbiətdən topladıqları çiçək tozu pətəklərin girişindəki xüsusi "tələ"lər vasitəsilə yığılaraq kölgədə və ya xüsusi qurğu vasitəsilə qurudulur. Yaş halda da soyuducuda saxlamaq olar.

Arıçı deyir ki, çiçək tozunun rəngi və tərkibi toplandığı bitkiyə görə dəyişir. Çiçək tozunun rəngi əsasən sarı olur. Bəzən çiçəkdən asılı olaraq qırmızı, qara, bənövşəyi və çəhrayı da ola bilər. Çiçək tozu tərkibinə görə baldan dəfələrlə üstün və faydalı arı məhsuludur. Orqanizmə lazım olan vitaminlər, amin turşuları, proteinlər, təbii hormonlar, karbohidratlar, fermentlərlə zəngin olan çiçək tozundan müxtəlif xəstəliklərin profilaktikasında və müalicəsində istifadə edilir. Çiçək tozunun faydaları da toplandığı bitkilərə görə müxtəlif olur. Belə ki, söyüdün çiçək tozu aspirini əvəz edir, soyuqdəymə zamanı çox faydalıdır. Qanqaldan toplanan çiçək tozu isə qaraciyərin dərmanıdır, immuniteti artırır, beyinin qan dövranını normallaşdırır.

Rəfayət Musayev çiçək tozunun qəbulu qaydası barədə də məlumat verib. Bildirib ki, bu qiymətli məhsulu səhər yeməkdən yarım saat əvvəl qəbul etmək lazımdır. Arı südünü bir çay qaşığı olmaqla sorulana qədər ağızda saxlamaq məsləhətdir. Çiçək tozunu balla qarışdıraraq da istifadə etmək olar. Axşam bir qaşıq çiçək tozunu sərin su ilə qarışdırıb səhər acqarına qəbul etmək çox faydalıdır.

Ağcabədili arıçının dediyinə görə, çiçək tozuna olan tələbat getdikcə artır: "Əvvəllər 30-40 kiloqram çiçək tozu satırdım. Keçən il isə 100 kiloqram satdım. Çiçək tozunun bir kiloqramı 50 manata, 100 qramı isə 7-10 manata təklif olunur. Tələbatın çoxaldığını nəzərə alıb, bu il 200 kiloqram çiçək tozu yığmağı nəzərdə tuturam. Çiçək tozu-



na olan tələbatın ildən-ilə çoxalması insanların onun faydaları ilə bağlı getdikcə daha çox məlumatlanmaları ilə bağlıdır".

Qeyd edək ki, çiçək tozu stressə qarşı davamlılığı, düşünmə qabiliyyətini, diqqəti artırır, immun sistemini stimullaşdırır. Beyin yorğunluğunu aradan qaldırır, zehni gücləndirir. Qaraciyər toxumasının funksiyalarını bərpa edir, ağciyər və qaraciyər iltihablarının müalicəsində, soyuqdəymədə müsbət təsir göstərir. Qanın laxtalanmasını və qanda xolesterinin miqdarını azaldır. Qan damar sisteminin işini, həzm prosesini normallaşdırır və qanı artırır. Sidik yollarında, prostat vəzinin hipertrofiyasının fəsadlarının azalmasında, böyrək rahatsızlıqlarında istifadə edilir. Uşaqların iştahının açılmasında və zehinlərinin inkişafında faydalıdır. Dərini təravətləndirir və cavanlaşdırır.

***AZƏRTAC***

# Samuxda 39,5 kilometrlik yerli əhəmiyyətli yol yenidən qurulur

Prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən, regionlarda yol infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam edir. Son illər Samux rayonunda da bu istiqamətdə müəyyən işlər görülmüşdür. Bu baxımdan uzunluğu 39,5 kilometr olan yerli əhəmiyyətli avtomobil yolunun yenidən qurulmasına başlanılması mühüm əhəmiyyət daşıyır.

Kəndarası yolların yenidən qurulması layihəsi çərçivəsində Yenikənd-Poylu avtomobil yolu və bu yoldan ayrılan Kəsəmən, Qarabağlı və Salahlı kəndlərinə gedən yolun yenidən qurulması işləri hazırda sürətlə davam etdirilir. Qeyd edək ki, Yenikənd-Poylu avtomobil yolu IV texniki dərəcəli olmaqla qara örtüklüdür. Avtomobil yolu uzun illər istismar olunduğundan demək olar ki, yararsız vəziyyətə düşmüşdü. Yolun torpaq yatağı deformasiyaya uğramış, yolda qabarma və çökmələr əmələ gəlmişdi. Yolun 14-26-cı kilometri təbii relyeflə eyni səviyyədə olduğundan atmosfer və suvarma sularının təsiri altında bir hissədə çoxlu sayda çalalar, çökmələr və gölməçələr əmələ gəlmişdi.

Hazırda layihə çərçivəsində mövcud yol örtüyü qazılaraq kənara daşınır, yol yatağının yararsız hissəsi müxtəlif dərinliklərdə qazılaraq çıxarılır, həmin yerlərə çınqıl tökülərək kipləşdirilir. Bundan başqa, yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması da həyata keçirilir. Eyni zamanda yeni yol yatağının bütün ərazilərində qum-çınqıl qarışığı tökülərək müxtəlif qalınlıqlarda bərpa işləri görülür. Bütün bu işlərə paralel olaraq sel sularının yolun altından ötürülməsi üçün mövcud suötürücü borular da bərpa olunur və lazım gəldikdə yeniləri qurulur. Analoji işlər Kəsəmən, Qarabağlı və Salahlı kəndlərinə gedən yolda da aparılır. Aşınmaya məruz qalmış və nəticədə istifadəyə yararsız vəziyyətə düşmüş hissələr tamamilə yenidən qurulur.

Qeyd edək ki, yenidənqurma işlərinin sonunda yollara iki laydan ibarət yeni asfalt beton örtüyü salınacaq. Tikinti işləri tamamilə başa çatdırıldıqdan sonra nəqliyyatın normal hərəkəti üçün yol nişanları, kilometr göstəriciləri və xəbərdaredici siqnal dayaqları quraşdırılacaq, üfüqi nişanlanma xətləri çəkiləcək, avtobus dayanacaqları quraşdırılacaq.

Gürcüstan Respublikası ilə dövlət sərhədinə yaxın ərazidə yerləşən yaşayış məntəqələrini əhatə edən bu yolun yenidən qurulması 4 minə yaxın əhalinin gediş-gəlişini rahatlaşdırmaqla yanaşı, yolboyu kəndlərdə yaşayan hər bir vətəndaşın sosial rifah halına müsbət təsir göstərəcək, avtomobillərin hərəkət təhlükəsizliyini təmin edəcək, istehsal olunan kənd təsərrüfatı məhsullarının tez bir zamanda bazarlara çatdırılmasına şərait yaradacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Daha altı rayonun icra hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması, bu dövrdə işləməyən şəxslər və aztəminatlı ailələrə ayrılmış ərzaq yardımlarının paylanmasında neqativ hallara təəssüf ki, hələ də rast gəlinməkdədir. Prokurorluq orqanları tərəfindən şəhər və rayon icra hakimiyyətləri ilə əlaqəli şəkildə qanunamüvafiq tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Lənkəran və Yevlax şəhər, Saatlı, Salyan, Daşkəsən və Hacıqabul Rayon İcra hakimiyyətləri başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol verməl əri barədə şəhər və rayon icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının Nərimanabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rafail Alışovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, imkansız ailələrə göndərilmiş ərzaq yardımlarının paylanması zamanı neqativ hallara yol verib ərzaq paylarını özünün yaxın qohumlarına, o cümlədən kəndin imkanlı şəxslərinə paylamasına əsaslı şübhələr müəyyən olunub.

Yevlax Şəhər İcra Hakimiyyəti başçısının Qaraməmmədli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mikayıl Əsədovun da eyni xarakterli qanun pozuntusuna yol verərək qulluq mövqeyindən sui-istifadə edib imkansız ailələrə göndərilmiş ərzaq yardım qutularını açaraq müxtəlif sayda və növdə məhsulları götürüb ərzaq yardımlarını natamam paylamasına şübhələr üçün əsaslar müəyyən olunub.

Bundan başqa, Saatlı Rayon İcra Hakimiyyəti başçısının Saatlı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nəsir Qədirovun, Salyan Rayon İcra Hakimiyyəti başçısının Parça Xələc kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Sadiq Dəmirovun və Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının Zağalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Hətəm Əzizovun vəzifə saxtakarlığına yol verərək xüsusi karantin rejimi qaydalarını pozub sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verməl ərinə əsaslı şübhələr müəyyən edilib.

Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının Navahı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Namiq Baxşıyev və Qarasu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsini icra edən İlknur Hüseynov tərəfindən də eyni xarakterli qanun pozuntusuna yol verilməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Həmin şəxslər müvafiq rayon icra hakimiyyətləri başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər.

Toplanmış materiallar üzrə müvafiq rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanıb.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək 961 nömrəli Çağrı Mərkəzinə məlumat verməl ərini xahiş edir.

# Beynəlxalq aləm

## Donorlar pandemiya ilə mübarizə üçün 7,4 milyard avro topladılar

Pandemiya ilə mübarizə mövzusunda beynəlxalq donor onlayn-konfransının iştirakçıları 7,4 milyard avro toplamışlar. Bu barədə Avropa Komissiyasının (AK) sədri Ursula fon der Lyayen məlumat vermişdir.

"Global Response" adlanan tədbir Ümumdünya Səhiyyə Təşkilatı və AK-ın himayəsi altında keçmişdir. Toplanmış vəsait COVID-19 sətəlcəminin diaqnozu və müalicəsinə, həmçinin xəstəliyə qarşı peyvəndin hazırlanmasına yönəldiləcək.

Konfransın yekunlarına görə Avropa İttifaqı beynəlxalq təşkilat kimi pandemiyanın fəsadları ilə mübarizə aparmaq üçün 1 milyard avro ayırmışdır. Bundan əlavə, Fransa və Almaniya müvafiq olaraq 500 milyon avro və 525 milyon avro pul ayırmağı öhdələrinə götürmüşlər. Yaponiya 762 milyon avro, Kanada 551 milyon avro, Səudiyyə Ərəbistanı 457 milyon avro, İngiltərə 441 milyon avro, İsveçrə 350 milyon avro, Meksika 274 milyon avro və Avstraliya 205 milyon avro pul təklif etmişlər.

Ursula fon der Lyayen qeyd etmişdir ki, "dünya ümumi rifah naminə misli görünməmiş birlik nümayiş etdirmişdir". AK-ın rəhbəri əlavə etmişdir ki, donor konfransı marafonun yalnız başlanğıcıdır və davam etdirilməlidir.

## Putin KXDR-in liderini medalla təltif etdi



Şimali Koreyanın lideri Kim Çen In "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. Müvafiq sərəncamı Rusiya Prezidenti Vladimir Putin imzalamışdır.

Qeyd olunur ki, KXDR-in lideri ölkəsində vəfat etmiş və dəfn olunmuş sovet vətəndaşlarının xatirəsinin əbədiləşdirilməsində verdiyi böyük şəxsi töhfəyə, həmçinin qəbiristan və abidələrin qorunub saxlanılmasına göstərdiyi qayğıya görə təltif edilmişdir. Rusiyanın Şimali Koreyadakı səfiri Aleksandr Matseqora mükafatı "Mansude" qurultaylar sarayında KXDR-in xarici işlər naziri Li Son Qvona təqdim etmişdir.

## İran denominasiyaya hazırlaşır

İranın parlamenti milli valyutanın adının dəyişdirilməsi və denominasiyası haqqında qanun layihəsini təsdiqləmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Qanuna görə, İranın milli valyutası "tümən" adlanacaq. Bundan əvvəl isə milli valyutanın rəsmi adı "rial" idi. Mübadilə zamanı 10 min rial bir tümənə uyğun olacaqdır. Beləliklə, denominasiyanın gedişində milli valyuta dörd sıfır itirəcək.

Valyutanın dəyişdirilməsi prosesi tədricən həyata keçiriləcək. Tümən və rialın paralel dövriyyəsi üç ilə qədər davam edəcək. Mərkəzi Bank yeni qanunun qüvvəyə minməsindən sonra iki il ərzində keçid dövrünün başlamasını təmin etməlidir.

## Gürcüstanda məhdudiyyətlərin yumşaldılmasının ikinci mərhələsi başladı

Dünən Gürcüstanda koronavirus epidemiyası ilə əlaqədar tətbiq olunmuş bəzi məhdudiyyətlər ləğv olunmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, tikinti təşkilatlarının, avtomobil yuyucularının, avtomobillərə xidmət və məişət texnikasının təmiri mərkəzlərinin işləməsinə icazə veriləcək. Həmçinin istirahət zonaları fəaliyyətə başlayacaq. Bu, məhdudiyyətlərin ləğvinin ikinci mərhələsidir. Belə mərhələlərin sayı altıdır. Birinci mərhələdə şəxsi nəqliyyat vasitələrindən və taksilərdən istifadəyə, onlayn ticarətə, ərzaq tədarükünə və açıq bazarların işləməsinə icazə verilmişdi.

## Senator ABŞ qoşunlarını Səudiyyə Ərəbistanından çıxarmağa çağırır

Respublikaçı senator Kevin Kramer ABŞ Prezidenti Donald Trampı 2500 hərbçini və "Patriot" hava hücumundan müdafiə sistemlərini Səudiyyə Ərəbistanından çıxarmağa çağırmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Senator "NPR" radiosuna müsahibəsində Vaşinqtonla Ər-Riyad arasında münasibətlərdə müşahidə olunan gərginliyi şərh edərkən bildirmişdir ki, Səudiyyə Ərəbistanı ABŞ-a neft müharibəsi elan etmişdir: "Nə üçün Səudiyyə Ərəbistanı ABŞ-a neft müharibəsi elan etdiyi halda biz hava hücumundan müdafiə sistemlərini və 2500 əsgərimizi orada saxlamalı və onları təhlükə altında qoymalıyıq?" Kramer qeyd etmişdir ki, ABŞ-ın neft şirkətləri neft bazarında tələbin azalması üzündən böyük problemlərlə üzləşmişlər və belə bir vəziyyətin yaranmasında daha çox Səudiyyə Ərəbistanı günahkardır. O, əlavə etmişdir ki, baş verən hadisələrə baxmayaraq, ABŞ hakimiyyət orqanları hələ də Səudiyyə Ərəbistanının Amerika bazarlarına maneəsiz girməsinə icazə verir.

Senator həmçinin Səudiyyə Ərəbistanının ABŞ-a göndərdiyi xam neftə gömrük rüsumu tətbiq edilməsi ideyasına tərəfdar çıxmışdır.

# 115 kiloqram narkotik vasitənin və odlu silahların ölkə ərazisinə qanunsuz yolla gətirilməsinin qarşısı alınıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması sahəsində tədbirləri davam etdirir. DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, mayın 4-də 115 kiloqram narkotik vasitənin və odlu silahların ölkə ərazisinə qanunsuz yolla gətirilməsinin qarşısı alınıb.

Saat 23:30 radələrində DSX Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əhmədli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində boz rəngli "VAZ-2107" markalı avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb edib. Sərhəd naryadı təlimata uyğun maskalanaraq həmin şəxsin hərəkətini nəzarətdə saxlayıb. O, ağacın altından bir neçə bağlama götürərək avtomobilə doğru hərəkət edən zaman sərhəd naryadı ona "Dayan!" əmri verib. Lakin həmin şəxs əmrə tabe olmayıb. O, sərhəd naryadına qarşı müqavimət göstərməsinə və hadisə yerindən qaçmağa çalışmasına baxmayaraq, sərhəd naryadı tərəfindən saxlanılıb.

Onun saxlanılmasını görən "VAZ-2107" markalı avtomobilin sürücüsü avtomobili sərhəd naryadının digər üzvlərinin üzərinə sürərək onların həyatına sui-qəsd edib və hadisə yerindən uzaqlaşıb. Sürücünün şəxsiyyəti müəyyənləşdirilib, hazırda saxlanılması üzrə əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Saxlanılmış şəxsin 1970-ci il təvəllüdlü, Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuş və hazırda həmin kənddə yaşayan, Rusiya Federasiyasının vətəndaşı Mehtiyev Şükür Əsgər oğlu olması müəyyənləşdirilib. Onun avtomobilə daşıdığı və ağacın altında qalan bağlamalarda ümumi çəkisi 115 kiloqram olan heroin, tiryək, marixuana və metamfetamin növündə narkotik vasitələr, 9 millimetr kalibrli "PAK RETAY-11" markalı tapança, 9 millimetr kalibrli 8 güllə, bir daraq, 12 kalibrli "Kral maqnium" markalı ov tüfəngi, 19 ədəd 12 kalibrli İran istehsalı olan "Mahama" markalı güllə aşkarlanıb.

Hadisə ilə əlaqədar Cinayət Məcəlləsinin 206-cı (Qaçaqmalçılıq), 228-ci (Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsaletmə, əldəetmə, saxlama, daşıma, göndərmə və ya satma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanıb, cinayətkar qrupun digər üzvlərinin cinayət məsuliyyətinə cəlb olunması üzrə zəruri əməliyyat-istintaq hərəkətləri davam etdirilir.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Əməyin təhlükəsizliyi məqsədilə montyor caynaq dəstlərinin satın alınması

İştirak haqqı: 500 manat

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

Müəssisənin adı:
**"Aztelekom"Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 01 iyun 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 09 iyun 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 10 iyun 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - İstehsalat zərurəti ilə tələb olunan 5000 ədəd 6,5 metr, 650 ədəd 8,5 metr hündürlüklü akril boya ilə boyanmış dəmir dirəklərin satın alınması

İştirak haqqı: 1500 manat

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**"Aztelekom"Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 01 iyun 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 09 iyun 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 10 iyun 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 03 aprel 2020-ci il tarixdə 2020-ci ildə təhsil müəssisələri üçün poliqrafiya məhsullarının istehsalı məqsədilə www.etender.gov.az saytında keçirilmiş açıq tenderlərin Tender komissiyasının qərarına əsasən nəticələri:

- 2020-2021-ci tədris ilinə nəşr olunan dərsliklərin komplektinə daxil olan müəllim üçün metodik vəsaitlərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Radius" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuş və 01 may 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.
- 2020-2021-ci tədris ilinə ümumi təhsilin təbiət fənləri üzrə dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti olmuş və 04 may 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.
- 2020-2021-ci tədris ilinə ümumi təhsilin humanitar fənləri üzrə dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti olmuş və 04 may 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.
- Dövlət nümunəli təhsil sənədləri blanklarının və məktəb sənədlərinin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti olmuş və 05 may 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Azercell

## abunəçilərinin nəzərinə

06 iyun 2020-ci il tarixdən etibarən aşağıdakı cədvəldə göstərilən ölkədə həm fakturalı xətt, həm də fakturasız (SimSim) xətt sistemlərinə aid nömrələrdə, rominq xidmətində istifadəyə görə rominq sazişi mövcud olan operatorlar üzrə vahid xidmət haqları tətbiq ediləcək.

| Ölkə | Daxil olan zəngin hər bir dəqiqəsinə görə xidmət haqqı | Bütün istiqamətlərə edilən zəngin hər bir dəqiqəsinə görə xidmət haqqı | Göndərilən hər bir SMS-ə görə xidmət haqqı |
|---|---|---|---|
| İRAQ | 0,50 AZN | 7,00 | 0,50 |

**Qeyd:** Abunəçilər Roming xidməti, tarifləri, həmçinin Rominqdə İnternet Paketlərinin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## Sinoptiklər xəbərdarlıq edirlər...

Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, mayın 7-dən 8-i səhərədək Bakıda və Abşeron yarımadasında havanın qeyri-sabit keçəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, arabir 15-20 metr/saniyəyədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5° enəcək.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, mayın 6-da Azərbaycanın qərb rayonlarından başlayaraq mayın 8-dək əksər bölgələrdə havanın dəyişəcəyi, qeyri-sabit keçəcəyi, bəzi yerlərdə arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv, şimal və qərb rayonlarında isə güclü olacağı ehtimalı var. Şimşək çaxacağı, dağətəyi rayonlarda dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimal edilir. Qərb küləyi əsəcək, mayın 7-də bəzi yerlərdə arabir 20-25 metr/saniyəyədək güclənəcək. Havanın temperaturu mayın 7-də ötən günlərlə müqayisədə 5-7° enəcək. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarında qısamüddətli daşqın olacağı proqnozlaşdırılır.

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.05.2020-ci il tarixdə saat 23:00-dan etibarən bir neçə saat ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: -"Aztelekom" MMC-nin inzibati binasında və struktur bölmələri, o cümlədən kənd EATS-nin cari təmir-tikinti işlərinin satın alınması

İştirak haqqı: 500 manat

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**"Aztelekom"Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 01 iyun 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 09 iyun 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 10 iyun 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**Sumqayıt Şəhər İcra Hakimiyyəti çoxmənzilli binanın dam örtüklərinin dəyişdirilməsi işlərinin davam etdirilməsinin satın alınmasının təkliflər sorğusu üsulu ilə həyata keçirilməsini elan edir**

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 12 may 2020-ci il saat 17:00-a kimi qəbul olunur. Təkliflər sorğusu zərflərinin açılışı 13 may 2020-ci il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 nömrəli ünvanda, Sumqayıt Şəhər İcra Hakimiyyətinin kiçik zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Rəhimdil Əhmədov, telefon: (018) 65 51448.

***Tender komissiyası***

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin kollektivi Milli Qvardiyanın Qərargah rəisi, polkovnik Rüfət Vəlimənmədova atası

**HƏMZƏ VƏLİMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi və kollektivi uzaq səfərlər kapitanı, Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin rəisi

**AYDIN MAHMUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7554
Sifariş 1189
Qiyməti 40 qəpik